AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ SENTYABR 2018

ULDUZ

№09 (592)

WWW.AZYB.AZ
WWW.AYB.AZ

- Rüstəm Kamalın ekspertizası
- Elnarə Akimovanın özüylə söhbəti və yazısı
- Anar: "İşdə əsər yazmağa vaxt olmur..."
- Əlli ilin "Sona bülbüllər"i
- Ömür dediyin söz imiş...
- Böyükdən uşağa
- Dərgidə kitab

BU SAYIMIZDA

3 Rüstəm KAMAL
"Sözümüzə ümidlə..."

6 Elnarə AKİMOVA
özüylə söhbəti və yazısı

11 Ruslan DOST ƏLİ
qürbət şeirləri

13 "Yazı masası"

tərcümə saatı 16

qısa fikirlər xəzinəsi 20

bir mahnının tarixçəsi 24

29 "Ömür dediyin söz imiş..."

Mina RƏŞİD
şeir vaxtı 32

35
Günel NATİQ
"Ölü səhra"

39
Cavanşir YUSİFLİ
tribuna

44
Arzu MURAD
"Bu gün çox xoşbəxtəm"



Luis FERDİNAND SELİN
müsahib
47

52
Reyhan YUSİFQIZI
böyükdən uşağa

58
Vaqif BƏHMƏNLİ
şeir vaxtı

61
Erik KARLFELDT
"Qanundan kənar" laureat

64 Rizvan NƏSİBOĞLU
"Nə qədər çəkəcək"

66 Nurlan AĞA
esse

68 Aynur NURLU
Saqif ZEYNAL
debüt

72 Seyran SƏXAVƏT
"Səkkizinci səhifə"

76 dərgidə kitab



Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 21.09.2018
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib.
«Aspoliqraf LTD» MMC-də çap olunub.
Sifariş. № 37. Tiraj: 300
Qiyməti: 2 man.
1967-ci ildən çıxır
Şəhadətnamə № 238
Nömrənin eksperti:
Ələmdar Cabbarlı



«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

«EKSPRESS» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
556 – 67 – 13
564 – 48 – 96

437 – 28 – 10
408 – 17 – 51

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

Sözümüzə ümidlə . . .

(“Ulduz” jurnalının avqust nömrəsi haqqında bəzi qeydlər)

Rüstəm KAMAL

“Ulduz”un hər nömrəsinə ekspert rəyi yazmaq, şeirləri, hekayələri ekspertizadan keçirmək artıq ənənə halını almışdır. Ekspert kimi ikinci dəfədir ki, jurnalda icmal səviyyəli yazı ilə çıxış edirəm.

Beləliklə, öncə nəsrdən başlayaq.

Azər Qismət məni təhkiyə mədəniyyəti ilə sevindirdi. O, hekayələrinin ritmini və intonasiyasını axıra qədər gözləyə bilir. Gündəlik yaşam detalları personajın yaddaşı kimi poetik filtrdən keçirilir. Hamıya məlum olan məişət peyzajını sadalamaqla obrazı yaratmır.

Elşad Baratın yığcam, qısa yazması, görünür, təfəkküründün strukturu ilə bağlıdır və təqdirə layiqdir. Elşadın bu “insan mənzərələri” bir ideya kimi maraqlıdır. Kiçik mətnlərdə bir insanın bütöv bioqrafiyasını yerləşdirmək, tale obrazını yaratmaq cəhdi alqışlanmalıdır. Bəzən tərcümeyi-hal üslubu poetik detallara “kölgə salır”. Məsələn, “Adamın ağırlığı ayaq səslərindən hiss olunurdu”(“Məhəmməd müəllim”). Yaxşı detaldır. Bu silsilədən “Fəxrim” adlı yazıda şeirin havası dolaşır.

Günel Eyvazlı “on barmağında on mərifət” olan istedadlı və ağıllı, erudisiyalı və zəhmətkeş gənc yazarımızdır. Günel xanım üçün sanki maraqsız və çətin janr yoxdur – özünü hekayədə, essedə, tənqidi məqalədə, poeziyada, bədii tərcümədə də rahat hiss edir. Günel “Ulduz”un bu nömrəsində “Muxtar” hekayəsi ilə görüşə gəlib. Elə ilk cümlədən onun nəsr texnikasını yetərincə mənimsədiyi hiss olunur. Dialoq və şüuraltı monoloq qəhrəmanın obrazını hekayənin əsas motivi və ideyası ilə bağlaya bilmişdir. Hekayənin cövhərindəki metafora mətnin pritçaya çevrilmək imkanını da vermişdir.

Digər istedadlı yazar Xuraman Hüseynzadə də bir neçə “cəbhə”də (poeziya və nəsr) çalışır, bu da mətnlərə təsirsiz ötüşmür. “Qəm dəftəri” hekayəsinin əvvəli və son abzası poeziya havası üstündə köklənir, amma süjetin ortasında, klassik hekayələrimizdə olduğu kimi, qadın güzəranı, məişət qayğıları müəllifin açıq müdaxiləsi ilə təsvir olunur. Hər halda Xuraman xanım bizi qadın taleyinə inandıra bilir!

İndi də keçək poeziya bölməsinə.

Jurnalın bu sayında da ənənəvi olaraq poeziya, xüsusən sərbəst şeir mühüm yer tutur. Gənclərin sərbəst şeirə üstünlük verməsi ədəbiyyat sosiologiyası baxımından təhlil olunası məsələlərdən biridir. “Verlibr kütləviliyi”nin

səbəbləri və perspektivləri, sərbəst vəznin imkanları və milli nəsrlə üslubi təması və s. ədəbiyyatşünaslarımızı ciddi düşündürməlidir. Bəzən "sərbəstlik" adı ilə poetik təfəkkürün "özbaşınalığı"na yol verilir. Nəsr sintaksisinin şeirin ümumi ritmini pozmasının fərqində olmurlar. Əlbəttə, sərbəst şeirin öz ritmi var.

Açığını deyim ki, Gülsadə İbrahimlinin şeirləri "şüuraltı kanalların təmizliyi və saflığı ilə" çox xoşuma gəldi. Hər şeir qadın tənhalığının bir fraqmentidir.

Bilirsənmi nə istərəm bu payızda, sevgilim,
Qısılaq bir-birimizə köhnə park oturacağında.
Sən siqaretinin külüylə oynayasan, mən saçlarınla.
Üşüyək, islanaq şəhərin daracıq küçələrində gecə yarılarına qədər.
Sonramı?
Sonrası can sağlığı...

Yeri gəlmişkən, şairlərin başlıqlara diqqət yetirməsini istərdim. Gülsadənin şeirlərə seçdiyi başlıqlar "poetik intriqa"nı, müəllif məqsədini tez açır, oxucu gözləntisini qabaqlayır. Şeirin başlığı ilə mənalar dünyası və atmosferi arasında assosiativ əlaqə olsa, yaxşıdır. Müqayisə və dəlil – sübut kimi həmin nömrədə Nuran Dündar Şeyhoğlunun "Ufuk çizgisi" və "Boşluq" şeirlərinə baxmaq kifayətdir ki, türklərin bunu necə ustalıqla etdiyini biləsən...

Orxan Saffarinin şeirlərində bəyəndiyim əsas cəhət – xatirə, yaddaş travmasını dilin travmasına çevirmək cəhdidir. Elə burdaca bir haşiyə çıxmağım gəlir: Xocalı soyqırımı, Qanlı Yanvar qətliamı etnik travma kimi yaşanılsa da, poeziyamızın (bütün ağlaşma pafosuna rəğmən) dilinə nədənsə yansımadı. Bu nömrədə çıxış edən tanınmış şairlər Elçin İsgəndərzadə və Rəsmiyyə Sabirin şeirlərini həmişə həvəslə oxumuşam. Onların bədii zövqünə, dərin təcrübəsinə və yüksək söz mədəniyyətinə inanmışam. Təqdim olunan şeirlər göstərir ki, Elçin İsgəndərzadə və Rəsmiyyə Sabir hansı vəzndə yazsalar da, klassik janrın (məsələn, gəraylının, qoşmanın...) şüuraltı

diktəsini, obraz və qafiyə yaratma məntiqini hiss edirlər. Hər şair janrın varlığını mətndə "sümüyü" ilə hiss edir. Janr düşüncəsi şeirin ya yaddaşında, ya da havasında yaşayır.

Təəssüf ki, bu gün gənc poeziyamızda janr probleminə (bəlkə, janr böhranına?) rast gəlirik. Yəni poetik söz janr baxımından dərk olunmur. Sərbəst şeir adıyla, fraqmentvari, nəzmə çəkilmiş təhkiyə arxasındakı janrı görmək olmur. Janr yalnız normativ, oturuşmuş sistem demək deyil, həm də şair və oxucu üçün lirik şeirin vacib səviyyəsidir.

Günay Ümidin yaradıcılığını da maraqla izləyirəm. Yadımdadır, bir neçə il bundan öncə Beynəlxalq Mətbuat Mərkəzində bu istedadlı şairin ilk kitabının təqdimat törəninə də qatılmışdım, şeirləri barəsində bir-iki kəlmə də söyləmişdim. Jurnalın bu sayında onun beş şeiri verilib. Şeirlərdə metaforik sıxlığa da çox yer verilir. Məsələn, götürək "Renkarnasiya" şeirini. Müəllifin metaforik düşüncəsi detalları bir-birinə zikr havasında görün necə kökləyir:

Sən gedəndən
Mavi darvazının ağzından
Addım iyi gəlmədi
Dünəndən
Küləyin çəkdiyi ahı
Geyinirdi zivədəki paltarlar
Yenə üz-gözünü turşudaraq
Axşam növbəsindən qayıdırdı ay...
Tərləmiş pəncərədən
Çiliklənirdi azan səsi...

Bu nömrədə alman poeziyasının bilicisi Yusif Savalanın H.Heynedən tərcümələri diqqətimi çəkir. Universitet illərində H.Heyne yaradıcılığına maraq mənə böyük ədəbiyyatşünas Y.Tinyanovdan keçmişdi. Y.Savalan Heynenin hər şeirinin mövzu və ideyasına uyğun Azərbaycan dilində vəzn və formasını tapmağa çalışmışdır.

Ey könül, bu yolu gəl vüqarla keç,
Səbr elə, güvən öz dəyanətinə.
Sən onu bağışla, fikir vermə heç
O şirin səfehin xəyanətinə.

Mərhum professor Əzizxan Tanrıverdinin məqaləsi resenzsiya ilə filoloji araşdırma janrlarının kəsişməsində yazılıb. Müəllifin təbiri ilə desək, "linqvistik tənqid konteksti" Adil Həsənoğlunu şair kimi daha yaxından və aydın görməyə imkan verir...

Görkəmli ədəbiyyatşünas Cəlal Bəydilinin klassiklərdən (T.Drayzer, K.Q.Yunq, N.Trubetskoy, K.Levi-Stross, C.Meriç...) seçmələri maraq doğurur. Bu mütəfəkkirlərin insan, cəmiyyət, kommunikasiya haqqında düşüncələri səviyyəli ədəbi üslubda oxuculara təqdim olunur. Ümumiyyətlə, aforistik, məntiqi ümumiləşdirmələr, fikrin yığcamlığı Cəlal Bəydilinin elmi araşdırmalarına da xasdır.

"Ulduz"un bu nömrəsi də oxunaqlı müsahibələrlə, zövqlü poliqrafik dizaynı ilə fərqlənir. Düşünürəm ki, iki amerikalı Nobelçinin – E.Heminqueyin və S.Luisin esselərinin bir nömrədə olması jurnalda mətnlərin ierarxiyasını pozur, ya bir rubrika altında, ya da hərəsi fərqli nömrədə verilsə, yaxşı olardı...

özüylə söhbəti...

Elnarə AKİMOVA

Getdilər, getdilər Berlinə sarı,
getdilər, getdilər ölümə sarı.
Güllələr demədi: geri qayıdın.
Lülələr demədi: geri qayıdın,
qəlpələr demədi: geri qayıdın,
hələ uşaqsınız, nə yaşınız var...

Bir dəfə mərhum kinodramaturq Aydın Dadaşov dedi ki, yazıçıların, şairlərin şəxsi məktublarını çap etmək, yaymaq düzgün deyil. Bunlar onun özəl dünyasına aid bir nəsnədir və kimsənin bilməsinə, oxumasına gərək yoxdur. İndi, özümlə söhbəti yazmağa başladığım məqamda həmin fikri xatırladım nədənsə... Özünlə etdiyin söhbəti yazıb məchulluqdan çıxaracaqsansa, bunun daha nəyi "öz" oldu? Həm də predmetimin həmişə başqalarına məxsus mətn olmasına öyrəşmişəm. İndi obyektivin fokusunda özüm olunca... Amma ədəbiyyat onsuz da hər gün özümüzlə etdiyimiz söhbət deyilmi? İç fırtınamız, susqunluğumuz, dalğınlığımız, rahatlığımızı tapdığımız mənəvi ərazidir.

Uşaqlığımız 90-cı illərin tarixi burulğanlarından, siyasi kataklizmlərindən, müharibə dəhşətlərindən keçdi. 20 yanvar günü çalınan həyəcan siqnalını, Xocalı dəhşətləri törədilən vaxt evimizdəki gərginliyi, hər gün televizor ekranlarından verilən cəbhə xəbərlərindən sonra ağırlaşan ab-havanı indi də hiss edirəm varlığımda. Nobelli yazar Svetlana Alekseyeviç "müharibənin qadın üzü olmur" – deyir. Bəs uşaq üzü? İsa İsmayılzadənin "Güllələr demədi" şeirini xatırlayıb sualıma əlüstü cavab tapıram. Yox, heç uşaq üzü də olmur bu lənətə gəlmişin.

Müharibə haqqında düşünürəm. Daha doğrusu, müharibə və ədəbiyyat haqqında. Hələ də ruhumuzda gəzdirdiyimiz müharibə ağrısının ədəbiyyatlaşan, ədəbi fakta çevriləcək ünvan və zamanına şahid olacağımı güman edirəm. Müharibənin izlərini bədənlərinin müxtəlif əzalarında gəzdirən insanların müharibədən sonrakı yaşamı, ruhi gərginlikləri mövzunu hər zaman diri saxlamağa imkan verir. Qarabağ savaşının içində olan insanların bir qismi şəhid oldu, bir qismi əsir düşdü, bir qismi də sağ olsalar belə, daxilən sevinməyə, həyatdan zövq almağa qadir deyillər artıq. Çünki onların yaddaş hücrələrində, ruhi dərinliklərində müharibənin qranat qəlpələri kimi qorxulu qalığı dolaşmaqdadır. Bu qorxu sabaha aparan yolla onların aralarına əbədi sədd çəkib. Ədəbiyyat nə vaxtsa bu hislərin yüksək ifadəsini verəcəkmi? Bilmirəm. İndi o illərdən bizi uzun zaman ayırır. Belə mürəkkəb, ziddiyyətli, xaotik bir dövrün fəci sonucları haqqında illər sonra bəhs etmək yazardan böyük həssaslıq tələb edir. Qarabağda, müharibədə olmayan, taleyindən bu ağrını keçirməyən yazıçının müharibə mövzusunda əsər yazması çətinləşir. Yazıçının beynindəki yaddaş lövhələri dil açıb danışmadıqca, yazdıqları süni təsvirdən, deklamasiyadan, sxematik yanaşmadan o yana getmir. İstisnalar isə həmişə olur. Elə sözümüz də, umacağımız da istisnalaradır.

Deyirlər, uşaqlıqda ailədə aldığın psixoloji zərbə insanı bütün ömrü boyu müşayiət edir. Bu fikrin doğruluğuna həmişə inanmışam. Çünki özüm bunun əksini yaşamışam və görmüşəm ki, elə əks yaşantı da insana sonrakı ömür yolunu adlamaqda necə yardımçı olur. Uşaqlığım fərəhli, işıq və sevgi dolu keçib. Atam altı uşağını halal zəhmət, alın açıqlığıyla böyüdüb. Həmişə deyirəm, heç vaxt qarşısına alıb öyüd verməyib bizə,

amma o qədər dürüst və əxlaqlı davranışı vardı ki, onun yaşam tərzi bizim üçün nümunəyə çevrilmişdi. Mən atamdan bir də bunları əxz elədim: İşığı və Sözə sevgini.

İşıq və sevgi… Bu iki ifadəni bacardığım qədər tez-tez işlədirəm. Yanaşı gələn amildir onlar mənim üçün. Hər insanın dəyəri də ehtiva edə bildiyi işıq və sevgi məcmusu qədərdir. Həyat onsuz da bizim istəklərimizi nəzərə almadan yoluna davam etmədədir. Şair demiş, zaman öz işində, vaxt axarında… Bəs zamanlara qarışmağa, ildən-ilə adlamağa bizə nə kömək edir? Gördüyümüz hər işə bəslədiyimiz sevgi. Üzləşdiyimiz bütün haqsızlıqlara rəğmən, içimizdə qoruyub saxladığımız işıq.

Elə adamlar var ki, uşaqlığında gəncliyini yaşayıblar. Belə adamlar çox müdrik olurlar. Məncə, hər bir insan ömründə belə bir adamın varlığına mütləq can atmalıdır. Bu, ruhi ehtiyacdır. Çünki istər gənclik olsun, istər qocalıq, hamı hər vaxt içini danışmaq üçün adam gəzir. Belə bir adamsa… mütləq müdrik olmalıdır. İşıq dolu… yoxsa sənin təsəllin müdrik olmayanların təsəllilərində tapılmaz. Sənət bizi yalnız bu müdriklərdən eləmir, həm də elə insanları tanımağa güclü potensial yaradır. O da olmayanda əsərlərlə çatır köməyimizə. Bütün böyük əsərlər bizi təkliyin amansız tənhalığından xilas edən, ruhumuzu diri saxlayan universumdur.

Ədəbiyyat ilk növbədə, işığımızın keçməsinə, odumuzun sönməsinə imkan verməyən böyük gerçəklikdir. Son istinaddır. Son ümiddir. Son zamanlar ədəbiyyat adamlarının intihara meyillənməsinin səbəbini də bunda görürəm: onlar üçün ədəbiyyat adlı, Söz adlı müqəddəs mehrab təsir gücünü itirib. Son duracaq olmaqdan çıxıb. Özü də bunu o kəslər edir ki, Sözdən başqa sığınacaq mənəvi ərazisi yoxdur. İnsanda anlamaq dərdi böyük olanda, biləndə ki, sənə çoxunun ehtiyacı var, eyni vaxtda həm də heç kimə lazım olmadığını duyanda bütün varlığını qəribə bir hiss bürüyür və bu hiss əsl "sən"i səndən uzaqlaşdırır, yerdə qalan isə sənin soyuq görünüşün olur. Bu isə həqiqətən də vahimə doğurur. Neynəmək olar? İndi cəmiyyətimizdə bunlar adi hal almağa başlayıb. Çünki dünyada dünyanı fikirləşənlərin sayı azalıb: "Dünyanın içində boğulub səsi/ İşığı sozalmış çıraq kimidir". Ona görə də dünya bizə qarşı çox amansızdır. Hamı "ömür udmaq istəyir, amma günlərini uduzur"… Amma arzulardan vaz keçmək olmaz. Çünki arzuların varsa, ümidlərin də var.

Bu mənada, ədəbiyyatda olanların, ziyalıların üzərinə böyük missiya düşür. İşığı çoxaltmaq… XX əsrin əvvəllərində ziyalı sözünün sinonimi kimi daha çox "aydın" sözü işlənirdi: Millətin aydınları… Bu ifadəni çox sevirəm. Baxmayaraq ki, ziyalı sözü də işıq mənasını ehtiva edir. Demək, nahaq seçilməyib heç nə, missiya sözün məna çalarında ehtiva olunub. Bütün haqsızlıqlara, nadanlıqlara, cahilliklərə baxmayaraq, işığı qorumaq lazımdır. Rəngli karandaşlar yenə də sevimli və gərəkli əşyamız olmalıdır. Uşaqlıqdakı kimi… Onlar bizə həyatın ağ və qara zolağından çıxmağa kömək edər. Ədəbiyyat nədir ki?! İnsanın dünya, zaman, Tanrı və təbiətlə bağlı düşüncəsinin sınırlarını böyütməsi üçün üz tutduğu müqəddəs mehrab! Axı insan pisliklərdən, yaramazlıqlardan sığortalanmayıb, o, əzabların pandora qutusudur, ədəbiyyatsa həmişə əzabları yenməsində ona yol göstərən olub. Sovet sistemi dağılandan sonra biz bu fikri də tarixin qalıqları altından çıxarıb, bir az da postmodernist dalğanın ardınca gətirdiyi revanşist ədanın təsirinə düşərək ona özgə məzmun, mündəricə verməyə çalışdıq: Ədəbiyyat insan tərbiyə eləmir! O zaman ədəbiyyat nəyə xidmət edir? Hansı amala, hansı məfkurəyə, hansı düşüncəyə? Əgər çağın insanı onu gündəlik sarmış olan hər cür mənəvi-ruhsal-psixoloji deqradasiyadan, maddi-sosial anomaliyalardan qurtuluş üçün ədəbiyyata sığınmayacaqsa, orda öz hüzurunu tapa bilməyəcəksə, o zaman bədii sənətin qayəsi hardan başlanıb harda bitir? Əgər durmadan artan kitablar, yazılan əsərlər sonucda insana yönəlik söz deməyə hasilə gəlmirsə, o zaman bəşəriyyət niyə hər zamanın qəhrəmanını yaratmağa çalışır, onunla öz dilində, düşüncəsində danışmağa çaba göstərir?!

Eko yazır: "Bütün dünya mədəniyyəti bir şeyi istəyir – sonsuzluğu əlçatan etmək". Biz dünyanın, dünya mədəniyyətinin bir parçasıyıq. Sonsuzluğa qarışmaq bizim də qayəmiz olmalı… Amma bu olacaqsa, baş tutacaqsa, yalnız və yalnız istisnalardan gələn İşığın və Sevginin gücü ilə gerçəkləşəcək…

...və yazısı

ADİL MİRSEYİD – BU ADAM QARA SEVDALI BİR ŞAİR...

Ramiz Rövşən şeirlərinin birində yazır: "Ömrümü qab kimi saldım əlimdən/çox sınmayan şeylər sınası oldu". Mərhum şairimiz Adil Mirseyidin də poeziyasında geriyə boylanışda çilik-çilik olmuş həyatın qırıqları gözə dəyir,

yaşanmış, yaşanacaq bütün sevdalarım
balıq kimi sürüşüb çıxır əlimdən

– deyə təəssüfün harayı oxunur. Amma bu, qulaq deşən haray deyil, həzin pıçıltıdır, səssiz baxışdır, içinə tökülən göz yaşıdır. Bu, Tale işləklərinin gətirib çıxardığı sonluq, keçilmiş yola vurulan yekundur. Görünür, şair ömrü hansısa məqamda boşluğun qaçılmaz əzabını yaşamağa müncərdir. Adil Mirseyid də son iki poeması – "Bürkü" və "Unio mistika"da içinin qaçılmaz əzabını, təklik sıxıntısını misralara hörür, ömür bioqrafiyasını özü anlatmağa çalışır. İndiyədək onu təhlil edən və etməyən, yaradıcılığını çözə bilən və bilməyən bütün düşüncələri yarıb öz taleyinin şeirini yazmağa qərar verir. Ona görə yox ki, şairin əsərləri təhlil predmetinə çevrilməyib. Sadəcə, bu poeziya ona toxunanı sirli qapılar önünə gətirib, onları labirint düşüncələr içrə buraxıb, yozumlar həm də yozumu olmayan mübhəmliklərə vəsilə olub. Belə olan halda şairin üsyanı başlayıb, amma ətrafla deyil, öz içi, öz dünyası, öz sevdaları ilə. Portretini cızmağa qərar verib, amma qeyrilərinə deyil, özünə, öz aləminə, bugününə. Düşmən olub, amma başqalarına deyil, yenə də özünə, taleyinə, yaşamına...

bu adam qara sevdalı sürrealist bir şair
bir az sufi bir az abdal bir az şaman və sair
bu adama düşmənəm mən bu adam da
mənə düşmən

90-cı illərdən başlayaraq şerimizdə daha çox epik başlanğıc güclənməyə başladı. Şairlər həyati müşahidələrini, bəzən hədsiz dərinlərə işləyən şüur oynaqlıqlarını təhkiyə elementlərinin gücü ilə verməyə çalışdılar. Bu elə, bəlkə, həmin səbəbdən hasilə gəlirdi, şairlərin daha çox həyatın dərinlərinə, bütün qatlarına baş vurma çabalarından. Yazılan şeirləri içdə yaşanılan ideyaların bədii təcəssümünə çevirməyə çalışırdılar və təsadüfi deyil ki, bu cəhd əsərlərin poetik strukturunun fərqli olması ilə nəticələnirdi. Zənnimizcə, müstəqillik dövrü şerində nəzm və nəsr hissələrinin növbələşməsi məsələsi də məhz bu ayrıntı ilə bağlıdır. Çünki bədii mətndə ideya axtarışları kəskinləşdikcə, daha doğrusu, dərinləşdikcə əsər daha çox öz forması ilə danışmağa üstünlük verir. Əlbəttə, şeir izah edilməməlidir, daha çox izah etməlidir. Öz təsir gücü ilə, şüuraltının işlədiyi və işlətdiyi dərin(lik)lərə qədər bizə məlum dünyanı darmadağın edib yeni dünyalara yol açmalıdır. İnsanın Tanrı, dünya, ölüm, həyat, yaradılış, sevgi ilə bağlı təsəvvürlərinin ərazilərini genişləndirməlidir. Bu, artıq misralara sığışmaqdan çıxıb "hadisə" (ni) bəlirtməyə gücü çatan nümunələr qismində mümkündür. Baxmayaraq ki, şeir söhbətlərdən deyil, misralardan hörülür, yaxud hörülməlidir. A.Mirseyidin poeziyasında misraların hörgüsü bir-birinə elə bağlanır ki, onları açmağa bəzən şairin özündən başqa kimsənin əli, əzmi çatmır.

Bu mənada, A.Mirseyid addım-addım gəldiyi yaradıcılıq yolundakı görünən bütün sirləri aşmağa çalışır. Poemalarında A.Mirseyid həm öz qarışıq rənglərdən ibarət dünyasını yazan şair, həm də bu dünyanın bütün mübhəmliklərini ortaya qoyan yozumçu, öz poeziyasının ən yaxşı təhlilçisidir. Şeirlərinə verdiyi bədii-fəlsəfi yozumda şair üslubunun bütün fərqli ədalarını görmək olur. Maraqlıdır ki, onun hətta başqa yaradıcı şəxsiyyətdən bəhs etdiyi yazılarında belə, əslində, öz tablosunu çəkdiyini görməmək mümkün deyil. Məsələn, sürrealizmin banilərindən biri olan Salvador Dali haqqında bəhs edərkən yazır: "Sürrealist fantaziyalar gerçəkliyə çevrilir. Salvador Dali sənəti XX əsrin metaforasıdır. Dali üfüqə qədər görünən dünyanın deyil, üfüq arxasında qalan dünyanın rəsmini çəkirdi". Adil Mirseyidin öz şeirlərində də üfüq arxasında qalan, görünməyən, öz rəngi, çəkisi, dadı, qoxusu olan dünyanın rəsmi görünür. Özü də bunun fərqində idi, yəqin. Yoxsa yazmazdı: "Öz rəsmlərimdən çıxmış bir adam kimi / yaşayıram ömrümü". Şairin son iki poeması şair ömrünə yenidən qayıdış üçün imkan yaradır.

Adil Mirseyidin avtobioqrafik səciyyə daşıyan "Unio mistika" ("Ulduz" jurnalı, 2014, N-7) və "Bürkü" ("Azərbaycan" jurnalı, 2014, N-7) poemaları yüksək poetik məziyyətləri, ürfani dəyəri ilə seçilir. "Unio mistika" poemasındakı bir fikir hər iki əsərin qayəsini, estetik mündəricəsini dəqiq xarakterizə edir: "bəzən özündən qaçdığı zaman/yenə öz qarşısında dayanır insan". Poemalar bütün həyatı boyu fərdi dünyası ilə baş-başa qalan sənətkarın öz qarşısında dayanıb verdiyi hesabatı ifadə edir. Bu hesabat "məndən aşağı kimsə yox, ondan da yuxarı" (M.Şəhriyar) nisbəti ilə Yaradana müraciətin yeni, təzətər duyğularını yaradır. Bütün həyatı boyu "ayna" simvolikasına sadiq qalan və dünyaya aynaya baxırmış kimi baxan A.Mirseyidin keçmişinə, uşaqlıq xatirələrinə dönüşü belə onun kimsəylə deyil, məhz Tanrıyla paylaşmaq istədiyi məqamlar kimi mənalanır. Bu poeziyada şair-Tanrı birgəliyinə üçüncü kimsənin qarışmağına ehtiyac qalmır.

ilahi bir zamanlar mən də
xoşbəxt olmuşam
bir zamanlar bu dünyada
mənim də anam vardı
gülüm vardı sonam vardı
biləyini kəsdi xatirələr
bəndənizi qan apardı

Adil Mirseyidin "Bürkü" poemasını şairin son sözü, duası, arzusu, dərdləşməsi, pıçıltısı kimi almaq olur yalnız. "Bir avqust bürküsü içrə" düşüncələrini yazan şair bir iyul bürküsü içrə bizləri tərk etsə də, son əsərləri müəllifinin iç vuruşlarını, təlatümlərini meydana qoymaqdadır. Bu poemada şair öz taleyini yazıb sanki. Əsərdə şairin öz ömür yoluna poetik səfəri, yaşanmış illərin müdrik bədii təhlili var. Müəllifin, demək olar ki, bütün şeirlərində ehtiva olunan duyum və ifadə çalarları, müxtəlif məzmunlu anımlar lirik-fəlsəfi düşüncələrin qanadında bədii siqlət qazanır. Adil Mirseyid öz dünyasına sığınır, öz içindəki dünyanı tərənnüm edir, "mən öz röyalarımdan çıxmış adam kimi/ yaşayıram ömrümü" – deyərək heç kəsə bənzəməyən dünyanın sakinlərinə qucaq açmada davam edir.

insan gözüylə görünməyən
başqa bir dünyayam mən
ən məsud anlarımda birdən
ölümü düşünürəm həmən
burda başqa bir zaman içindəyəm
mənim vaxtım sizin vaxtla uzlaşmır
bir zamanlar orda sizin dünyada
yaşadığıma peşman deyiləm
mən əhv etmişəm sizi
heç kimə düşman deyiləm
burda nə zalım nə zülm var
burda nə ayrılıq nə də ölüm var
burda yalnız gerçəkləri göstərir aynalar
öz rəsmlərimdən çıxmış bir adam kimi
yaşayıram ömrümü

"Bürkü" nostalji hislər, melanxolik duyğular, təklik ovqatının həzinliyi içrə yazılmış əsərdir. Müəllifinin "impressionist poema" adlandırdığı bu əsər tünd rənglərin qarışığını, həyatın dibində olan "qara sevdalı" şair həyatını şeirə gətirir. Yuxu ilə reallıq, arzu ilə ümid, təbiət və Tanrı münasibətlərinə bir başqa, bir az ürfani, mistik, bir az da dünyəvi yozum verən bu poema dərin şair ahının, şair kədərinin başlanğıc götürdüyü məqamlara həssasdır. "Bürkü"nün semantik stixiyası sirli, təhtəlşüur dünyadan xəbər verir. Həm şairin fərdi dünyasına, yaşamına məxsus cizgilər, notlar, həm də kosmik başlanğıc, dünya kontekstindən təhlilə gələn məqamlar poemada vahid bədii məkanı təşkil edirlər. Bu universumda Adil Mirseyid poeziyasının fərqli çalarları bütün incəlikləri ilə təsvirə gəlir.

Fərqlilik həmişə maraq doğurur, həyatın bozluğundan, adiliyindən qurtulub yeni dünya düzəninin varlığına daha artıq inandırır insanı. Fikir vermişəm, fərqli insanlar bir az da tərki-dünya olurlar, öz dünyaları, öz mənəvi məkanları olur sanki. Bu məkanı özləri yaradırlar, buranın suyu və suyunun dadı, havası və havasının mehi, ağacı və ağacının ucalığı, çiçəyi və çiçəyinin ətri bir başqa olur. Daha çox lirizm və emosionallıq, hissin, duyğunun psixoloji ladda gərginliyi, lirik xarakterin faciə ilə sonuclanan həyat tərzi kimi əlamətlər Adil Mirseyidin şeirlərində əsas üslubi keyfiyyətlərtək özünü göstərsə də, onun tənhalığının əlaməti kimi səciyyə qazanır. Bu iki poemanın əsasında da şairin yaşadığı ömrün anları, real həyat faktı durur: günəşi batmış insan, harmoniyası pozulmuş şəhər, nizamı itmiş təbi-

ət obrazı. Şair maraqlı metafora polifoniyası yaradır, fərqli, təzadlı görüntülərə orijinal, məcazi yük, məna siqləti, simvolik çalar verə bilir:

bilməm nədir ruhumu bu havaya oynadan
sevdalı bir qadın baxır aynadan
pərişan bir qadın boynu bükülü
bəyaz güldanda beş ayrılıq gülü
beş durna uçur, beş qərib durna
*nişan alıb öz könlümü vururam an*a

"Boynu bükülü pərişan qadın, "beş ayrılıq gülü", "beş qərib durna" – hər biri ayrı-ayrılıqda və birlikdə şair tənhalığının göstəricisi kimi səciyyələnirlər. Bəlkə, ona görə şair öz könlünü nişan alır, heç kimin və heç nəyin ovuda, tənhalıqdan qurtara bilmədiyi könlünü hədəf seçir. Adil Mirseyidin bütün şeirlərindən keçən yol anlayışına burda da yer var. Bu poemalarda yol, insanın xatırlamaqla unutmaq arasında olan zaman məsafəsini bəlirtir. Düşünürsən, yolun, yoxuşun xatırlayıb unutmağa nə dəlaləti ola bilər axı? Amma və lakin... Deyəsən, axı var... Yollar həyatdır, yaşamaqdır, hələ üzü dağa gedən yollar dirilikdir, demək... Enişlər kimsəni xatırlamağa imkan verməyə bilər, amma dağlar heç unutmağa qoyarmı ki?! Bu elə Sizif çabasıdır ki var... faydasız əməyə mübtəla olmaqdır. Sən unutmaq istəyirsən, amma mümkün deyil, o daşı qaldırmağa məhkumsan artıq. Xatırlamaqla unutmağın arasında var-gəl etməyin nəticəsiz əməyinə məhkumsan...

Bir də unutmaq haqqında düşünürsənsə... demək, xatırlanmağa həmişə kimsə var.

Adil Mirseyidin "Unio mistika" poeması formanı özünə əsir edən məzmun yenilikləri ilə zəngindir. Bu məzmun bəzən o qədər detallı, psixoloji nüans səhihliyi ilə şeirlərə gətirilir ki, formal olan bütün zahiriləri unudursan, eləcə mənaya varmağa, zövq almağa çalışırsan. Bunun adı, olsun ki, elə poetik yaşamdı...

Adil Mirseyidin poeziyası büsbütün poetik yaşamdan doğan sənətdir. Bütün qəribliyi, tənhalığı və ağrısı ilə birlikdə. Çünki bu adam qara sevdalı bir şair...

Ruslan Dost Əli
(Qazaxıstan)

* * *
lənətə gəlsinlər bütün görüşlər,
artır günü-gündən gül qəzaları.
qız, sənin baxışın təhlükəlidir,
hər an ola bilər göz qəzaları.

çox olur, danışıb həddi aşmalar,
görün nə qədərdir dil qəzaları.
ən gözəl qəzadır salamlaşmalar,
get-gedə azalır əl qəzaları...

qəzan mübarəkdir, ay mömin kişi,
min dəfə otur-dur, qıl qəzaları...
biz ömür sürməkdə xam olmasaydıq,
bu qədər olmazdı yol qəzaları...

* * *
ömrüm də, vaxtım da badə kimidir,
şərabla doldurram bütün boşluğu.
bircə nəfər qalıb əl verəcəyim,
tanrıya borcluyam bu sərxoşluğu.

bu evin çölündə nə varsa, qaçıb,
bu evin içində nə var, gedəcək:
bir gün qanad çalıb şəklin uçacaq,
bir gün ayaq açıb divar gedəcək.

bilmirəm, bilmirəm neçədi saat,
iki şüşə qalıb nahar vaxtına.
nə gül var, nə də bir gül verəcəyim,
məni saxlamayın bahar vaxtına...

* * *
zarıyır, çöllərin canına düşür,
tutub bağlamırıq it canımızı.
bu zaman olmasa əcəl-zad nədi,
heç it də bəyənməz şit canımızı.

birtəhər qaldırıb təbə gətirdik,
elə bil bir ölü dəvə gətirdik:
qolundan yapışıb evə gətirdik,
götürüb apardı dərd canımızı.

ömür nə faytondu,
nə də maşındı,
cilovsuz atıdı, qar aşınıdı.
ölüm bizdən ötrü ət maşınıdı,
hər gün bir az çəkir ət canımızı...

* * *
vecimə də deyil bəstəboyluğun,
getdikcə ən uzun fəslim olursan.
məni mən eləyən köküm səndədi,
sən mənim nə gözəl əslim olursan.

gedişin ağlımı tamam çaşdırır,
yüngül ağrıları ağırlaşdırır,
səni gözlərimdə tanrılaşdırır,
qayıdıb gələndə mislim olursan.

bu da bir addımdır, gündür, deyirsən,
hər günü addımtək atıb gedirsən.
əlini qaldırıb dua edirsən,
görən elə bilir təslim olursan...

* * *

bu söz nə sözmüş, ilahi,
dəftərə dadı çıxıbdı:
hamının qapısın döyür,
küləklər lotu çıxıbdı?!
bu gün mənim söz yaşımdı,
söz əlimdi, söz başımdı.
daşlar mənim göz yaşımdı,
bir azca qatı çıxıbdı.
həə, elə sən deyəniymiş,
bu yağış səngiyəniymiş.
torpaq adam yeyəniymiş,
xoxanın adı çıxıbdı...

* * *

az ölün, yara yerinə
ağzımdan ağı çıxacaq.
bağrımın başı geyişir,
minillik ağrı çıxacaq.

ac-yalavac ölümlərə
adam soyulu kimidir.
dədə, qaşnan göz arası
əcəl su yolu kimidir.
bu gözünnən bulanmışa
baxıb, başını bulama.
dərdim palçıq şəklindədir,
üstünü-başını bulama...

* * *

hələ var vaxta sən də,
otur, onda gedərsən.
bu son görüş – deyirsən,
son vaqonda gedərsən.

gələn-gedən olmasın,
qapıları bağlayaq.
öldürək özümüzü,
özümüz də ağlayaq.

bir sən varsan, bir də mən,
özgələrdən danışma.
içim sınıq-sınıqdı,
güzgülərdən danışma.

bir tələsmə, sən canın,
bir qoy görək, gedərsən:
təkcəcə ölmək olmur,
birgə ölək, gedərsən...

* * *

Bu payız vaxtın eşqinə,
qaş-qabağınla yer süpür,
alnını qırışdır, getsin.

O buz otaqda az üşü,
göndərdiyim məktubları
yığ, topla, alışdır, getsin.

Divardakı mən deyiləm,
şəkildi də, kin saxlama,
bir söz de, danışdır, getsin.

Yenə səksəndim, ay dəli,
belə qəfildən yadıma
düşməyi… yığışdır, getsin…

* * *

Səni məntək sevməyənlər,
bilirəm, mənnən qəşəngdi.
Adam var adamdan qəşəng,
gün var ki, günnən qəşəngdi.

İslandıqca baxışlar da,
aram dəyir yağışlarnan.
Alnım, üzüm qırışlarnan,
saçlarım dənnən qəşəngdi.

Ruhum sevgi, səsim sevgi,
quruca nəfəsim – sevgi.
Kim nə deyir – desin, sevgi,
imandan, dindən qəşəngdi!

Səni sözə oxşatmışam,
nə cür görmüşəm, yozmuşam;
Sənə bir şeir yazmışam,
incimə, səndən qəşəngdi...



“ULDUZ” JURNALI İLƏ AXAR.AZ SAYTININ BİRGƏ LAYİHƏSİ

Anar:
“İşdə əsər yazmağa vaxt olmur...”

“Ulduz” jurnalı “Yazı masası” layihəsinə başlayanda belə qərara gəldik ki, ilk qonağımız yazıçı Anar müəllim olsun. Böyük yazıçıyla üz-üzə oturmaq, danışmaq, sual verib cavab almaq sadəcə bir jurnalist kimi yox, oxucu kimi də bizə xeyli maraqlıydı. Baxmayaraq ki, Anar müəllimin yaradıcılığıyla bağlı yazıları, tədqiqatları, müsahibələri, gözdən qaçırmırıq, böyük zövqlə oxuyuruq, amma ürəyimizdən keçən suallar var ki, bu suallara ancaq Anar müəllim cavab verə bilər.

O vaxt bir az həyəcan, bir az tərəddüd və böyük sevgiylə Anar müəllimin qapısını döydük. 80 illik yubiley tədbirində iştirak etmək üçün qardaş Türkiyəyə səfərə getmişdi.

Üstündən aylar keçəndən sonra yenə Anar müəllimin qapısını döyürük. Qapı üzümüzə işıqla, səmimiyyətlə, mehribanlıqla açılır. Kürəyini əsrlərin dahisi, poeziyanın tanrısı Nizamiyə söykəmiş Anar müəllimlə görüşüb üz-üzə otururuq.

Bir neçə dəfə gördüyüm geniş otaq, sinəsi şəkilli, hədiyyəli, xatirəli divarlar sanki “Ədəbiyyat bu gün də var, yarın da...” – deyə pıçıldayır.

Bilmirəm niyə, bu dəfə otaqda qəlyan ətrini hiss eləmirəm. Stolun üstünə göz gəzdirirəm, mən Anar müəllimi qəlyansız təsəvvür edə bilmirəm.O qədər qəlyan çəkən adamlar var ki, amma mənə elə gəlir, Anar müəllim, hətta qəlyanı da bədiiləşdirib, əsərə çevirib. Onun xoş ətirli qəlyanı da bir obrazdı. Kiçik kitabxanamda Anar müəllimin əsərlərinin bir neçə cildi var. Birinci cilddə səhifələrin birindən gənc Anar boylanır. Nazik saqqalı, qəlyanı və qarşısında makintoşu. O şəkli ilk dəfə görəndə ağlıma bir sual gəlmişdi. Görəsən, ölkənin iki böyük şairinin evində yazıçı olmaq necə hissdi? Çətindir, ya asan? Rəsul Rza kimi bir şairin oğlu hansı mövzuyla, hansı əsərlə oxucuları təəccübləndirə bilərdi?

Mən gənc Anarı həmişə şanslı hesab etmişəm. Evlərində o qədər məşhur adamları görüb, danışıb, ədəbi müzakirələrin iştirakçısı olub, əlçatmaz kitabları oxumaq imkanı olub. Mənə elə gəlir ki, Rəsul Rzanın evi akademiya olub – söz, ədəbiyyat, yaradıcılıq akademiyası. Anar müəllim bu akademiyanın yetişdirdiyi nadir şəxsiyyətdir.

Layihənin ənənəvi sualıyla söhbətimizə başladıq. İstədik bizə ilk yazı masasından danışsın.

Bizim təsəvvürümüzə görə, onun çox geniş və üstü kitablarla qalaqlanmış bahalı, sirli bir masası olmalıydı.

Anar müəllim bir neçə saniyə düşünüb yaddaşında həmin masanı axtarır.

– İlk yazı masamı xatırlamıram, gənclik illərimdə harda oldu, yazmışam. Düzü, dəqiq yadıma gəlmir. Ailə qurandan sonra birotaqlı mənzildə yaşayırdıq. O vaxtlar radioda işləyirdim.- "Axşam görüşləri" verilişinin ssenarisini gecələr mətbəx stolunda yazırdım.

Anar müəllimə yuxarıda qeyd etdiyim kitabdakı şəkli xatırlatdım. Dedi ki, o vaxtlar artıq makinada yazırdım. Şəkil də Moskvada çəkilib. Amma lap əvvəllər həmişə əlimlə yazmışam.

Anar müəllim danışdıqca düşünürdüm, gör necə çətin olub. Biz klaviatura, kompüter görən nəsillər üçün bir romanı əllə yazmaq, bəlkə də, mümkünsüzdür. Bizim üçün çox məşəqqətli görünən, Anar müəllim üçün adi bir yazı prosesidir. Qəribədir ki, indi bizim üçün asan olan, elə səhifədəcə redaktə edə bilmə imkanın verən kompüter Anar müəllim üçün müəyyən qədər çətindir. Bu barədə də danışdıq.

– Makinada yaxşı yazırdım. Mənim üçün kompüterdə xüsusi proqram hazırlayıblar, mən kirillə yazıram, monitorda latın qrafikasında oxunur.

Qəribədi, Anar müəllim sözü necə yoğurursa, texnikanı da elə özününküləşdirib, onu da öz dilində danışdırır.

O danışdıqca adam sualları bir kənara atıb, sadəcə, susmaq, dinləmək istəyir.

Qarşısında oturduğumuz yazıçının bəzən əzəməti, böyüklüyü sıxırdı bizi, bəzən də onun sadəliyindən, səmimiyyətindən cəsarətlənib növbəti sualı verirdik.

– Niyə bizdə də Qərb ədəbiyyatında olduğu kimi, zaman-zaman ədəbi cərəyanlar, məktəblər yaranmadı? Sizcə, eyni düşüncəli yazıçılar bir yerə yığışa bilmirdi, yoxsa yeni yol, yeni cərəyan tapılmırdı?

– Bizdə də məktəblər olub. Amma cərəyan yaradanlar, əsasən, Qərb modelini götürürdülər ki, eyni olsun. Qərbdə dadaizm, sürrealizm olubsa, bizdə də eyni şey olsun. Əsrin əvvəllərində bizdə ən azı iki məktəb var idi: "Füyuzat" və "Molla Nəsrəddin". "Füyuzat" daha çox romantik şairləri ətrafında toplamışdı. Düzdü, onların ədəbi dili ağırdı, Hadinin, Əli bəy Hüseynzadənin... Amma bunlara baxmayaraq, çox böyük mütəfəkkirlər, şairlər idi. Azərbaycan ədəbiyyatında onların öz yeri var. Digər tərəfdə "Molla Nəsrəddin" məktəbiydi. Həm dili aydın, həm də qoyduğu problemlər bu gün də aktual olan bir məktəb. Oxuyanda elə bilirsən, bu gün üçün yazılıb. Yəni məktəblər olub. O dövrdə rus ədəbiyyatının içindən keçirdilər, ona görə də sərbəst cərəyan yaratmaq, məktəb qurmaq bir az çətin idi. Bir cərəyanı, məktəbi rəsmiləşdirsəydilər, dövlət onlardan şübhələnəcəkdi. Ona görə o vaxtlar belə şeylər mümkünsüz idi. Amma altmışıncı illərdə bir az yumşalma var idi. Ədəbiyyat adamları bir yerə toplaşırdıq, saatlarla müzakirələr edirdik. Çayxanalarda otururduq. Mən də mənsub olduğum həmin altmışıncıların ədəbi üslubu, janrları müəyyən qədər fərqli olsa da, əqidəsi, amalı bir-birinə yaxın idi. Sonrakı dövrlərdə müxtəlif təşkilatlar, ocaqlar yaratdılar. Təəssüf ki, onların bəhrəsi olmadı.

Anar müəllimin yazı masası arxasında necə göründüyünü, yazıya necə kökləndiyini, stolunun üstündə nələrin olub-olmadığını bilmək istəyirdik. Anar müəllim dedi ki, bir neçə üsulda çalışan yazıçılar var. Bir növ yazıçılar var ki, məsələn, dövlət vəzifəsində çalışanlar. Vəzifəsiylə bağlı işləri görür, arada yarım saat, bir saat oturub yazır, sonra yenə işinə-gücünə qayıdır, adamları qəbul edir, danışıqlar aparır.O yazıçılara qibtə edirəm. Mən o cür yazıçılara aid deyiləm. Xırda əsərləri – yəni essedi, məqalədi – onu işdə yaza bilərəm. Amma iri əsərləri, povesti, hekayəni, romanı yazmaq üçün gərək hər şeydən təcrid olam. Başqaları yay aylarında, istidə istirahət edirsə, mən oturub işləyirəm. Məzuniyyətə çıxanda öz bağım olmadığına görə hökumət bağında hər şeydən uzaqlaşıb yazıram. Arada yazmaq alınmır, həm ictimai fəaliyyət, həm Birliyin işləri, görüşlər buna imkan vermir. Yazıçılar Birliyinin məndən əvvəl sədrlərindən biri Mehdi Hüseyn günün müəyyən vaxtı qapısını bağlayıb, yazıyla məşğul olurmuş. Bilirsiniz ki, mənim qapım bütün günü hamının üzünə açıqdı. Yoldan keçən də gəlib dərdin danışır. Bütün gün ərzində mən kimisə qəbul edirəm. Bacardığım köməyi göstərirəm. Bu şəraitdə əsəri necə yazmaq olar?..

O ki qaldı yazı prosesinə, mən yerimdən durmadan səkkiz saat kompüterin arxasında yazıram. Yoldaşım qınayır ki, heç olmasa dur, bir az dincəl. Alınmır. Mən fasiləsiz işləyirəm.

Anar müəllim danışdıqca heyrətimizi gizlədə bilmirik. Adıyla bir zirvə olan, yazıçı ömrünün, bəlkə də, ən çox bəhrəsini almış, istədiyi məqama

çatmış ustad yazıçı indi arxayınlaşıb dincəlmək əvəzinə, hələ də həvəslə, şövqlə, yorulmadan yazır. Bu gündən sonra Anar müəllim bir cümlə yazmasa belə, ədəbiyyat tarixində öz alınmaz qalası, ədəbiyyat dünyası var. Yəqin ki, indi onun üçün yazmaq danışmaq qədər asandı. Təəssüf ki, bunu soruşmadım. Amma ona əmin oldum ki, yazıçı heç vaxt bir yerdə dayanmamalıdır.

Anar müəllim yazıçı olsa da, poeziyaya bağlı adamdır. Bunu elə kürəyini Nizamiyə söykəməsindən də anlamaq olar. O portret-xalçanın yerindən başqa bir gözlər də baxa bilərdi. Amma Anar müəllim sözün poetikasına daha yaxından bağlıdır. Bu sevginin hardan gəldiyini soruşduq, Anar müəllim gülə-gülə dedi ki, şair ailəsində doğulmuşam, başqa cür necə ola bilərdi ki?! Biz də bu sualı təsadüfən verməmişdik. Hamıya məlum olduğu kimi, Anar müəllimin Azərbaycan ədəbiyyatı üçün gördüyü ən böyük işlərdən biri də tərtib etdiyi "Min beş yüz ilin Oğuz şeiri " kitabı və "Poeziya" adlı televiziya verilişidir. Nazim Hikmət haqqında bir neçə məqalənin, essenin, kitabın müəllifidir. Ən yaxın dostlarından biri Fikrət Qocadır, Vaqif Səmədoğluyla dostluğu isə artıq bir tarixdir. Göründüyü kimi, Anar müəllimin əhatəsi poeziyadı, amma o, yazıçı olaraq uğur qazanıb. Anar müəllim deyir, anamın, atamın sağlığında, demək olar ki, şeir yazmamışam. O vaxtlar bir-iki şeir yazmışdım. Onu da atam bəyənmişdi. Sonra belə oldu ki, pyeslərimə, romanlarıma yeri gələndə bir neçə bənd şeir yazmışam. Vaqifdən başqa heç kimi qəbul edə bilmirdim. Mənim filmlərimdə, tamaşalarımda onun şeirləri olub. Bəzilərini də özüm yazırdım. Belə-belə arada bir neçə şeir yazmışam. Amma yenə də özümü şair saymıram.

– Anar müəllim, ssenarilərinizi ən çox hansı rejissorun hiss etdiyinə, duyduğuna inanırdınız?

– Kinoda da, teatrda da həmişə yaxşı rejissorlarla işləmişəm. Teatrda Tofiq Kazımov, Azərpaşa Nemətov, Hüseynağa Atakişiyev, Vaqif İbrahimoğlu, kinoda Tofiq Tağızadə, Arif Babayev, Rasim Ocaqov, axır vaxtlar daha çox Ramiz Həsənoğluyla işləmişəm. Hamısının öz yeri var, hamısına minnətdaram. Bir şey də var ki, insanların yanaşması müxtəlifdir. Hərə bir hadisəyə başqa tərəfdən baxır, fikir ayrılığı yaranır. Ona görə də mövzuya nə qədər yaxın olsan da, nə qədər fikrindəkini həyata keçirməyə çalışsan da, görürsən, yox, istədiyin alınmadı. Öz çəkdiyim filmlər məni daha çox qane edir. "Dantenin yubileyi"ni Gülbənizlə bir yerdə işləmişdik. "Qəm pəncərəsi"nin həm ssenarisi, həm də rejissor işi tam mənə aiddir.

Şirin-şirin söhbətimiz dolana-dolana ən kədərli, yaralı bir məqama gəlib çatdı. Son dövrün ən acınacaqlı məsələsi olan kitaba biganəlik, mütaliənin telefon oyunlarına uduzması, ədəbiyyatın ləngiməsindən söhbət düşdü. Anar müəllimin məsələyə münasibətini öyrənmək istədik. Bizə maraqlıydı, Anar müəllim bu kələfin ucunu harda görür? Bu dolaşıq yoldan çıxmaq üçün nə məsləhət görərdi? Biz neynəməliyik?

– Doğrudur, – dedi Anar müəllim, – mütaliəyə marağın azalmasını intellektual tənbəllik hesab edirəm. Televizora, telefona baxanda heç bir zəhmət çəkmirsən. Kitab oxumaqsa işdi. Oxumaq zəhmətdir, gərək səy göstərəsən. İndi adamların da o qədər qayğıları, problemləri var, təzədən özünə zəhmət vermək istəmir. Bütün günü işləyən, çalışan, əziyyət çəkən adam evinə yorğun gəlir, hələ bir götürüb Tolstoyun dörd cildliyini də oxusun?! Heç kəs bunu istəmir. Oturur televizorun qarşısında, yüngül verilişlərə baxır, telefonda "oynayır". Odur ki, bu, zamanın tələbləriylə bağlıdır. Orta məktəbdə də, universitetlərdə də ədəbiyyatı təbliğ edən, şagirdinə, tələbəsinə sevdirən fədakar müəllimlər lazımdır. Onlar uşaqlarda kitaba, mütaliəyə sevgi, maraq aşılamalıdır. Bir də televiziyalar ədəbiyyata maraq oyatmalıdır. Efirdə ədəbiyyatdan başqa hər şey var. Adamları məcbur edirlər ki, ancaq ucuz şoulara, mənasız seriallara baxsınlar. Amma ciddi ədəbiyyatı təbliğ edən, ədəbi söhbətlər aparan verilişlər, təəssüf ki, efirlərimizdə yoxdur.

Bu barədə Anar müəllimlə əməlli-başlı dərdləşdik. Axır gəlib çıxdıq gənc yazıçıların üstünə. Bir az da bu sferada gəzişmələrimiz oldu. Anar müəllim məsləhət gördü ki, gənclər heykəlləşməyə tələsməsinlər. Heykəl olmasınlar. "Mən bu yaşımda da heykəl olmaq istəmirəm. Gənclik ömrün ən gözəl çağıdı. Həyat eşqiylə doludur. Bu gözəl çağında özünü bütləşdir, heykəlləşdir, bu, doğru deyil. Mən cavanları çox sevirəm. Çalışıram əlimdən gələni edəm".

Anar müəllim bax belə insandır. Səmimi, mehriban, qapısı həmişə hamının üzünə açıq, yorulmaz, əzmli... Açа bilmədiyimiz başqa tərəfləri qaldı Anar müəllimin. Və bu tərəflər həmişə qalacaq.

Söhbətləşdi:
Xanım AYDIN, Vüsal NURU

Razil VƏLİYEV
(Tatarıstan)

Мизгел

Җир шарына утырып, тәмәке төрдем,
Җир шарына басып сүндердем.
Җир шарында арлы-бирле атлап йөрдем.
Санап чыктым барлык шатлыкларны,
кайгыларны.
Карап чыктым:
кемнең күзе йомык, кемнең ачык
һәм ни өчен.
Бизмәнләдем күз яшьләрен, таң чыкларын –
барын, барын, барын.
Онытып тордым йолдызларның
тик төннәрен януларын.
Бер мизгелгә
уч төбенә куеп тордым
бу Җир шарын.
Әйе, әйе,
мин бер мизгел
шагыйрь булып алдым.

An

Bir andaca
söndürdüm siqaretimi
Yerin üzünə basıb.
Sonra
qanadlandım uçmağa ustub-ustub...
Duman halqası qalxdı
ulduzsuz qaranlığa.
Keçdim adalardan, keçdim qitələrdən,
keçdim Yer üzündə nələrdən, nələrdən...
Qəm gördüm, sevinc gördüm,
qorxu gördüm gözlərdə.
Gözlər gördüm dupduru,
gözlər gördüm qupquru,
kiminin gözü bağlı,
kimininki açıq,
göz yaşı var şirin,
göz yaşı var acı...

Silmək istədim Yerin üzündəki
acı göz yaşlarını,
Yer üzünü ovcuma aldım.
Ələ verdi göz yaşları planeti,
zaman ötdü, ötdü...

Aradım ulduzları,
unutdum anları,
aldım ovcuma çıxan Günəşi...
Sonra, sonra...
Sonrası da... şair oldum, əşşi!

Яшьлек

Якорьларын онытып, юлга чыккан
бу корабта бары бер теләк:
соры ярлар алда күренгәнче,
бер исемсез давыл килеп
адаштырсын иде тизрәк.

Gənclik

Lövbərini unudub yola çıxan
bu gəminin lövbəri yox axı!
Dənizçinin arzusuna baxın:
– Bir an fırtınalar qopsun,
gəminin sürəti artsın;
məni bacardığı qədər
uzaq sahilə tez atsın.

Бәхет

Кыя ташка менеп, шигырь яздым –
Бу шигырем бәхет турында.

Хозурланып, тауда басып торам,
Болытларга башым орына.

Шундый якын миңа бар кешеләр,
Туган ягым кебек киң җиһан.
Ташлап киткән ярым кире кайтты –
Кулларына алсу гөл җыйган.

Иңнәренә шатлык йөге төяп,
Сизелми дә үтә ай, еллар...
Үзәннәрдә илләр сугышмыйлар –
Сугыш-сугыш уйный малайлар.

Уенчыклар тезеп, шук малайлар
Мәйданнарда ясый парадлар...
Диңгезләре – язгы ташу суы,
Бата анда кәгазь кораблар.

Кичләр җитсә, кулга-кул тотышып,
Әйлән-бәйлән уйный дәүләтләр...
Бар кешеләр шундый киң күңелле,
Бар кешеләр шундый әйбәтләр.

Хозурланып тауда басып торам –
Болытларга башым орына.
Кыяларга менми аңламассың –
Бу шигырем бәхет турында.

Səadət haqqında şeir

Qayaya dırmanıb şeir yazdım –
Bu şeirdə çoxlu umud var:
Parladım günəşin şüasında,
Başımın üstündə buludlar ...

Bu gün bütün insanlar doğmamdı,
Bütün dünya doğma məmləkətim.
Çıxıb gedən yarım geri dönüb,
Qucaq dolu sevinc gül buketi.

Çiyinlərim sevinc yükü altda,
Uçub gedir quş qanadlı illər.
Hamı mehribandı, hamı şaddı,
İgidlər orduda döyüşərlər.

Oyuncaqlar atəş açar yalnız,
Meydanlarda parad, marş səsləri,
Kağızdan gəmilər yarıb keçər
Dərin suları və dənizləri.

Gecəni oyadar yallı rəqsi,
Yallı gedər əl-ələ millətim.
Ruh verər hər kəsə ruh dairəsi,
Bürüyər dünyanı birlik səsi.

Mənə də çox xoşdu, ağ rəngə də,
Başım buludlara çatıb, budur...
Mən dağa qalxmadım, anladınmı?
Bu şeir səadət haqqındadır.

Гашыйк булгач

Бер тамчы су – төссез.
Бер бүлмә һава – төссез.
Океан – зәңгәр.
Күк тә зәңгәр.
Кайчандыр бу күзләр төссез иде...
Хәзер – зәңгәр!

Məhəbbət...

Bir damcı su – rəngsiz,
Bir udum hava – rəngsiz.
Okean – mavi,
göy də gömgöy
və hədsiz...

Gözlərin də rəngsiz idi,
ögey idi dünən gecə.
Bu günsə mavi,
doğma…
Məni gözlərində boğma!!!

Кабатлана язлар

Гел кабатлап йөрим йөрәгемә:
«Утың, – диеп, – сүнгән».
Тик шулай да үзем читләп йөрим,
Качып йөрим синнән.

Сынап карыйм инде ничәнче кат
Ихтыярым көчен.
Диңгезләргә барып егылдым мин,
Онытылыр өчен.

Кирәк түгел сөю сүзләре дә,
Кирәк түгел назың.

Гел кайтмаска диеп киткән инде,
Үткән инде язым.

Ә хыяллар – хыял гына алар,
Матур сүзләр – ялган.
Мин дөньяда беркемгә дә, ахры,
Бәхет бирә алмам.

Чәчәк төсен инде онытып барам...
Өстәлемдә – җикән.
Бу карсыз кыш минем кышым булыр –
Кара кышлар җиткән.

Тик йөрәгем разый түгел бер дә,
Миннән – иясеннән.
Нигә диеп читләп йөрим, имеш,
Качып йөрим синнән.

Нишләргә соң? Көзнең бар сагышы
Минем җанга иңде.
Күңелемә хәзер пакьлек кирәк –
Мин бит кышта инде.

...Көтмәгәндә үзең очрадың син –
Тиле йөрәк хаклы!
Сүзләремне кире алам инде –
Мин йөрәгем яклы!

Тышауланган хисләр – ирек сезгә!
Йөрәк азса азар...
Юккамыни һәр ел саен җирдә
Кабатлана язлар.

Geri dönür bahar

Ah, nələr olmadı ki baharda?!
Vuruldum sinəmdən...
Harda olsam, sən də varsan orda,
Necə qaçım səndən?!

Bahar vaxtı idi, bir də deyim,
Çoxdan idi, çoxdan...
Dənizlərdən adlayıb keçirdim,
Unuduldum yoxdan...

Hər tərəf ağ alma ağacıydı,
Yaz ətriydi nazın...
Unudummu səni?! Unudacam
Sənlə gələn yazı...

Yuxularım xəyal olub uçdu,
Xəyallarım yuxu.
Bir gecədən min bir gecə keçdi,
Var olmadı çoxu...

Bir yolum var, birdi, deyim bir də,
Keçir məndən-səndən...
Geriyə yol qalmayıb ki burda,
Dönüb gedim səndən.

Yay da getdi, qış da gəlib çıxdı,
Qış da gəldi qarsız.
Bu qarsız qış mənim qışım oldu,
Qara qışlar barsız...

Gözlər nə vəd edir, nələr deyir?
Bircə ruhum bilər...
Yenə şaxta olacaq, yenə buz,
Min bir qışdan betər.

Mən də qoşulacam küləklərə,
Açın yollarımı...
Səninlə bağlandım diləklərə,
Açın qollarımı...

Sızlayır ürəyim kədərindən,
Şirin itkisi var.
Razıyam bu yerdə qədərimdən,
Geri dönür bahar,
Geri dönür bahar...

Соңгы үтенеч

Янәшәңнән үтеп киткәндә дә:
– Нишләп йөри бу, – дип
орышасың...
Миңа артык берни кирәкми бит,
бары
мине сөймәвеңә,
мин ышанган кебек,
сине сөюемә ышан син.

Biləsən ki!

Yanından ötüb keçəndə
Ürkək-ürkək baxıb birdən:
“Nə lazımdı?” – dedi gözün.
Heç nə istəmirəm, düzü,

Bir tək bunu biləsən ki,
Çox sevirəm səni, vallah!
Sən də bir az sevgi yolla...

Рәсем

Әйдә рәсем ясыйм әле –
Булсын бер кызык.
Томаны ак кәгазь булыр,
Яңгыры – сызык.

Аннары сине ясармын:
Яңгыр астында
Минем янга ашыгасың
Ак томан аша.

Күз ясармын, зәңгәр буяу
Табалсам әгәр, –
Чөнки синең күзләреңдә бит
Сагыштай зәңгәр.

Тын калырмын, күзләреңдә
Күренгәч яшьләр.
Шул чагында йөрәгемдә
Яшеннәр яшьнәр.

Rəsm

Gəl rəsm çəkək... Nöqtələr –
Bu, yağış olsun,
Rəngli kağızda ağ boya –
Duman, sürünsün...

İslansın yağış altında
Mavi köynəyin...
Birdən yanıma qaçasan,
Onda neynəyim?

Fırçamı rəngə boyayım,
Gömgöy göy rəngə.
Çəkim gözünün dərdini
Bu şeirdə də...

Gözündəki göz yaşını
Silim işimdən...
Qəmzə qoyum yanağına
Bir gülüşünlə...

Tərcümə edən:
Həyat ŞƏMİ



Anadoludan əsintilər

Yunus ƏMRƏ (1240–1320)

* * *
Bir gəz könül yıqdın isə, bu qılduğun namaz dəgül.

* * *
Bir zərrə eşqün odı qaynadur dənizləri...

* * *
Bu dünyada kim güldü ki, sən güləsən.

* * *
Bu dünyadə bir nəsnəyə yanar içüm, göynər özüm –
Yigid ikən ölənlərə gög əkini biçmiş kibi.

* * *
Can qanadı açuq gərək uçuban Dosta getməgə.

* * *
Cümlə yerdə Həqq hazır, göz gərəkdür görəsi.

* * *
Çərxi-fələk yoğ idi canlarumuz var ikən...

* * *
Dərd gərəkdir, dərd gərəkdir, dərd gərək!..

* * *
Dünyayə gələn köçər, bir-bir şərbətin içər,
Bu, bir köprüdür keçər, cahillər anı bilməz...

* * *
Eşq odına yananlarun külli-vücudı nur olur...

* * *
Eşq yağmurı damlası könül gögindən tamar.

* * *
Eşqdən xəbər ayıtmasun, kim dünya izzətün sevə.

* * *
Eşqə düşməyən könüllər virandurur...

* * *
Eşqsüz adəm dünyadə, bəllü bilün ki, yoqdur,
Hər birisi bir nəsnəyə sevgüsi var, aşiqdür...

* * *
Həqq cəhana tolıdur, kimsələr Həqqi bilməz...

* * *
Hər bir çiçək bin naz ilə ögər Həqqi niyaz ilə...

* * *
Hər kim bana əğyar isə, Həqq Tanrı yar olsun ona.

* * *
Hər qancaru baqdum isə, həp görinəndür cümlə Həqq...

* * *
İstəməgil Həqqi iraq, könüldədür Həqqə duraq...

* * *
Kim bizə taş atar isə, güllər nisar olsun ana,
Çırağuma qəsd edənün Həqq yandırsun çırağını.

* * *
Nəfsinə uyanlarun getməz yüzi qarası...

* * *
Nəfsümün başını kəsdüm, qanadlanub uçar oldum...

* * *
On səkkiz bin aləm xəlqi cümləsi bir içində...

* * *
Rəsmidürür aşiqlərün Dost yolında qurban olmaq...

* * *
Sən Həqqə aşiq isən, Həqq sana qapu açar...

* * *
Sənsin kərim, sənsin rəhim,
Allah, sana sundum əlüm,
Səndən artuq yoqdur umum,
Allah, sana sundum əlüm...

* * *
Sərraflarun qatında qaidə şöylədürür;
Qədrin bilməz kişiyə göstərmədi gövhəri.

* * *
Tövrat ilə İncili, Zəbur ilə Fürqanı,
Bunlardağı bəyanı cümlə vücudda bulduq.

* * *
Uslu dəgül, dəlüdür yücə imarət yapan,
Aqibət viran olur cümlənün imarəti.

* * *
Yüz Kəbədən yegrəkdür bir könül ziyarəti.

QARACAOĞLAN (1606–1680)

* * *
Alçaq təpələrdə boran, qar olmaz.

* * *
Dünya bir yol – gəda gedir, xan gedir...

* * *
Əcəl var deyibən, döyüşdən qalma,
İgidin alnına yazılan gəlir.

* * *
Göyərçinlikdir bu aləm,
Qonar, köçər demədimmi?!
* * *
Harda gözəl gördün, orda qalırsan,
Mən sənin nazını çəkəmməm, könül...

* * *
İman ilə şəhid gedən mərd olur...
Namərdlə yol getsən, başa çıxılmaz...

* * *
Necə kəramət var bu dadlı dildə,
Yolun azanları yola gətirər.

* * *
Pis günün ömrü az olar,
Qəmlənmə, könül, qəmlənmə.

* * *
Sonradan-sonraya bəyliyə yetən,
Zalım olar, el qədrini nə bilər?!

* * *
Vəfasız dilbər ucundan igid oğullar inləyər.

* * *
Yavaş-yavaş əridərmiş ürəkdəki dərd igidi...



Məhməd Akif ƏRSOY (1873–1936)

* * *
İmansız olan paslı ürək sinədə yükdür...

* * *
Birsən, əzəlisən, əbədisən, samədisən,
Ya Rəbb, sana yoxsan deməyə varmıdır imkan?!

* * *
Dilində Bəsmələ olsun, əlində sureyi-Nur...

* * *
Fışqırar bir damlacıq otdan, tutub sıxsan, həyat...

* * *
Sabahı pək sevərəm, ən gözəl zamanımdır...

* * *
Göstər, Allahım, bu millət qurtulur, tək möcüzə:
Bir "utanmaq hissi" ver qaib xəzinəndən bizə!

* * *
...Dədən nə türlü yaşarmış... Adamsan, öylə yaşa.

* * *
Bir xilas imkanı var: əxlaqımız yüksəlməli!..

* * *
Ədalət istəyən bir qövmü vurmaq qalibiyyətmi?

* * *
Məqsəd nə imiş, bilməli dünyaya gəlişdən,
Dünyaya gələn, sanma ki, bir xoş səfər eylər...

* * *
Müəbbədən qalacaq xilqətin əsası nihan...

* * *
Aləmdə nə əkdinsə, biçərsən onu mütləq,
Öyləysə, nədir şər yaparaq faidə ummaq?!

* * *
Müəbbəd bir bahar ensin şu yanmış yurda Mövladan.

* * *
Göz yaşından nə çıxar, nədən tər tökmədiniz?..

* * *
Tarix təkərrürdən ibarətdir, deyirlər,
İbrət alınsaydı, təkərrürmü edərdi?!

* * *
Allahdan utanmaq da olur elm ilə... heyhat...

* * *
...Çeynədilər yurdunu başdan-başa,
Sən yenə bir kərrə qımıldanmadın!

* * *
"Heç bilənlərlə bilməyənlər bir olurmu?"
Olmaz ya! Təbii... Biri insan, biri heyvan!..

* * *
Enməmişdir Quran, bunu haqqıyla bilin,
Nə məzarlıqda oxunmaq, nə də fal baxmaq üçün.

* * *
İyirmi dörd saatdan birini haqqa verməyənə insan deyilərmi?

* * *
Kim demiş Avropa insanı mədəni?
Nə ədəb var, nə həya, çıl-çılpaq bədəni!
Əgər mədəniyyət açıb-saçmaqsa bədəni,
Desəniz heyvanlar bizdən daha mədəni!

* * *
Zulmü alqışlayamam, zalimi əsla sevəməm,
Gələnin keyfi üçün keçmişə qalxıb söyəməm.

* * *
Nə Allahdan həya etdin, nə peyğəmbərdən ar etdin!..

* * *
...Nə məlunsan ki, rəhmətlər oxutdurdun İblisə!

* * *
Zəmanə bicləri! Gördün ya, həpsi bəsmələsiz...
Nə sayğı var, nə həya var...

* * *
Sağım sərxoş, solum sərxoş, İlahi, mən nə yapsam, boş...

* * *
Girmədən təfriqə bir millətə, düşman girəməz;
Toplu vurduqca ürəklər, onu top sindirəməz.

* * *
Doğrudan-doğruya Qurandan alıb ilhamı
Əsrin idrakına söylətməliyiz İslamı.

* * *
Bəşəriyyət yeni bir din tanıyıb ilhadı,
Bəşərin hafizəsindən silinir Haqqın adı.

* * *
Nə irfandır verən əxlaqa yüksəklik, nə vicdandır,
Fəzilət hissi insanlarda Allah qorxusundandır.
Ürəklərdən çəkilmiş fərz edilsin xövfi Yəzdanın
Nə irfanın qalır təsiri qətiyyən, nə vicdanın…

* * *
Fəqət əxlaqın izmihlalı ən müdhiş bir izmihlal;
Nə millət qurtulur, zira, nə milliyyət, nə istiqlal.
Oyuncaq sanmayın! Əxlaqi-milli ruhi-millidir;
Onun iflası ən qorxunc ölümdür: Mövti-küllidir.

O cəmiyyət ki vicdanında hakim xövfi Yəzdandır,
Bütün dünyaya sahibdir, bütün əqvama sultandır.
Fəqət əfradı Allah qorxusundan bixəbər millət,
Çəkər millətlərin mənfuru qibtilər qədər zillət...

Ürəklər ən müləvvəs, ən səfil amal üçün çarpar,
Sinirlər ən mühal əndişədən titrər durar par-par!
Olur cəmiyyət əfradınca şəxsi mənfəət "məbud!"
Sorarsan, kimsə bilməz varmı "haq" namında bir mövcud.

O doymaq bilməyən məbuda qurbandır həya hissi,
Həmiyyət, adəmiyyət hissi, ülvi hislərin həpsi!
Bu hissizliklə cəmiyyət yaşar derlərsə, pək yanlış:
Bir ümmət göstər, ölmüş mənəviyyatıyla sağ qalmış?..

Nəcib Fazil QlSAKÜRƏK (1905–1983)

* * *
Keşkə mən Allah kəlməsindən başqa ağzından tək söz belə çıxmayan bir dilsiz olaydım!..

* * *
Ya Allaha baş əyər, heç kimsəyə əyməzsən,
ya da hər kəsə baş əyər, heç bir şeyə dəyməzsən.

* * *
Allahsız adamın fikrinə, Allahsız cəmiyyətin məfkurəsinə... inanmıram!

* * *
Hər qəhqəhə çəkəndə Allaha şükr etmirsən,
nədən hər ağlayanda O-na qəzəblənirsən?

* * *
Ayağın daşa dəyəndə "Allah qəhr eləsin!" deməməlisən, dua etməlisən ki, daşa dəyən ayağın var...

* * *
Düşünürəm ki, O-ndan əvvəl zaman varmıydı?
Həqiqətlər boşluğa baxan aynalarmıydı?

* * *
Nə gəlirsə başımıza, haqdandır;
fəqət gəliş səbəbi haqdan ayrılmaqdandır.

* * *
Anladım işi; sənət Allahı aramaqmış...

* * *
Aldığımız nəfəsi belə geri veririksə, heç bir şey bizim deyil.

* * *
Dünya gözəl olsaydı, doğularkən ağlamazdıq... Yaşarkən təmiz qalsaydıq, öləndə yıxanmazdıq.
***
Əgər dadını bilsəniz, çörəyi bölüşmək çörəkdən daha ləzzətlidir.

* * *
Həyatımızın yarısını uyuyaraq keçiririk, qalan yarısını da uyudularaq...

* * *
Siz heç bir sərrafın bağırdığını eşitdinizmi? Qiymətli malı olanlar bağırmaz.

* * *
Dağı tanıyan necə tanımaz uçurumu?
Madəm ki, yüksəliş var, eniş olmaz olurmu?

* * *
Tövbə qapısı açıqdır dediksə, təzə günahlarmı işləməlisən?

* * *
Tabutumun taxtası bilsəm hankı ağacda?..

* * *
Düşünmədiyimizi düşünmədikcə düşünə bilməkdən uzaq yaşayacağıq.

Hazırladı: C.M.BƏYDİLİ



“AY SONA BÜLBÜLLƏR...”

...Bakı... 1968-ci il... Paytaxtda “qora bişirən” ayın bürkülü günləri yaşanırdı. Hava dözülməz dərəcədə isti idi. Studiyada projektorların zəif çəhrayı işıq zolağı səhər şəfəqlərini xatırladırdı. Adama elə gəlirdi ki, indicə günəş buludların arasından boylanacaq...

Rafiq HACIYEV

...Qavalı götürüb ürkək-ürkək, ətrafına baxa-baxa, asta addımlarla ansambl üzvlərinin oturduğu yerə yaxınlaşır, öskürə-öskürə boğazını arıtlayırdı. Sanki kimdənsə qorxub çəkinirdi. Hamı maraqla ansambl rəhbərinin studiyaya gətirdiyi bu arıq, qara, qayış kimi oğlana nəzər yetirirdi. Bir az əvvəl Əhsən müəllim onu uşaqlara təqdim edəndə söyləmişdi ki, bu cavan oğlan Ağdamdandır, adı da Qədirdi, Asəf Zeynallıda oxuyur (A. Zeynallı adına Musiqi Texnikumu – R. H.).

Ansamblda olan uşaqların dodaqlarında növbəti təbəssüm görünsə də, ilk baxışdan heç kəsin bu cılız, zəif, çəlimsiz oğlandan gözü su içmədi. Təhər–töhüründən, görkəmindən heç xanəndəyə oxşamırdı.

Qədirin sur–sumbatından o qədər arıqlıq, cılızlıq tökülürdü ki, deyərdin, sanki bu qara, qayış kimi oğlanın nə danışmağa dili var, nə də hələ, olsun ki, oxumağa səsi. Amma burdakılardan heç kəs bilmirdi ki, bu görünüşü, o, öz müstəqilliyini, dəlisovluğunu, ərköyünlüyünü, az qala məğrurluğunu ifadə edən bir bayraq kimi özü ilə gəzdirirdi...

Əhsən müəllim həmişə qayğılı, mükəddər görünən baxışlarını bir anlıq Qədirin üzündə gəzdirdi. Sonra tarı sinəsinə sıxdı və başını onun “ürəyinin və ciyərinin “ – çanağının üstünə qoydu. Baş barmaqlarını pərdələrdə, simin üzərində saxlayarkən onları möhkəm sıxdı ki, səs cingiltili yox, dolğun çıxsın. Və barmaqlar hərəkətə gəlib adamın üzünə şox salan simlərin sükutunu pozdu. Tarzən xəbərdarlıq mizrabları vurub çalğıya ton verdi. Sehrli mizrabların təsirindən musiqidəki “boyalar” canlanmağa, dilə gəlməyə başladı. Bir ansambl çalğıçı “sol” mayəli “Segah” kökündə “Sona bülbüllər” xalq mahnısının ürək titrədən melodiyası ilə ona qoşuldu...

Gəldiyi kollektivdə ilk dəqiqələrdən bir qədər soyuq, inamsız və biganə münasibəti hiss edən arıq, qara, cılız, qayış kimi oğlanın qaşları alnının ortasına çəkilib baş-başa gəldi. Bədəni qıvrıldı və səsi ox kimi dartılıb açıldı. Səs axdı, dalğalandı, əfsanəvi Səməndər quşu kimi yana-yana havalandı.

Qədirin ürəyində çığnam-çığnam qaynayan, fışqırmağa hazır səs selinin ağzı açıldı. Oğlanın dodaqlarının kilidində sanki illər boyu həbsə alınmış “Sona bülbüllər”in səsi ürəyindən qoparaq, pərvazlanıb uçdu! Uzaq, çox uzaq əsrlərdən havalanıb gələn qədim bir el mahnısının həsrətli, yanıqlı sözləri damcı-damcı sinələrə axdı. Məlahətli bir səs studiyanı başına götürdü, nə götürdü:

Su atdım, hara dəydi,
Sona bülbüllər.
Əlim divara dəydi,

Saçı sünbüllər.
Dilim, ağzım qurusun,
Sona bülbüllər.
Nə dedim, yara dəydi?
Saçı sünbüllər.
"Elə yar, yar" deyirlər,
Heç məni demirlər,
Ay sona bülbüllər.

Səs qalxdıqca, kotan kimi köksünü şırımladıqca Qədir qıvrıldı, qıvrıldıqca balacalaşdı, balacalaşdıqca yumağa dönüb yumruq təki sıxıldı, sanki ağlı başından çıxdı. Onun sinəsindən elə bil söz közərə-közərə qopur, dəmirçi kürəsindən qanadlanan qığılcıma bənzəyirdi. Sözlərin canına yanğı düşmüşdü, nə idisə, dinləyənləri odlandırırdı.

Bu çəlimsiz, bu arıq, bu cansız, oxuyanda titrəyən bu oğlandakı qışqırıq, haray haradan idi?

Bu çəlimsiz, bu arıq, bu cansız oğlanın səsindəki hıçqırıqlar, cingiltilər, ümidsiz çağrışlar haradan idi?

Haradan idi, ay Allah?!

Gözlə görünməyən, əllə tutula bilməyən, lakin fikrin, düşüncənin gözlərini açan, ürəyi, qəlbi həyəcana salan, təlatümə gətirən, sinəsi od tutub alışan bu qanadlı səs yandırmaqla bərabər, həm də düşündürürdü.

Qədirin ayrılıqların, həsrətlərin üstündən boylanan səsi qədimliyi, kövrəkliyi və şirin-şirin yanğısıyla ansambl üzvlərini, xüsusən də Əhsən müəllimi tutmuşdu. Deyəsən, özü də yaman bərk tutmuşdu! Onun barmaqlarında bir həyəcan dalğası titrəyirdi!

Qədirin səsi tarzənin xəzan könlünü atəşə qalayırdı. Əhsən müəllim keçirdiyi təlatümlü hisləri boğa bilməyərək mütəəssir halda Qədirə baxırdı. Elə bil ustadın sinəsinin başında yaş odundan ocaq qalamışdılar. Korun-korun yanan bu ocağın tüstüsü ürəyinə sızır və acı duman olub gözlərində burumlanırdı. Ürəyinin köhnə göynərtiləri başından vurub ayağından çıxır, yandırıb yaxırdı onu. Qəlbi yavaş-yavaş gözlərinə köçürdü. Baxışlarının dərinliyində getdikcə kədər buludu sıxlaşırdı.

Əhsən müəllimin gözləri də, barmaqları da Qədirin səsinə səs verib oxuyurdu. Bu barmaqlar tarın ürəyinə od salmışdı. Mizrablar tarın "sümük"lərini titrədirdi. Qədir isə hisləri qovuran saca dönmüşdü:

Evləri köndələn yar,
Sona bülbüllər.
Bizə gül göndərən yar,
Saçı sünbüllər.
Gülün yarpıza dönsün,
Sona bülbüllər.
Bizdən üz döndərən yar,
Saçı sünbüllər...
"Elə yar, yar" deyirlər,
Heç məni demirlər,
Ay sona bülbüllər.

Bu ulu səs tarzənin sızıldayan, göynəyən, qaysaq bağlayan yarasının qartmağını, közünü qopartmışdı, üstünə də bir ovuc duz səpmişdi və demişdi: "Hə, Əhsən müəllim, böyük ustad! İndi sən mənə yaxşı-yaxşı qulaq as ki, neçə-neçə illər boyu heç kimə büruzə vermədiyin, amma nakam, cavan oğlunun içində çəkdiyin vaxtsız itkisindən yana qəlbində ağır yük kimi daşıdığın dərd, qəm, ayrılıq yansın, odlansın, cızdağı çıxsın"...

Qədirin səs tembri, səs imkanları, xanəndəlik sənətinə məxsus zəngulələri, boğaz qaynatmaları, melizm və ştrixləri məharətlə ifa etməsi ansambl üzvlərini heyran qoymuşdu.

Və... "Sona bülbüllər" qanadlandıqca yazda budaqlar çiçəklədiyi kimi, Qədirin də səsində kədər, fəryad "çiçəkləyirdi"...

Olmasaydı qəmi–eşqin dili–viranımda,
Saxlamazdım onu bu izzət ilə yanımda.

Əhsən müəllim ağ simdə zil "Segah"la muğama girirdi və tarın səsi ürəyin ən incə tellərində gəzirdi. Tarzən xanəndənin dilindən söylənilən melodik ifanı mizrab–mizrab, ürəyi pörşələnə-pörşələnə izah edirdi. Və həmin mizrabların yanıqlı titrəyişi, yalvarışı adamın canına köz salırdı, yandırıb-yaxırdı.

Musiqi ilə dolu barmaqları tarzənin ürəyinin və "Segah"ın zil şöbəsinin ritminə uyğun dil açdırıb "danışmağa" məcbur edən nə idi, kim idi, nəçi idi? Bu məşəqqət, əziyyət, cəfa çəkən barmaqlar nə diləyirdi, görəsən? Əhsən müəllimin ürəyi tarından lap çox oxuyurdu. Tarzənin çalğısı – Əhsən müəllimin ifası ilə təqdim edilən zil segah "Segah" muğamına bir növ əlavə edilən bənzərsiz, möcüzəli bir yenilik idi!

Qədirin isə bu yenilikdən xəbəri vardımı, yoxdumu, bilmirəm. O, bəlkə də, heç bu yeniliyin ma-

hiyyətinə belə varmırdı, özü üçün qərib, qaibanə bir səslə oxuyurdu:

O qara xalı mənə versələr, qanın içərəm,
Nə üçün mənzil eyləyib arizi–cananımda.

Xanəndənin qəlbi sarı simə dönmüşdü. Elə bil Əhsən müəllim onun ürəyini çalırdı. Tarzən sağ əl ifa texnikasını – alt və üst mizrabların düzgün və ardıcıl şəkildə vurulmasını, eyni zamanda, sol əl sıxmasını "Segah"ın zil şöbəsinin ifa tərzinə uyğun şəkildə yerinə yetirirdi. Tarın pərdələrindən qopan qığılcımların şövqü axıb Əhsən müəllimin bəbəklərinə dolurdu, gözlərində göllənirdi. Qədir isə dediyini kəlmə - kəlmə xırdalayıb dağ eləyərək sinələrə köz qoyurdu:

Eyləməz aşiqi bir lütf ilə xürrəm, ya Rəbb,

Bax elə zil "Segah"ın bu yerində, müxalif pərdəsinə dəyib, geri qayıdan bu anda tar özünü unudan Əhsən müəllimin ürəyinin üstündə dəlisov, adamın ixtiyarını əlindən alan bir yeriş açmışdı. Əhsən müəllimin sinəsindəki sanki tar deyildi, elə bil nakam balası idi. Sıxmışdı sinəsinə və simlərin harayı ilə ona kədərli layla çalırdı. Bu saniyələrdə tarzənin ürəyindən acı yellər əsirdi, dodaqları səyriyirdi. Ürəyi tüğyan eləyirdi. Gözlərini açmaq istəmirdi, kirpikləri nəm idi. Əgər Əhsən müəllim gözlərini bir az açsa idi...

Bax, belə dəqiqələrdə kim deyibsə ki, qurban olum "Segah"a, vallah, düz deyibdi. Doğrudan da, istedadın, ən əsası da ÜRƏYİN varsa - istər instrumental ifaçı ol, istərsə də xanəndə – buyur, nə istəyirsənsə, nəyi bacarırsansa, elə, yandır könülləri görüm, necə yandırıb-yaxırsan!

Xanəndələrin sözü olmasın, zil "Segah"da Əhsən müəllimin ÜRƏYİ elə "nəfəs"lər eləyirdi ki, deyirdin, bu dəqiqə, bu saat, Allah eləməmiş, adamın nitqi kəsiləcək.

"Segah" tonallığına düşmək üçün daha incə, xırda melizmlərdən istifadə edən tarzən sanki Qədirə deyirdi ki, "əziz dostum, eşqlə, məlahətlə ifa edirsən, amma, bax, indi mən vurduğum xalları o yanıqlı səsinlə oxusaydın, lap müsibət olardı".

...Əhsən müəllimin rəngi avazıyırdı. İçində vurnuxan, özünə yer axtaran duyğulara çözüm tapmayan ustad, başını tarın çanağına qoyub yaşla dolmuş gözlərini yumaraq ürəyini yeyə-yeyə çalırdı. Adama elə gəlirdi ki, bu dəqiqələrdə o, ətrafda baş verənləri məhz ürəyinin gözləri ilə görür, duyur və danışırdı. Əhsən müəllim qəlbində ürəyinin ağlar–sızlar tellərindən, vaxtsız xəzan vurmuş korpə oğlunun bənövşə ətirli istəklərindən ilmə salır, aylı gecəsi, çəməni, çiçəyi ilə qövsi–quzeh arğaclı xatirələr toxuyur, öz çalğısı ilə sanki möcüzəyə acıq verirdi. Əhsən müəllimin ürəyinin qanı açılmışdı və o, Qədirin səsini "yarasının üstünə sarımışdı" ki, ağrısına, göynərtisinə, sızıltısına məlhəm olsun...

Qədirin naləsi od tutub qızışdıqca ürəklər ocaq kimi yanırdı. Duyğular dəli köhlənə dönürdü. Səs sinələri sızıldadırdı.

Bu nə rəftardır ol sərvi–xuramanımda?

Ansambl üzvləri özlərində deyildilər, barmaqlarını kəssəydin, xəbərləri belə olmazdı. Dərin fikrə getmişdilər. Bənizləri dümağ idi. Öz bənzərsiz çalğısı ilə Əhsən müəllim Qədirin oxumağını öz sehrli tarında təkrarlamaqla onun yeni boğazlar vurmasına meydan verirdi. Bu zaman Qədir ustad tarzənin məntiqli "ayaq" vermələrini arifanə şəkildə hiss edərək ifanın təsirliliyini daha da gücləndirmək üçün onu yanıqlı boğazlarla bəzəyirdi. Xanəndənin yanğısına cavab verən tarzən özünün nisgilli çalğısı ilə sözün əsl mənasında "oxuyur"du. Bu adi çalğı yox, oda, alova, yanğıya dönən qüdrətli sənətkar çalğısı idi!..

Qədir isə dərddən, qəmdən özünü unudub şaqqanaq çəkən hicranın səsinə boy verirdi:

Dəryada gəmim qaldı,
Sona bülbüllər.
Biçmədim, zəmim qaldı,
Saçı sünbüllər.
Çox çəkdim yar cəfasın,
Sona bülbüllər.
Mənə də qəmim qaldı,
Saçı sünbüllər.
"Elə yar, yar" deyirlər,
Heç məni demirlər,
Ay sona bülbüllər.

Ansambl üzvlərini və studiyanın rejissor otağında olanları heyrət götürmüşdü: fikirləşirdilər ki, bu oğlana qulaq asanda gərək ürəyinə daş bağlayıb dinləyəsən. Adamın cızdağı çıxırdı bu səsi eşidəndə. Bayaqdan bəri laqeyd baxdıqları bu arıq, qara, cılız, qayış kimi oğlan, sən demə,

Xalq rəssamı Ağaəli İbrahimovun "Sona bülbüllər" əsərindən reproduksiya

başdan–ayağa çox böyük bir ürək imiş! Oxuyan, qəmli, kədərli ürək!..

...Və həmin gün Qədir xalqdan aldığı "Sona bülbüllər"i təzə nəfəslə, bir möcüzə kimi xalqa qaytarır, heyrətin monumental heykəlini ucaldırdı. "Sona bülbüllər" "qanad gərib" pərvazlanırdılar.

Əhsən də Qədiri ucaldırdı, onun ömrünün üstünə yeni ömür, əbədi və ölməz ömür qoyurdu. Çünki milli musiqimizin özünəməxsus səhifəsi olan Qədirin ecazkar səsini, nadir orijinal ifaçılıq sənətini ilk dəfə bu böyük şəxsiyyət GÖRMÜŞDÜ və həmin şanlı səhifənin ilk oxucusu Əhsən Dadaşov idi!

Bax elə əsl sənət də, sənətkarlıq da budur!..

...Mahnı sona çatdı, "yumruq" açıldı. Qədir oxuyub qurtardı. Əhsən müəllim bir neçə dəqiqə oturduğu yerdə qaldı. Əlinin ardı ilə tərini sildi. Bədəni çim suyun içində idi, onu isti tər basmışdı. Qədirin yanıqlı səsi ürəyini şırımlayıb yandırmışdı. Elə bil köksü üstündə ocaq qalamışdılar, sinəsi od tutub korun ocaq kimi tüstülənirdi. Qədirin səsinin ağrı–acısı gözlərində çınqıllanır, kirpiklərində şehlənirdi.

Bir siqaret yandırdı. Heç bir hərəkətin təsirinə məruz qalmayan siqaret tüstüsü sifətinin önündə öz ahəngi ilə yuxarı qalxmağa başladı. Qədirin səsi onu varından yox eləmişdi. Bu səsdə ürəyə köz salan bir qəhər vardı. Elə bil tüstü Əhsən müəllimin ürəyindən çıxırdı, yanan siqaret deyildi. Nəhayət, onun siqaret tüstüsünün arasından keçib gələn səsi eşidildi:

– Qədir, sənin səsin başqa aləmdir.

Bu sözləri dedi və Əhsən müəllimin gözləri yenə doldu.

Qədirin gözləri Əhsən müəllimin nəm gözlərindən öpdü.

Əhsən müəllim də, ansamblın üzvləri də qəm heykəlinə dönmüşdülər. Hələ neçə illər idi ki, belə mənalı, təsirli, həyəcanlı və koloritli təzə səs, belə təzə ifa tərzi, belə əsrarəngiz muğam eşitməmişdilər. Qədirin ecazkar səsi, təkrarolunmaz ifaçılıq və insanın mənəvi aləminə nüfuz etməklə güclü emosional təsir yaratmaq bacarığı onları

heyrətləndirmişdi. Qədirin oxumağı alınmışdı və hamı rahat nəfəs alırdı. Ansambl üzvləri bir daha əmin olmuşdular ki, saatlarla, yorulmadan Qədiri dinləyən, onun ifa boyu nümayiş etdirdiyi qeyri-adi boğazlara şahidlik edən Əhsən müəllimin özü də ifa zamanı Qədirdən az başı alovlu deyildi.

Bakı yayının dözülməz istisində bütün ölçüyəgəlməz şıltaqlıqlarına və əziyyətlərinə dözən, onu təkrar-təkrar oxudan, böyük ifaçı və pedaqoq səbrinə malik Əhsən müəllimə xalq mahnısını Qədir bənzərsiz oxu ilə "təkrarolunmazlıq" möhürü vurub vermişdi. Həmin gün Əhsən müəllim Qədiri "oxuda bilmişdi!" "Sona bülbüllər" Qədir yaradıcılığının zirvəsi idi! Bu zirvəni kəşf edən, fəth olunmasında xüsusi xidmətlər göstərən isə Əhsən Dadaşov idi!

İfaçı ilə müşayiətçinin bənzərsiz həmahənglik əldə edə bilməsinin ən gözəl nümunəsi olan "Sona bülbüllər" çox "dadlı-tamlı" və yeni idi, burada Qədirin oxusunda, eyni zamanda Əhsən müəllimin ürəkdən süzülüb gələn çalğısında səsləndirilən yanıqlı boğazlar və vurulan şirin xallar zil "Segah"da çox təravətli, insanın ürəyini duyğulandıran idi...

Qədir qavalı stolun üstünə qoyub qalxandan sonra studiya yatağından çıxmış güclü nəhr kimi çalxalandı, daşdı. Sanki projektorlar da, divarlar da əl çalırdı. Qədirin səsi studiyadakı divarlardan asılmış işıqların da ürəyini yerindən oynadırdı. Studiyada olan səs rejissorlarının, ansambl üzvlərinin çöhrəsinə yarpaq–yarpaq gün düşürdü, sifətləri çiçək açırdı. Divarlar işıq saçırdı...

...Bu ilk ifadan düz altı ay ötəcəkdi və bütün əzab-əziyyətlərə, nəhayət, bir gün son qoyulacaqdı. Həmin bir gündə, gündüzdən gecəyə kimi "Sona bülbüllər"i Qədir 17 variantda oxuyub qurtaran təki şüşə arxasındakı adam – Adil Bəbirov əllərini göyə qaldırıb şadlıq əlaməti olaraq yelləyərək:

– Sağ olun! Yığışın, qurtardıq! – deyəcəkdi.

Və... Əhsən müəllim 17 variantda yazılan "Sona bülbüllər" mahnısının lent yazılarını... düz səhər açılanadək 52 (!?) yerdən kəsib bir-birinə calaq edərək, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Ənvər Əlibəyliyə elə həmin gün təqdim edəcəkdi. Ustad tarzən əmin idi ki, daha bu dəfə sədrin heç bir sözü olmayacaq, o etiraz etməyəcəkdi. Çünki bundan əvvəl Əhsən Dadaşovun şəxsi səyi və xahişi ilə Komitə sədri iki dəfə Qədir Rüstəmovu dinləmişdi və hər iki dinləmədə də "Ritmi yoxdur, ifasında texniki qüsurlar var, mahnını keyfiyyətlə oxumur" – deyərək onun lent yazısının efirə verilməsinə razı olmamışdı.

Bu dəfə Əhsən müəllimin gözlədiyi kimi də oldu. Ənvər müəllim Qədirin oxumağına irad tuta bilmədi. Əhsən müəllim və ansambl çox yüksək səviyyədə işləmişdilər. "Sona bülbüllər" bir sənət möcüzəsi olmuşdu. Özü də bu möcüzə hər iki sənətkarın bir–birini duyması və tamamlaması nəticəsində baş vermişdi.

...Axşam radionun efirində diktorun dediyi sözlər bütün Azərbaycanı bu sənət möcüzəsi ilə heyrətləndirdi:

– Xalq mahnısı "Sona bülbüllər". Oxuyur gənc müğənni Qədir Rüstəmov. Müşayiət edir Respublikanın Əməkdar artisti Əhsən Dadaşovun rəhbərliyi ilə Azərbaycan Radiosu və Televiziyasının Xalq Çalğı Alətləri Ansamblı...

"...Unudulmaz sənətkarımız Əhsən Dadaşova ömrüm boyu minnətdaram. Bir mahnımı yazdırmaqdan ötrü özünü oda-közə vurardı. Xəcalət çəkərdim. Deyərdim: - "Ay müəllim, axı bu qədər əziyyət nəyə lazımdır?" Cavab verərdi: "Lazımdır, Qədir, xalqın mahnılarını xalq üçün yaşatmaq lazımdır!" – Qədir Rüstəmov müsahibələrinin birində belə deyirdi.

Bu mahnını Qədir necə ifa edib, bu bir tərəfə. Əhsən Dadaşovun çalğısına sakit, daim təmkinlə qulaq asa bilməyin özü insandan nə qədər güc istəyirdi. Adama elə gəlirdi ki, ustad tarzən Qədiri solo müşayiət edəndə zil "Segah"ın atəşdən şanşan olan yanıqlı simlərində həmin çalğını ürəyində yeri həmişə boş qalmış oğlu üçün çalırdı...

Elə bil şair Bəxtiyar Vahabzadə aşağıdakı bu misraları məhz həmin çalğı üçün söyləyirdi:

Bu ağac parçası yanmayır özü,
Ancaq od–ocaqsız yandırır bizi.
Onun atəşinə od şan-şan olur,
Bu səsin oduna alışır su da.
Ağac hər atəşə alışan olur,
Bəs niyə alışmır belə bir oda?

...Və bu şirin çalğıdan şirələnmiş, Əhsənin və Qədirin ürəyindən dərilib, onların könül duyğularından şərbət içmiş yanıqlı "Sona bülbüllər" düz 50 ildir ki, yazın ilk nübarı, ilk sevinci olan bir bənövşə dəstəsi kimi ruhumuzu oxşayır...

Ömür dediyin söz imiş...

(Azər Turanın 55 yaşına)

Azəri nə vaxtdan tanıyıram – dəqiq yadımda deyil. Bu dostluğun təxminən otuz illik tarixi olmalıdır. Azər o dostlardandır ki, onunla bağlı hər bir epizodu, hadisəni, hər sözü, hər jesti yadında saxlamaq istəyirsən. Amma Azər mənim üçün yenə də sirr kimi qalır.

Azər onun yoluna çıxmış insanların qədir-qiymətini bilir. Dünyadan nakam köçmüş tələbə dostu Faiqin zərif istedadını qiymətləndirmiş, onun bütün məktublarını, şeirlərini göz bəbəyi kimi qoruyub saxlamışdır. Faiqin ölümündən sonra şeirlərini çap etdi, haqqında kitab yazdı, Natəvan klubunda təqdimatını keçirdi.

Onun taleyinə və dünyagörüşünə, etik mövqeyinə İki müqəddəs hadisənin güclü təsiri olub: Həcc ziyarəti və Turan xanım Cavidlə görüş. Həcc ziyarətində duaları ("Kitabi-Dədə Qorqud"da: "Oğuz bəylərinin alqışı qarğış idi, dualar müctəab olurdu") müstəcab oldu: gözəl qız balası Cəmilə dünyaya gəldi. Turan Cavidlə - bu böyük Azərbaycan qadını ilə söhbətlər Səma şairinin ruhu ilə görüşə çevrildi. Onun söhbətlərində Turan xanım mifik varıq kimi canlanır.

Azərbaycan ədəbiyyatı onun inanc yeridir, qutsal məkanıdır. Taleyindən keçən obrazların – H.Cavidin, Ə.Hüseynzadənin, M.Hadinin, X.R. Ulutürkün şəkillərini böyüdüb iş otağında başının üstündən asıb. Hər gün onları salamlayıb hesabat verir.

Azər Turan redaktor kimi "Ədəbiyyat qəzeti"nin obrazını dəyişdi. Bir qürur və şükranlıq hissi ilə bildirirəm ki, onun qəzetə cəlb etdiyi ilk müəlliflərdən biri də mən oldum. Söz verdiyim, amma adəti üzrə gecikdirdiyim yazının dalınca universitetə gəlməsi, yağışlı havada maşında oturub gözləməsi hələ də şirin xatirə kimi məndə xoş təbəssüm yaradır.

Azərbaycan ədəbiyyatını yenidən oxucuların maraq çevrəsinə daxil edə bildi. Qəzet ədə-

bi prosesin aynası, Azərbaycan ədəbiyyatının salnaməsinə çevrildi. Ədəbiyyatımızın müxtəlif problemləri ilə bağlı müzakirələr getdi. Ədəbitənqidi məqalələr poeziya, nəsr qədər oxunaqlı oldu. Bunları görməmək və xatırlamamaq insafsızlıq olardı. İş o yerə gəlib çatdı ki, ildə bir çap vərəqi elmi iş verən, avtoreferatlara şablon – trafaret rəylər yazmaqla başlarını girələyənlər bu rəqabətə dözməyib küncdə-bucaqda ağız büzdülər, qeybətə güc verdilər. Bir istedadlı insan kimi, o da həyatında dost xəyanəti ilə, paxıllıqla üzləşib, qədirbilməzlik, nankorluq da görüb, anlaşılmazlığın da qurbanı olub. Bir qrafomanın nadanlığı, tərbiyəsizliyi ilə qarşılaşanda necə sarsılıb, ürək həblərini içdiyini unuda bilmirəm.

Onun bir istedadı kəşf edəndə necə sevindiyinin də dəfələrlə şahidi olmuşam. Bir gənc şairin şeirindən necə "cezb olub", telefonda paylaşdığını və haqqında sevgi ilə məqalə yazdığını da görmüşük.

Onun yaddaşında bir neçə yaddaş birləşib. Vallah, adam öz ömrünün hadisələrini zorla yadında saxlayır. Amma Azərin qeyri-adiliyi ondadır ki, yalnız atasının ömrünü, nəsil-səcərə tarixini mükəmməl bilmir, Hüseyn Cavidin, Əli bəy Hüseynzadənin, Turan xanım Cavidin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun... ömrünü bütün süjet xırdalıqları ilə söyləyə bilir.

Ömründən paralel axıb keçən bu "yaddaş çayları" harada bir-birinə qovuşur – Allah bilir... İmamverdi müəllimin xatirələrini də, yaşantılarını da yaddaşına köçürüb. İmamverdi müəllimin gördüklərini, eşitdiklərini Azər elə epik ehtirasla danışır ki, sanki bunları özü yaşayıb, özü şahid olub. Bəzən "dədəm belə deyirdi" (Azər atasına "dədə" deyir) ifadəsini işlətmir – birbaşa mətləbə keçir, Səməd Vurğunun onlara gəlməsini xatırlayır.

O da bir ata kimi, əlbəttə, onunla qürur duyurdu. "Gənclik"də çap olunan yazılarına görə sevinirdi. Bəxtiyar Vahabzadənin, Zəlimxan Yaqubun və başqalarının Azərlə bağlı tərifləriндən necə sevindiyinin şahidiyəm.

İmamverdi müəllimin kitabxanası Azərin ilk universiteti olub, indi zikr (meditasiya) məqamıdır: rayona, evə gedəndə kitabların, əlyazmaların arasında təklikdə qalmağı və düşüncələrə dalmağı çox sevir. Dədəsinin o məşhur kitabxanasında hər kitabın, hər qəzetin və jurnalın yerini dəqiq bilir. Yadımdadır: Rəsul Rza ilə bağlı bir yazısında hansısa faktı dəqiqləşdirmək lazım idi. Bundan ötrü Neftçalaya gedib, "Ədəbiyyat qəzeti"nin 1958-ci il "podşivka"sını redaksiyaya gətirdi. İlahi, qəzetin saralmış səhifələrini necə varaqlayırdı! Sanki kəpənək qanadına toxunurdu...

Azərlə yol yoldaşı olmaq özü bir bəxtəvərlikdir. Görünür, janrın mental düşüncədən gələn xüsusiyyətidir ki, Azərbaycanda ədəbi portret janrında yazan hər kəsdə bir xatirə damarı var. Mənim də sevimli dostumla bağlı düşüncələrimin məcrasına haradasa xatirə qolları da qovuşur. İlk uzun yolçuluğumuz – yol yoldaşlığımız Gürcüstana olub – rəhmətlik, unudulmaz Zəlimxan Yaqubun Borçalıda yubiley törənlərinə qatılmışdıq. Unudulmaz sənətkarımız bizi seçib, özü ilə ata ocağına aparmışdı. Bir həftə Marnuelidə, Bolnisidə, Tiflisdə onun "sağdışı və soldışı olduq". Azərin sakit, poetik və obrazlı, məntiqli çıxışlarını Zəlimxan müəllim necə məhəbbətlə dinləyirdi və baxışları xoş məmnunluq hissi ilə deyirdi: "görün, kimləri gətirmişəm!"

Azərbaycan ədəbiyyatı onun həyatının mənasıdır desəm, qətiyyən mübaliğəyə yol vermirəm. Onun hər araşdırması, hər elmi məqaləsi ("İrfan Çoban", "Fəryadın metafizikası", "Cavidnamə"...) poeziya ilə nəfəs alır. Əslində, hər şeyi arxiv materiallar, empirik faktlar həll etmir, alimin şəxsi təcrübəsi və güclü fəhmi, mistik yaşantıları və müşahidələri əhəmiyyət daşıyır. Onun məqsədi böyük şəxsiyyətlərin – H.Cavidin, Ə.B.Hüseynzadənin tərcümeyi-halını şərəfli həyat yolunu danışmaq deyil, onların Göylə mistik-qutsal əlaqələrini göstərməkdir.

Filoloji təhlil onun poetik ruhunu əzib sıxışdırmır. Ona görə də Cavid əfəndiyə, Əli bəyə "bir adamlıq yoldur". "Cavidnamə"sinin janrı sinkretikdir: həm tarixi, bioqrafik və filoloji əsərdir, həm də sənədli romandır. Bu romanın hər hissəsi, hər fraqmenti poetik mətn kimi müstəqildir.

Azərbaycan modernizminin tarixini bərpa etmək sevdasına düşdü. Avropa modernizmi ilə gözlənilməz kəsişmə və ayrılma nöqtələrini müəyyən etdi.

Onun təhlilərində bir maraqlı məqam da diqqətimi çəkib: poeziya ilə rəssamlığın arasında assosiativ münasibətləri qəribə həssaslıqla duyur, şeirin tarixcəsini başqa mediumla – vizual bədii diskursda (S.Dali, R.Maqrit, Mircavad Cavadov, Ucal Haqverdiyev...) "kökləmək" həvəsinə düşür.

Azərbaycan filoloji fikrin incəliklərini dərindən bilsə də, onun ədəbi-fəlsəfi esse təfəkkürünü daha çox poeziya, xüsusən modern türk şeiri və Azərbaycan romantizmi mayalandırmışdır. Türk modernist şeirini Avropa modernizmi kontekstində (fonunda) araşdırması yalnız düzgün metodoloji yanaşma deyil, həm də XX əsr türk şeirinin "hava durumunu" müəyyənləşdirmək baxımından maraq doğurur.

Onun esselərində "filologizm" və "lirizm" üzvi surətdə birləşir və nəsrlə yazılmış postpoeziya örnəyi kimi qəbul etmək olar: Azər nəsrdən, nasirdən yazanda da içində mütləq şeir modeli işə düşür, onda nasiri də şair kimi görmək istəyi oyanır.

Poeziya onun mənəvi-ruhani yaşamının cövhərlərindən biridir, xalqı, insanı dərketmə üsullarından biridir. Masasının üstündə Yəhya Kamal Bayatlıdan tutmuş Nəcib Fazıl Qısakürəyə, Camal Sürəyyaya qədər neçə türk şairin kitablarını gördüm. Vərəqlərin arasında qeydləri ilə, yaddaş işarələri ilə. Bu kitabları nə vaxt oxuyub və hardan alıb, təəccüb edirdim. Arada bir telefonda mənə türk şairlərinin şeirlərini oxuyur. İnsafən, yaxşı da söyləyir. Türk şeirinin ritmini, sintaksisini və ruhunu yaddaşına elə hopdurub ki, telefonda bu söyləmənin magiyası qeyri-adi bir effekti yaradır. Azər şeirdə "ölüb dirilir".

Azərbaycan filoloji fikrin incəliklərini dərindən bilsə də, onun ədəbi-fəlsəfi esse təfəkkürünü daha çox poeziya, xüsusən modern türk şeiri və Azərbaycan romantizmi mayalandırmışdır. Ona görə də Azər Turan üçün şair "əbədi indi"nin içindədir. Əsl gerçəklik haradadırsa, şair də oradadır. Müsəlman sufilərinin, buddist ustalarının, xristian müqəddəslərinin olduğu yerdədir.

Azər şeirdən, şairdən yazanda obrazların içində, xüsusən mətnin metaforik-sürreal məkanında gəzişmələri çox sevir. İstər Ramiz Rövşənin, Jak Preverin, istərsə də gənc Azərbaycan şairi Ümid Nəccarinin şeirləri olsun, obrazların məntiqini və qeyri-məntiqsizliyini şair fəhmi ilə bir araya, bir məxrəcə gətirir.

Adama elə gəlir ki, Azər ömrünü poeziya qanunlarına tabe edibdir – şeir yazmasa da, şair kimi yaşayır. O, iç dünyasının bütün təzahür formalarında, dostluqda, sevgidə, qəzetçiliyində də şairdir. Tiflisdə, Şeytanbazada olarkən "Hüseyn Cavid buralarda yaşayıb" deyərək, mənimlə birgə mütəfəkkirin qaldığı evi axtarmaq həvəsi də şairliyindən gəlir...

Rüstəm KAMAL

QUMRU

Ağappaq qar içində
Atılıb-düşdü Qumru.
Qartopular düzəltdi
Balaca, yumru-yumru.

Sonra qardaşı ilə
Qardan adam düzəltdi.
Buz kimi əllərini
Anasından gizlətdi.

YEGANƏ MÜƏLLİMƏ

Müəlliməmin adı
Çox gözəldi – Yeganə!
O mənim ürəyimdə
Bir dənədir, bir dənə.

Mən yaxşı oxuyuram,
Müəlliməm sevinir.
Gündəliyə "5" yazır,
Mənə "Afərin!" deyir.

Gül çəkirəm mən ona,
Düzəldirəm ev, gəmi...
Yeganə müəllimə,
Çox sevirəm mən səni!

MÖTƏRİZƏ

Mötərizə yazmağı
Öyrənib bizim Ayna.
Mötərizə içində
Qaldı armud və alma.

Anasının üzünü
Alıb kiçik ovcuna.
Mötərizəyə aldım,
Deyir, səni, ay ana!

Mina RƏŞİD

TƏNDİR ÇÖRƏYİ

Xəmir yoğurdu,
Kündələr tutdu.
Nənəm onları
Təndirə yapdı.

Çörəkdən əvvəl
Qoxusu gəldi.
Sonra çörəklər
Bir-bir düzüldü.

Təndir çörəyi
Nə ləzzətlidir!
Nənəmin əli
Bərəkətlidir.

BALACA GÜNƏŞ

Yuxudan duran kimi
Hamıya gülümsəyir.
Ata, sabahın xeyir,
Ana, sabahın xeyir!

Yeddi yaşlı Günəşdən
Qəm qorxur, qüssə qaçır.
O, balaca günəştək
Ətrafına nur saçır.

GÜNƏŞ NƏ AĞILLIDI

Günel məktəbə gedir,
Günəş üzünə gülür.
Deyir, yoxsa günəş də,
Ana, məktəbə gəlir?

Günəş nə ağıllıdı,
Göydə ocaq qalayır.
Uzadıb əllərini
O məni qucaqlayır...

NƏNƏMİN AD GÜNÜDÜ

Nənəmin ad günüdü,
Tez tort bişir, ay ana!
Üstünə yaz "Can, nənə",
Çiyələk düz yanına.

Nənəm çox sevinəcək,
Tort verəcək mənə də.
Nənəmi çox sevirəm,
Ana, elə səni də.

ŞUŞA

Min bir dərdin dərmanı,
Şirin, buz bulaqları.
Şuşa dağın başında,
Dolanbacdı yolları.

"Qarabağ şikəstəsi",
Xarı bülbülün eli.
Natəvanın qələmi,
Vaqifin şirin dili.

Qalıb düşmən əlində
Neyləsin əsirliyi?
Başına bəla olub
Şuşamın gözəlliyi.

Tez gedək Qarabağa.
Baba, nənə, tələsin!
Şuşasız həsrət sizi
Qoy daha öldürməsin…

NOVRUZ BAYRAMI

Bayramların içində
Biri var, o ayrıdır.
Biz onu çox sevirik,
O, Novruz bayramıdır.

Bəzəkli yumurtalar
Döyüşə hazır olar.
Tonqalların üstündən
Ən qoçaqlar atlanar.

Stolun üstündəki
Səməni dir ən uca.
Şəkərbura, paxlava,
Şirni, noğul bolluca.

Qızlar qapı yanında
Qulaqlarını tutar.
Qonşular qoz-fındığı
Papaqlara doldurar.

...Nənəm Qarabağdakı
Novruzundan danışar.
Susar bütün uşaqlar,
Qəlbimizdə bir həsrət
Tonqal kimi alışar.

XOCALI

Xocalı qan ağlayır,
Ürəyimi dağlayır.
Qərənfil də bizimtək
Dərd çəkir, yas saxlayır.

Amma biz ağlamaqla
Bu dərd sağalan deyil.
Xocalını almasaq,
Bir də doğulan deyil!

ANA DİLİM

Ana dilim bal kimi –
Danışmaqdan doymuram.
Mən onu neçə dilin
İçində qoruyuram.

Çoxlu nağıl söyləyib
Nənəm bu dildə mənə.
Hərfləri öyrəndim
Mən sevinə-sevinə.

Çox sevirəm yurdumun
Bayrağını, himnini.
Mən sevirəm anamı,
Həm də ana dilimi.

ÇİÇƏKLƏN, GÖZƏL BAKIM!

Baxın, Qız Qalasının
Başı göylərə dəyir.
Xəzərimin tayı yox!
Şən ləpələr söyləyir.

Nə doğmadır qucağın,
Əzizlər qonağını.
Həzin küləklərinlə
Oxşadın yanağımı.

Ay İçərişəhərim,
İç-içə evlərin var.
İçindən çıxmaq olmur,
Qərib küçələrin var...

Şirvanşahlar sarayı
Min illərin yaddaşı.
Mənim ziyarət yerim
Babaların başdaşı.

Alov dilli binalar
Ulduzlarla görüşür.
Mənim uca bayrağım
Günə, aya qovuşur.

Neçə-neçə igidlər
Uğruna qurban getdi.
Şəhidlər Xiyabanı
And yerinə çevrildi.

Qoy kor olsun düşmənin,
Gülsün dostların üzü!
Çiçəklən, əziz Bakım,
Dilimin şirin sözü!

Sən doğma Vətənimin
Vüqarı, baş tacısan.
Gözəl Bakım, ömrümə
Günəştək nur saçırsan!

ƏSGƏRƏ MƏKTUB

Dilimizin əzbəri
Əsgər, ucadır adın!
Müqəddəsdir, təmizdir
Sənin Vətənə andın.

Sən Vətəni, milləti,
Bayrağı qoruyursan.
Üstündə boy atdığım
Torpağı qoruyursan.

Mən də böyüyən kimi
Bir əsgər olacağam.
Lap qarda, boranda da
Səngərdə qalacağam.

Biz əsgər oluruq ki,
Analar ağlamasın.
Üçrəngli bayrağımız
Vüqarla dalğalansın!

ÖLÜ SƏHRA

Günel NATİQ

Hər gün eyni yuxunu görürdü. Prospektə gedən yolun üstündəki mağazaya girir, gitaranı götürür və arxasına baxmadan qaçırdı. Təqib edənlər gecənin qaranlığında gözdən itir və o, qaranlıqdan əlində gitara sıyrılıb çıxır, asta addımlarla yoluna davam edirdi. Elə bil halal puluna almışdı gitaranı. Qorxusuz-hürküsüz evə gəlir, mənzilin bir küncünə qoyub tamaşa edirdi. Bilirdi ki, götürüb çalmağa əli gəlməz. Ona görə yox ki, oğurluqdur, ona görə ki, o, gitaradır, ona görə ki, dünyanın bütün ecazkar musiqilərini onda çalmaq olar.

Adil qan-tər içində yuxudan oyanır, otağın küncünə baxırdı. Heç nə görməyib sevinirdi, "çox şükür", deyirdi. Sonra birdən ürəyi sıxılırdı. Yenə həmin yerə baxırdı. Heç nə görməyib bu dəfə hönkürmək istəyirdi. Razıydı, səhərə qədər o küncdə bir ayağı üstündə dayansın, – necə ki, uşaqlıqda onu məcbur edirdilər, –amma səhər duranda həmin yerdə gitaranı görsün. Götürməyə qıymayıb tamaşa eləsin, sonra günlərin birində gitara dilə gəlib dünyanın ən ülvi musiqilərini çalsın. Necə ki, Vısotski çalırdı, "Biz ölü səhrada yaşayırıq," – deyirdi.

İşə gedəndə başı partlayırdı. Elə bil bütün gecəni içmişdi. Adətən içəndə belə olurdu. Nadir hallarda içirdi. O da ki qəribsəyəndə, içindəki boşluğu yarıb planeti ora köçürmək istəyəndə...

Səhər hər ehtimala qarşı mağazaya baş çəkdi. Musiqi alətləri satılan bölməyə keçdi. Gitara qəribə bir kədərlə ona baxırdı. Gitaranın kədəri qəribə, izaholunmaz bir hiss idi.

Məsələn, skripkanın kədərini uşaqlıq vaxtlarından onun qəlbinə "transfer etmək" istəyirdilər, o isə bundan boyun qaçırırdı. Skripka ilə məşqlərə davam etmək istəməyəndə anası onu – yuxularında gitaranın olduğu yerdə – küncdə bir ayağı üstə durmağa məcbur edirdi.

Müəllimi deyirdi ki, Adil nadir istedaddı, böyük musiqiçi ola bilər, amma, təəssüf ki, bütün böyük musiqiçilər kimi qəribəliyi var... Amma o, böyük musiqiçi olmaq istəmirdi. O, Vısotski olmaq istəyirdi, dünyanın ən sadə və ali musiqilərini ifa etmək istəyirdi. O, gitaranın bütün kədərini hiss edirdi, ona elə gəlirdi ki, ona yaxın olsa, gitara daha məzlum olmayacaq və tamam başqa cür danışacaq. Necə ki, atası onunla danışırdı, onu başa düşürdü, bax o da gitaranı o cür, ata kimi anlayırdı. 12 yaşlı uşağın özünü ata kimi hiss etməyi qəribə hiss idi. Amma o bu hiss üçün bütün başqa duyğularını qurban verməyə hazır idi.

Hər səhər anası onu o vaxtın son dəbiylə geyindirib musiqi məktəbinə aparırdı. Yol boyu qarşılarına çıxanlar sanki moda jurnalından düşmüş bu şıq, ədəbli, əlində skripka olan balaca oğlana maraq və rəğbətlə baxırdılar. O isə bu baxışlardan sıxılır, özünü ən ədəbsiz adam kimi hiss edirdi. Bir az köhnə, bir az modası keçmiş geyimlərdə olan adamların yanından suçlular kimi keçirdi. Həmin vaxt skripkanı daşa vurub sındırmaq, onun bütün füsunkarlığını və cazibəsini insanların önündə məhv etmək, onun qürurunu qırmaq istəyirdi. Özü də hamının gözləri önündə etmək istəyirdi bunu.

Sonra anasına baxıb aid olduğu yeri xatırlayırdı. Adilin ora aid olduğunu anası deyirdi. O özü buna inanmırdı.

...Yenə eyni yuxu. Eyni mağaza. Ondan başqa heç kim yoxdur. Onu götürüb qaçmaq olar. Heç kim bilməyəcək. Onun oğurladığını kim biləcək ki?! Ağıllarına da gəlməz. Heç Milşteynin də ağlına gəlməz. Axı o, skripka dahisidir. Gitaranın oğurlana biləcəyi onun belə ağlına gəlməz.

Yuxudakı sayıqlamalarını xatırlayanda dodağı qaçdı. Küncə baxdı. Bir vaxtlar bu küncdə bir ayağı üstə dayanardı. Skripka çalmaq istəməyəndə anası onu məcbur edirdi. O da bir ayaq üstə durmağa razıdı, təki... o təkəbbürlü skripkanı onun əlinə verib çalmağa məcbur eləməsinlər. Axı o sevmir onu. Heç vaxt da sevməyəcək. O, Vısotskini sevir. Onun mahnılarıyla böyüyüb. Vısotski elə sadə və böyükdü ki. Onu sevməyə başlayanda lap uşaqdı. Həyatda sadə və gözəl olan nə varsa, onları duymağı gitara ona öyrədib. Gitarayla yolları ayrılmayacaqdı, əgər həmin gün anası onu əlindən alıb çarpayının kənarına çırpıb sındırmasaydı.

Məşhur skripkaçının konsertindən yenicə qayıtmışdılar. Adil bütün axşam təkcə boynunu deyil, bütün düşüncələrini, duyğularını sıxmış kəpənəyi çıxarıb kənara atmışdı, təmtəraqlı axşamdan, dəbdəbəli adamlardan, onun saç düzümü, son dəbli geyimi və dik duruşu ilə axşamın qəhrəmanına çevrilmiş anasından xəbərsiz olan gitara sakitcə küncdə dururdu.

Ruhu azadlıq istəyirdi. Vısotskinin balaca qəhrəmanı kimi özünü müharibə uşağı kimi təsəvvür etmək istəyirdi. Özünü qəhrəmanların yerinə qoyur, düşmənin göz yaşının qurumasına imkan verməyən, gözəl xanımlara əbədi məhəbbət vəd edən və müqəddəs şeylər uğrunda döyüşən əsgər kimi hiss edirdi. O əsgərlər ki, səngərlərdə yatır, nahara boş sıyıq yeyir, amma əsl mübarizənin tamını bilirdilər.

Axşamkı təmtəraq, insanların kübarlığı imitasiya etmələri pis qoxu kimi üstünə çökmüşdü. 12 yaşı vardı, amma hər şeyi hiss edirdi. Gitaranı götürdü. Gecəni köynək kimi əynindən soyunmaq istəyirdi.

Axşamkı təəssüratdan ayrılmayan anası onun skripkanı götürüb konsertdə eşitdiyi əsərləri təkrar edəcəyini gözləyirdi. Günlərin birində belə bir konsert zalında oğlunun çıxış edəcəyini xəyal edirdi. Gitaranın səsi onu xəyalların əlindən aldı. Yalnız almadı, qoparıb qaçdı. Dəli bir qəzəb bütün bədənini titrətdi. Xəyallarının intiqamını almaq istəyi varlığına hakim kəsildi. Gitaranı oğlunun əlindən alıb çarpayının kənarına çırpdı. Bir dəfə vurmaqla hirsi soyumadı. Onun lap kiçik parçalarını görmək istəyirdi. Onun alçalmasını, yox olmasını istəyirdi. Gitara onun xəyallarını qırmışdı, o da onu eyni amansızlıqla məhv etmək istəyirdi.

Oğlan keyimişdi. Əlini-ayaqlarını hiss etmirdi. Yoxsa o ağrıları o da yaşayardı. Ağlayardı, hönkürərdi, anasının əlindən tutub "Ana, nə edirsən? Axı o mənim hər şeyimdir", – deyərdi.

Bir azdan hər şey bitdi. Artıq heç nə əvvəlki kimi olmayacaqdı. Artıq təsəlli olmayacaqdı. Ortada gitaranın və nifrətin qalıqları qalmışdı. Əslində, çox şeylər qırılmışdı, məhv olmuşdu.

Sonra şəhərin küçələrində dəli kimi qaçdığını xatırladı. Tövşüyürdü, bilirdi ki, qaçmasa, gitara kimi parça-parça olacaq. Və əgər ayaq saxlasa, bir də nəyisə dəyişmək şansı olmayacaq.

Küçələr tanış, yad, özgə, tanış olmayan qapılara çıxırdı, sonra yenidən arxaya çəkilərək səmti dəyişirdi. Olanlar beynində cürbəcür obrazlara çevrilirdi, bu obrazlar isə öz növbəsində qəribə məxluqlara dönür, onu təqib edirdi...

Sonrakı illər Vısotskinin nəğmələri olmadan keçdi. Arada o sözlərin anlamını da itirirdi, elə bil beyni deformasiyaya uğramışdı. İstəsəydi, gitara ala bilərdi. Amma taleyi artıq onun gələcək aqibətini bəlli edəcəkdi. Adil qəlbinin dərinliyində bu informasiyadan qorxurdu.

Milşteynin konsertində isə iştirak elədi. Anası xüsusi kostyum sifariş vermişdi, kəpənəkli.

"Bilirəm, o skripkaya sənin qanın qaynamadı", – sonradan anası onun könlünü almağa çalışmışdı, – "Musiqi alətinin də insana yapışmağı var. Atana min dəfə demişəm ki, hər mağazadan almasın musiqi alətini. Elə material var ki, adama istədiyini vermir". Anası lap mütəxəssis kimi danışmışdı. Bəlkə də, bunun üçün bir neçə kitab vərəqləmişdi. Amma bütün bunlar daha Adildən ötrü önəmli deyildi.

O artıq özünün istədiyi kimi ola bilməyəcəkdi. Məsələ gitarada da deyildi. O özünü ifadə emək, öz gizli qabığından çıxmaq, ağlamaq, hönkürmək, dəli bir qəhqəhə ilə gülmək... istəyirdi. Və daha heç vaxt bunu edə bilməyəcəkdi.

Konsert möhtəşəm keçmişdi. Anası belə deyirdi. Adilin böyük istedadını görməmək sadəcə

mümkün deyildi. Deyilənə görə, Milşteynin özü də bu ifadan duyğulanmışdı. Düzdür, anasının hər şeyi şişirtmək kimi vərdişi vardı, amma bu dəfə olanları qabartmağa ehtiyac yox idi. Alqışlar, gül dəstələri, evə gələn telefon zəngləri və s. Adilin ifasının baş tutduğunu deyirdi.

Musiqi məktəbini bitirəndə onu xaricə təhsilini davam etdirməyə göndərdilər. Düzdür, bu göndərişdə anasının rolu da az olmamışdı. Amma tələbələrin içində ən perspektivlisi onsuz da o idi. Onda 18 yaşı yenicə tamam olurdu.

Aeroportdan düşəndə qulaqları batdı. Bir an səslərdən məhrum elədi özünü. Sonra yavaş-yavaş səslər yerinə gəldi. Quşlar yuvaya can atan kimi, səslər də qulaqlarına doluşdular.

Konservatoriyanın qapısının ağzında ayaq saxladı. İçəri girməyə hazır deyildi. Anasının sərt üzü gözünün önünə gəldi. Tələsik pillələri qalxdı. Bilirdi ki, bir an belə geciksə, özünə mane olacaqdı.

İlk dərs günündə Klod Debüssinin "Ay işığı" əsərini ifa elədi. Həyəcanını gizləməyə çalışsa da, qoca yəhudi müəllim, deyəsən, onun zahirini deyil, bütün içini görürdü. Əsər bitəndən sonra müəllim yaxına gəldi:

"Cavan oğlan, bu, möhtəşəm melodiyadır. Debüssi onu Pol Verlenin təsirli sözlərinə yazıb. Mən həmişə bu musiqinin öz içində gizlətdiklərini anlamağa çalışmışam. Sizdə belə bir cəhd yox idi. Amma melodiyanı özünüz hiss etdiyiniz kimi ifa etməyiniz mənə xoş gəldi."

Adilin nəfəsi daraldı. Elə bil onu tutub bu lənətəgəlmiş alətin içinə salmışdılar və heç cür canını qurtara bilmirdi.

Özü bildiyi kimi ifa etməyə qərar vermişdi. Sən demə, bu, qüsur deyilmiş. O, isə akademiyadan qovulacağına ümid edirdi. "Mən heç nə hiss etmirəm bu alətə qarşı. Çıxarın bunu mənim həyatımdan", – deyib bağırmaq istəyirdi.

Yəhudi müəllim – Albert Polonskinin bir suyu Milşteynə oxşayırdı. Polonski musiqi üçün nadir tapıntı idi. Musiqini nəfəsi kimi hiss edirdi. Ömrü təzyiqlərə sinə gərməklə keçmişdi. Əslində, onun yeganə istəyi skripkanı öz ruhunda hiss etmək idi.

Amma skripkanı ona çox görürdülər, ya da onun ondan ötrü çox şey ifadə etdiyi üçün əlindən almaq istəyirdilər.

İllər öncə özünü təzə-təzə musiqidə tapan gənc istedad Albert Polonski konservatoriyanın qəbul imtahanına buraxılmamışdı. Nələrisə bəhanə eləmişdilər. O da skripkadan torpaqdan yapışan kimi yapışmşdı. Skripka onun üçün ana torpaq kimi idi. Həyatın ilki və sonu.

Polonski sanki hislərini musiqiyə sərmayə qoyurdu. Başqa işlərdə məntiqə söykənirdi. Adama elə gəlirdi, o həmişə belə yaşlı, təcrübəli olub. Gəncliyini təsəvvür etmək müşkül idi.

Bir fransız qadınıyla evlənmişdi. Paris Konservatoriyasına daxil olmuşdu. Ancaq imtahana az qalmış yatağının yanında skripkanın qırıq parçalarını tapmışdı. Qalıqları əlinə alıb gözünə yaxınlaşdırmışdı, elə bil skripka olmadığına özünü inandırmaq istəyirdi.

Qadınların intiqamı ağır olur – qadını belə hesablaşmışdı onunla.

Arvadının gecələr yatağın içində o yan-bu yana çevrildiyini, özünə yer tapmadığını xatırladı. Həmin vaxtlarda onun beyni Debüssinin "Ay işığı" melodiyası ilə məşğul idi, imtahan mövzusu bu əsər idi. Elə ifa edəcəkdi ki, imtahan komissiyası ifadan başqa heç nə düşünə bilməyəcəkdi. Antisemitizm havası özü-özlüyündən buxarlanıb gedəcəkdi. O anların həzzi yanında gecələr onun yolunu gözləyən qadınının şəhvəti nə idi ki?!

Dostunun skripkası ilə imtahana girmişdi. Əvvəl skripka sözünə baxmırdı, amma özgə skripka da məhrəm ifanı duyub doğmalaşmışdı usta əllərə. İmtahandan çıxanda gözləri gülürdü. Xoşbəxtliyini bundan artıq büruzə verməyə, sadəcə halı yox idi.

İndi yad ölkədən gələn tələbə – Adil Cəfərzadə o melodiyanı ifa edəndə yadına öz itkiləri düşdü. Amma bu ifada qalıcı olan nəsə vardı. Maraqlıdır ki, ifada bu hislər ağır idi. Musiqi o hisləri anlayır, hansısa anda o hislər üçün yaşayırdı.

Bu çox qəribə bir təəssürat idi. Müəllim qəribə tələbəsiylə ikilikdə danışmağa çalışdı, amma tələbə özüylə bağlı olan bütün istiqamətlərdən qaçırdı.

Polanski onu ifalarından anlayırdı. Sonra heç nə olmamış kimi havadan-sudan söhbət edirdi. Adilə deyəcəkləri elə bu havadan-sudan olan söhbətlərin içində idi. Skripkanın möhtəşəmliyini Adilin görmək imkanları vardı, amma bacarmırdı. İstəsəydi, bacarardı, məsələ burasında idi ki, istəmirdi.

Bir dəfə Adil intihara cəhd etmək istədi. Açıq pəncərənin qarşısında dayanmışdı. 14-cü mərtəbədən həyata və ölümə baxırdı. Arxadan eşitdiyi səs onu bir addım geri çəkilməyə məcbur elədi.

“Cəfərzadə, bu gün Fransanın Belçika ilə yoldaşlıq görüşü var. Bilirsən, nə matç olacaq?”

Dönüb Polanskinin boz-bulanıq gözlərinə baxdı. Polanski gözlərini çəkmədi:

“Mənə yoldaşlıq edərsən? Matça tək baxmağa vərdiş etməmişəm”.

Əslində, Adil bilirdi ki, Polanski bütün həyatını tək yaşamağa vərdiş edib. Onun ən böyük vərdişlərindən biri bu idi. Yapayalnız həyata tutunmaq. Adil hörmətlə başını tərpədib auditoriyadan çıxdı.

Həmin axşam Polanski ilk dəfə matça tək baxmaq vərdişini unutdu. Adillə ikilikdə Fransanın möhtəşəm oyununu izlədilər, sonra qələbəni bir şüşə viski ilə qeyd etdilər.

Sonra Polanski məhəbbətdən danışdı. Dedi ki, imtahanqabağı skripkasını qıran qadını unuda bilmir. Ona görə yox ki, skripkasını sındırıb. Ona görə ki, onu sevən tək qadınıydı.

O hadisədən sonra qadın baş götürüb getmişdi. Başa düşmüşdü ki, Polanski onu heç vaxt bağışlamayacaq. Polanski, doğrudan da, onu bağışlamamışdı və bağışlamayacaqdı, amma bunun məhəbbətə qətiyyən aidiyyəti yox idi.

Sonra Polanski qadını sevdiyini, danışmışdı. Amma skripkanı qadına qurban verməyə qorxurdu. Çünki ürəyinin dərinliyində bilirdi ki, bu qadın üçün hər şey edər. Ona görə onu alçaldır, laqeydliklə həm onu, həm də özünü cəzalandırırdı.

Polanski qəribə şeylər danışmışdı. Adil öz müəllimini ilk dəfə həmin gün anlamışdı – yenidən həyata dönəndə.

O, axırıncı kursda oxuyanda Albert Polanski həyatla vidalaşmışdı. Adil onu ziyarət edəndə Polanski demişdi ki, ən çox onun diplom işini dinləyə bilməyəcəyi üçün təəssüflənir. Onun zənnincə, Adil, müəlliminə ən böyük sürprizi həmin gün edəcəkdi.

Polanskidən sonra Adili akademiyaya heç nə bağlamırdı. Amma məhz diplom işini hazırlamaq üçün bu məktəbin pillələrini hər gün qalxırdı.

Diplom işi klassik melodiyanın müasir musiqi parçası ilə sintezi idi. Adil, Debüssinin “Ay işığı” əsərinin melodiyasını Polanskinin öz bəstəsi ilə sintez etmişdi. Bu, unudulmaz ifa idi. İki dahinin əzabları bir müstəvidə qaynaşaraq böyük bir əsər ortaya qoymuşdu. Əsərin dərinliyini anlayanlar əmin idilər ki, Albert Polanski də bu ifanı eşidir və öz tələbəsi ilə qürur duyur...

Adil Parisdə akademiyada qalıb işləmək təklifini qulaqardına vurdu. Bakıya qayıtdı. Bakıya qayıtdığı gün qar yağmışdı. Nədənsə Paris qarıyla Bakının qarını müqayisə edir və qoyub gəldiyi yerə yağan qarda palçıqlı da olsa, öz izinin də olduğunu düşünürdü. Amma hər şey üçün çox gec idi.

Akademiyanın 3-cü kursunda atası dünyasını dəyişmişdi. Artıq anası vəzifəli şəxsin dəbdəbəli xanımı deyildi. Büzüşmüş, içinə yığılmışdı. Adamlardan qaçırdı. Elə bil kiminsə onu tanıyacağından qorxurdu.

Elə həmin qarlı qış günlərinin birində, sadəcə ölmədi, bir az da içinə yığıldı. Onsuz da həyatdan təcrid olunmuş qarı üçün bu qədər ölüm kifayət idi... Adil şəhərin mərkəzindəki mənzilini əyalətdən gəlib uğurlu biznes sahibi olmuş bir ailəyə satdı. Qadının gözlərində gördüyü qürur hissi, yəqin, bir vaxtlar anamda da vardı, deyə düşündü. Və evi tərk etdi.

Şəhərdən bir az aralıda birotaqlı mənzil aldı. Pulların bir qismini sahibsiz heyvanlar üçün sığınacağa verdi, bir qismini də kimsəsiz uşaqların musiqi təhsili üçün ianə toplayan dərnəyə bağışladı. Təmtəraqlı tədbir keçirib ona xüsusi təşəkkür diplomu təqdim etmək istəyən dərnək başçısından xahiş etdi ki, onu narahat etməsinlər və heyrətli baxışlar altında dərnəyi tərk etdi.

...Yenə eyni yuxu. Eyni gitara. Uşaqlıq çağının kiçik ümidinə necə də bənzəyirdi. O vaxt ona elə gəlirdi ki, dünyanın ən gözəl musiqilərini onda çalmaq olar. Gitara çalmamaq üçün nə qədər otağın küncündə bir ayağı üstündə durmuşdu...

Hər dəfə yuxudan oyananda mənzilin küncünə baxırdı. Gitaranı orda görməyib sakitləşirdi. Kürkünü geyinir, kepkasını qoyur, inşaat yerinə yollanırdı.

Əvvəl incə barmaqlarına baxıb onu işə götürmək istəməmişdilər. “Bu barmaqlar fəhlə barmaqları deyil”, – demişdilər. “Sizin üçün nə fərqi var, bu əllərlə mən işləyəcəyəm”, – demişdi. Onun ötkəm cavabı hamını susdurmuşdu.

Əllərinə cəza vermək istəyirdi. Akademiyaya bağışladığı həyatın intiqamını almaq istəyirdi. Amma bu, yeganə intiqamı deyildi.

Axşama kimi qum daşıyır, sonra paltarını dəyişib evə gəlirdi. Daş kimi yatırdı. Unutmaq üçün bundan gözəl vasitə ola bilməzdi.

Hər gecə yuxu, ya reallıq olduğunu anlaya bilmədiyi dibsiz bir yolda ona oxşayan bir adam əlində tanış gitara var gücüylə Ölü səhraya tərəf qaçırdı...

AZƏRBAYCAN CÜMHURİYYƏTİ MƏFKURƏSİ VƏ BƏDİİ ƏDƏBİYYAT

Cavanşir YUSİFLİ

Azərbaycan Cümhuriyyətinin yaranması, süqutu, sonradan, uzun illər keçəndən və ağır müstəmləkə zülmündən sonra yenidən bərpası, xüsusən, son bir neçə on il ərzində davamlı şəkildə araşdırılmış, mühüm sənədlər ortaya çıxmış, təhlillər aparılmışdır. Cümhuriyyətin formalaşması və süqutu ilə bağlı hadisələr təfsilatı ilə təsvir edilmiş, Cümhuriyyəti doğuran, yaradılmasına səbəb olan şərtlər – tarixi şərait, Cümhuriyyət məfkurəsinin kökləri yetərincə olmasa da, əsasən, təhlil edilmişdir. Həm elmi araşdırmalarda, həm də həyatın özündə, zamanın gedişində...

Millətin həyatı və taleyi ilə sıx bağlı olan ideyalar ölmür. Məmməd Əmin Rəsulzadənin qısa müddətdə Finlandiyada olduğu zaman "Azərbaycan gəncliyinə müraciət" adlı əsər yazması məlumdur. Bu yazının yazılmasına səbəb, şübhəsiz ki, onun diqqətini cəlb edən müşahidələri olmuşdu. Fin xalqı illər boyu sürən müstəmləkə zülmünə qarşı mübarizə ruhunu mahnı və nəğmələrdə, xalq deyimlərində qoruyub saxlamışdı.

Həmin xalqın əfsanələrində möhkəmcə oturuşmuş bir inanc var. Təqribən belə: Meşə. Külək qəribə simfoniya yaradıb. Ən böyük (başqalarının gördüklərindən böyük...) ağacın altında durub gözlərini yumubsan. Heç nə görmürsən. Ancaq kimsə görür bu mənzərəni. Gələcəkdə. Çünki uşaqlıqda gördüyümüz şeylər sonralar bir-bir, kadr-kadr ekrana gəlir, ta ölənə qədər. Nə olur-olsun, bu tamaşaya, ən azından onun bizdən bəhs edən bir fraqmentinə hökmən baxırıq. Yarpaqlar ayaqları bağlı quşlar kimi səmanın qoynuna (dərinliyinə...) əsir, göydəki quşlar anidən dayanıb buludların ətəklərindən tökülən yarpaqlara qoşulub uçur. Gözlərini yum, sevdiyin ağacın ruhunu görəcəksən...

Bu mif mətninin içində gizli saxlanan həqiqətin çözülməsi üçün biz sözü gedən hadisə-mətləbi tarixi planda dərk etməliyik, yəni cümhuriyyət məfkurəsi ilə bağlı nə varsa, bilavasitə Azərbaycan tarixinin keşməkeşləri kontekstində izah və şərh edilməlidir. Həm də ideya toqquşmaları, ideya mübarizəsi fonunda. Təsadüfi deyil ki, Paris Sülh Konfransına göndərilən nümayəndə heyəti də müxtəlif Qərbi Avropa dillərində yazdıqları hesabatlarda bu məsələni bu şəkildə qoyurdular. Diqqət edin: "Bakı regionundakı zəngin neft yataqları Azərbaycanın mənşəyini hər hansı yazılı mənbədən daha yaxşı ifadə edir. Sönməyən alov dilləri kimi, Azərbaycan da taleyin oyunlarına, siyasi və sosial çevrilişlərə, iqtisadi dəyişikliklərə baxmayaraq, öz yoluna davam etmişdir. Azərbaycan torpaqları Makedoniyalı İsgəndərdən tutmuş, Teymurləngə qədər bir çox məşhur fatehlər görmüş, onun sakinləri ərəblər, farslar, Osmanlı türkləri və başqaları ilə üz-üzə gəlmişdilər. Bu çağırılmamış qonaqlar, təbii ki, Azərbaycanın ərazi və etnik tərkibinin əsaslı surətdə dəyişilməsinə təsir göstərmişdilər. Ölkənin bir hissəsi hərbi güc tətbiq edilməklə İrana birləşdirilmiş, digər hissəsi isə Qafqazın coğrafi sərhədləri daxilində qalmışdır. Məhz bu

şərait Azərbaycan xalqının taleyində mühüm rol oynamışdır."

Cümhuriyyətin yaranması, başqa sözlə, cümhuriyyət məfkurəsinin formalaşması 1) dünyada gedən proseslərlə, 2) Azərbaycan xalqının öz daxili potensialının müəyyən həddə çatması və nəhayət 3) bu dönəmdə istiqlal məfkurəsinin yaranması prosesi ilə bağlıdır. Cümhuriyyətin arxasında, idarə pultunda nəhəng simaların olduğunu xatırlayın; onu da xatırlamalıyıq ki, o dövrdə super dövlətlərdə belə bir münasibət formalaşmışdı ki, kiçik xalqlar müstəqil ola bilməzlər, dövlət qura bilməzlər. Bu faktoru da nəzərə aldıqda XX əsrin əvvəllərində yetişən məfkurənin xalq üçün nə qədər önəmli olması və əslində, gələcəkdə də meydana çıxma imkanını istisna etmir. Bir güclü ideya müəyyən dönəmdə qırıla, yaxud susdurula bilər, yaxud ondan sui-istifadə edilə bilər, ancaq zaman keçdikcə onun rişələri mütləq üzə çıxır...

Azərbaycan xalqının daxili potensialının müəyyən həddə çatması və bu dönəmdə istiqlal məfkurəsinin formalaşması prosesi, xüsusən, o dövrün poeziyasında aydın şəkildə özünü göstərir. Hansı ideya mövqeyində durmasından asılı olmayaraq bu məfkurə ilə yaşayan bütün qələm sahibləri, siyasət adamları həmin prosesin iştirakçıları oldular.

Əhməd Cavad həmin dövrün ab-havasını, daxildə, alt qatlarda gedən prosesin bütün fəsadlarını özünəməxsus riqqət və təlaşla ifadə edirdi. Onun lirik mətnlərində misralararası cazibə sahəsi özündə şairin iradəsindən asılı olmayaraq gələcəyin də faciə və məşəqqətlərini doğru-dürüst şəkildə göstərirdi.

Qorxutmayır məni bu qanmayanlar,
İsrafil surundan oyanmayanlar...

Bədii mətn, poeziya nümunəsi gerçəkliyin ən müxtəlif laylarına səpələnmiş küyü (indinin və gələcəyin qara buludlarını!) həmin o misralararası sahədə elə "həll edir" ki, şeir proqnoz olmaq imkanından vaz keçib taleyə çevrilir, təkcə şairin yox, elə millətin də. Bədii mətnin oxusu, mütaliəsi əvvəlcə özünün daxili ritmi ilə oxucuları bir yerə, bir düşüncə mərkəzinə yığsa da, sonradan onları ayırır, çünki hər bir insan bu şeirdə millətin taleyini bir şəkildə görür və öz taleyini bu mətnə bir şəkildə qatır və ya bu mətnin güzgüsündə özünü tam başqa şəkildə görür. Bu mənada Əhməd Cavadın 1925-ci ildə yazdığı "Göy Göl" şeiri səciyyəvidir. Şeirin adı mütaliənin ən müxtəlif dönəmlərində onun ideologiyasına, poetik formuluna müxtəlif şəkildə nüfuz edir. Şeirin adı (Göy Göl...) nə vaxtsa, hansı əsrdəsə baş verən zəlzələ, dağların parçalanması, qayaların qopması... zəmanənin içindəki küyü səsə – şairin gələcəkdən xəbər gətirən pıçıltısına çevirir. Professor Qorxmaz Quliyev yazır: "...Əhməd Cavadın məşhur "Göy göl" şeirində ezop dilinin ortaya qoyduğu imkanlardan məharətlə istifadəsi kod-küy münasibətlərinin bu növünə misal ola bilər: əsər bir tərəfdən gözəl poetik nümunədir, digər tərəfdən müəllifin poetik kodun üzvi tərkib hissəsi qismində kifayət qədər "şəffaf" küy vasitəsilə son dərəcə tələtümlü bir dövrdə – XX əsrin əvvəllərində Azərbaycan xalqının arzu və ümidlərini, başının üstünü alan təhlükələri ifadə edir. İkincisi, oxucunun ədəbi-bədii mətndə küyün yaratdığı maneələri dəf etmək və müəllifin ifadə etdiyi mətləbləri bu və ya digər səbəbə görə dərk etmək iqtidarında olmaması. Bəzən müəlliflər bədii koddа küyün xüsusi çəkisini son dərəcə artırmaqla özləri ilə oxucu arasında keçilməz maneə yaradırlar və bilərəkdən oxucunu özlərindən təcrid edirlər." Uzaqlaşdırma, təcrid etmə hardasa həm uzaqdan baxışın labüdlüyü, həm də niyyətin işarələr içində "gizlədilməsi"nə xidmət edirdi.

Kəsin eyşi-nuşi, gələnlər, susun!
Dumandan yorğanı, döşəyi-yosun.
Bir yorğun pəri var, bir az uyusun,
Uyusun dağların maralı Göy göl!
Dolanır başına göydə buludlar,
Bəzənmiş eşqinlə çiçəklər, otlar,
Öpər ayağından qurbanlar, otlar
Ayrılıq könlünü qıralı, Göy göl!

Əhməd Cavadın 1915-ci ildə yazdığı "Nə gördümsə" şeirində bu mənzərə daha da konkretləşir. Şeir nağıl dili və üslubuyla başlayır. Bir quş oldum, çıxdım yola // getdim gördüm dost elində // nə bir səs var, nə bir layla. Ancaq tezliklə bu "yüyrək dilinin altındakı qüssə lay-lay görünür. Belə getsə // o dağlarda// illər keçər, çiçək bitməz/-/o dağları duman basmış//duman getməz//yaman getməz. Əhməd Cavad naləsi, onun poetik idealı xalqın bağrının başından qopduğu üçün bədii mətndə keçmiş və gələcəyi kədərin aşıb-daşdığı yerdə düyünləyir. Keçmiş və gələcəyin mətnləri ilə virtual əlaqələr bu bədii parçanın informativ yükünün, əslində, elə dağlar qədər ağır olması fikrini təsdiqləyir. Abbas Tufarqanlının "Duman, gəl get bu dağlardan // dağlar təzə bar eyləsin// nə gözlərim səni görsün, //nə könlüm qubar eyləsin..." misraları Əhməd Cavadın içdən gələn səsinə qoşu-

laraq Azərbaycan adlı məmləkətin, qarı düşmən əliylə ikiyə bölünmüş yurdun gələcəyini – kədərini, dərdini, sevincini, ümidini.. eyni həssaslıqla ifadə edir. Cümhuriyyətin yarandığı ərəfədə elə Şimali Azərbaycan da düşmən əhatəsində bölünmüş vəziyyətdə idi. İngilislərin "təkidi" ilə İranın ərazi iddialarından əl çəkməsi və digər hadisələr məmləkətin sərvətlərinə və torpağına iddiası olan "vektorlar"ın nisbətən geri çəkilməsinə, "susub yatmasına" səbəb olsa da, iştah diş altında qalmışdı və – həm super güclərin "kiçik xalqların dövləti ola bilməz" iddiası, həm də bu kiçik ərazidəki yatırın göz qamaşdırması bütövlükdə dövlət quruculuğunun hansı çətinliklərdən keçməsini təsdiqləyən faktordur. Təssəvvür edin, Cümhuriyyətdən əvvəl və sonra Əhməd Cavadın mətləbindən asılı olmayaraq yazdığı şeirlər indi XXI əsrin əvvəllərində ən müxtəlif oxu üçün şərait yaradır, keçdiyimiz və keçəcəyimiz yolları açıq-aydın göstərir, ancaq sovet dönəmində qələmə alınmış ən güclü poetik nümunələr elə oturduqları qəlibdə susub qalırlar. Adı çəkilən şeirində "Bir dul gəlin könlü coşmuş // yol göstərin, hanı yarı//Oğlan çıxmış dönməz yola// nə nəşi var, nə məzarı" misraları və 1917-ci ildə yazdığı digər şeirində

Dəniz dərdə düşər, dalğalar ağlar,
Dağlar dərdə gəlsə, dumana yazıq!
Sənsiz öz elində qərib kəsilib,
Durnalardan xəbər umana yazıq!
Bir quş oxur bizə sabah əzanı,
Çağırmaqda yola yoldan azanı,
Ərənlər söyləyin Allah yazanı,
Duymadan yox olan imana yazıq!
Gün batanda sarı bulud sarısı
Söylər, sizə düşmüş dərdin yarısı.
Ay elin xanımı, qızı, qarısı,
Əl açmış düşmana bacılar, yazıq!

Xalqın yaddaşında və qəlbinə həkk edilmiş ağrı, dərd, tale şırımlarında oturuşmuş baxışların pərdəsini qaldırır, insanların taleyini onların qəlbində, ruhunda iz salan bədii mətnlərlə dialoqa girib onlarla dilləşməklə göstərir. Vaqifin və Zakirin "Durnalar" şeiri bu bədii mətnin fəzasında anidən görünür və yox olur, poetik mətnin içində bu söz-ifadə ən müxtəlif yaddaş laylarını yarıb keçməklə keçmiş əyyamlarda mətnlərin ifadə etdikləri mənaları dəyişdirir, onları bu günün ağrı və acılarına yönəldir.

Bir daha qeyd edək ki, cümhuriyyət məfkurəsi ideyalardan doğur. Müstəqil yaşamaq, kölə olmamaq inadından meydana gəlir. Cümhuriyyət məfkurəsini bədii mətnlərdən izləyəndə, özü də sistemli və ardıcıl şəkildə, – hansı nəticə və qənaətlər alınır? Şübhəsiz ki, hadisə bütün yönləriylə: hardan güc alması, nələrlə uğraşması, millətin həyatını hansı mühüm nəsnələrlə zənginləşdirməsi... hər şey metaforik şəkildə olsa belə, görsənir, ancaq bədii mətnin əsas təyinatı işarə edib göstərməklə bitmir. Öz dili və daxili intonasiyası ilə bir ixtiyari məqamı "doğrayıb" onu əsas hadisələr sırasına gətirib təzahürün bədii dərkini ortaya qoyur. Şeirdə indi və bu an verilən suallar gələcəkdə, bizim bu günümüzdə taleyin tarixçəsinə çevrilir. Əhməd Cavadın şeirlərində olduğu kimi. Bu şeirlərdə vəsf qatı, necə deyərlər, "sürüşkəndir", məqsəd oxucunu təsirləndirməkdən çox onun yaddaşına "yazılmaqdır".

Mədəni təməl inkarolunmaz faktordur, bu olmazsa, dövlət, dövlət sınırları içində hürr yaşamaq ideyası meydana gəlməz, çünki məhz bu faktor özündə müxtəlif ideoloji yönləri birləşdirir. Millət, xalq köləliyin nə qədər alçaldıcı olduğunu dərk edəndən bəri onun şüurunda istiqlal arzuları yetişir, bu arzular bədii düşüncəni formalaşdırır, ənənədə mövcud olan düşüncə qatı istiqlaliyyət toxumları ilə zənginləşir.

Çar Rusiyasının dağılması tarixin verdiyi bir fürsət idi. Bu fürsətin xalqın xeyrinə dövlətin yaranması ilə nəticələnməsi üçün xalqın bir neçə suala dəqiq cavab verməsi lüzumu yaranmışdı. Bizə nə lazımdır? Biz kimik və nə istəyirik? Cümhuriyyət məfkurəsinin formalaşmasını geniş və konkret çərçivədə götürüb dəyərləndirmək olar, yəni Azərbaycan Cümhuriyyəti məfkurəsinin toxumlarını ona yaxın keçmişdə – XIX əsrdə axtarmaq lazımdır. Əgər adı keçən dövrdə bunu ayrı-ayrı fərdlər, deyək ki, Axundzadə və ya Zərdabi fərd kimi icra edirdilərsə, yeni mərhələdə – XX əsrin əvvəllərində həmin təklərin mübarizəsi bir böyük nəsil yetişdirmişdi, bunlar əməl və əqidə insanları idilər. Onların hər birinin gördüyü işlər həm də gələcəyə ünvanlanmışdı. Firudin bəy Köçərlinin "Azərbaycan türklərinin ədəbiyyatı" kimi. Axundzadənin "müasirləşmək konsepsiyası" bu mənada ciddi şəkildə araşdırılmalıdır. Bəzən bir böyük şəxsin yaradıcılığı insanlara bütün yönləriylə, daha doğrusu, mahiyyətcə aydın olmur və ona qarşı "tənqid kampaniyası" illərcə davam edir. Diqqət edin: Azərbaycan dramaturgiyasını əvvəllər ümumi tərəqqi problemi məşğul edirdisə, XX əsrin əvvəllərində bütün diqqət məişətə yönəldi, bu, baxışın daraldılması mənasına gəlmir, əksinə, problemi ən ağrılı

yerindən göstərmək lüzumundan qaynaqlanır. Daha sonra, Cəlil Məmmədquluzadənin, Cavidin və xüsusən Cabbarlının dramaturji yaradıcılığı cəmiyyətdə gedən prosesləri qlobal problemlər kontekstində göstərmək lüzumi ilə aşılanır. Yəni bir tərəfdən, məsələn, N.Vəzirovun komediyalarında məişət bütün ağrılı nöqtələriylə, ümidsiz hallarıyla diqqət mərkəzinə çəkilir, digər tərəfdən "Ölülər" və "Dəli yığıncağı"nda, daha sonra Cabbarlı yaradıcılığında dünya səhnəsində, daha geniş planda oynanılır. Bir neçə sənətkar var ki, onların yaradıcılıqlarının cümhuriyyət yaranana qədərki etapı cümhuriyyət məfkurəsini öyrənmək baxımından vacibdir.

XX əsrin əvvəllərində, yadelli işğalçıların niyyətləri gerçəkləşməzdən öncə bu məmləkətdə əqidə və məfkurələrin toqquşması, amansız mübarizəsi gedirdi. Bu mənada cümhuriyyət məfkurəsinə yolu açmaq üçün Mirzə Ələkbər Sabir məsələsi yetərincə öyrənilməlidir. Sabir ədəbiyyatın, bədii düşüncənin ictimai şüura müdaxiləsini sürətləndirdi, bir şairin dediyi kimi, Sabir "narahat Şərqin zəlzələlər mərkəzi"nə çevrildi. Dünyada gedən proseslər, dünya siyasi xəritəsinin yenidən cızılması, nəhəng imperiyaların əsasından laxlaması... bu gözlənilməz hadisələr bütün dünyada artıq oturuşmuş təsəvvürləri radikal şəkildə dəyişdirdi. Sabir yaşadığı, dərdləriylə nəfəs aldığı məmləkəti qlobal müstəvidə görür, şeirlərini bu baxış bucağından qələmə alırdı. İran şahının axmaq hərəkətlərinə həsr elədiyi şeirdə dövranın necə dəyişməsi, köhnəliyin məmləkətləri haralara sürükləməsi aydın görünür. O həm də belə bir böhranlı zamanda köhnəliyi "qucaqlayıb" yerindən tərpənməyən ölkə və dövlətlərin bir an içində yanıb külə çevrilmək, xalqlarını bədbəxt etmək perspektivini də açıb göstərirdi. Əsr mürəkkəb idi, onun içində ən mürəkkəb ideoloji istiqamətlər baş-başa gəlir, ayrılır, dünyanın siyasi xəritəsinin üzərindəki rənglər göy üzünü bürüyən tufan öncəsi qara buludlara bənzəyirdi. Sabir təkcə şeirin, poeziyanın dilini, intonasiya və ideologiyasını dəyişmədi, həm də bədii ədəbiyyatın ictimai şüura nüfuzunun miqyasını dəyişdi və beləcə dünyanı, gerçəkliyi dərketmənin sınırlarını genişləndirdi.

Gördüz ki, necə sizləri təqib elədim mən!
Baqqal balasın leşkərə sərtib elədim mən!
Atəşlə yaxıb məclisi təhrib elədim mən!
Quranı danıb, andı da təkzib elədim mən!
Sövgənd nədir, əhd nə, fərman özümündür.
Şövkət özümün, fəxr özümün, şan özümündür!
Osmanlıda gərçi ucalır bir para səslər!
Alqışlayır o səsləri hər qırmızı fəslər!
Qəm çəkməyin, ey köhnələr, ey köhnəpərəstlər!
İranıma təsir edəməz böylə nəfəslər!
Bundan sonra bu ölkədə meydan özümündür!
Məhluq özümün, hancarı bürran özümündür.

Romantik şair Məhəmməd Hadi isə yazırdı:

...Qoymuş miləl imzasını övraqi-həyata,
Yox millətimin xətti bu imzalar içində...

XIX əsrin ortalarından yaranmağa, təşəkkül tapmağa başlamış maarifçi düşüncə, şübhəsiz ki, siyasi düşüncə deyildi, onunla yoğrulmamışdı və belə olduğu üçün konkret məsələlərin qoyuluşu və həlli ilə məşğul ola bilməzdi. XIX əsrin sonu, XX əsrin əvvəllərinə, məsələn, 1907-ci ildə "bizə hansı elmlər lazımdır: dini, yoxsa dünyəvi" təriqində aparılan müzakirələrin kitab halında nəşrinə qədər ictimai düşüncədə istiqamət ümumidən konkretə, xüsusiyə doğru gedirdi.

Cümhuriyyət öncəsi və sonrası ədəbiyyatı necə səciyyələndirmək olar? Məsələn, Cəfər Cabbarlı yaradıcılığını. Tədqiqatçılar bunu cümhuriyyətin yaranmasına hazırlıq kimi dəyərləndirirlər. Düzdür, ancaq tam deyil.

M.Ə.Rəsulzadə milli azadlıq yolunda əldə edilən müvəffəqiyyətlərin qazanılmasında bədii ədəbiyyatın rolunu belə dəyərləndirir: "Azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur". O, "Qurtuluş günü" məqaləsində yazır: "Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər, millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz".

Firudin bəy Köçərlinin "Ədəbiyyat tarixi" cildləri də missiyası etibarı ilə nəhəng iş idi; hardasa köhnə şablonlar üzərində qələmə alınsa da, Firudin bəyin əsərini Lütfəli bəy Azərin və digər təzkiraçilərin mətnlərindən fərqləndirən bir mühüm cəhət məsələyə yanaşmanın elmi-metodoloji xassəsi idi, müəllif təsvir-təzkirə cığırıyla hərəkət edib gələcəkdə yaranacaq ədəbiyyat tarixlərinin konsepsiyasız yazıla bilməyəcəyini fakt kimi ortaya qoyurdu. Köhnəyə, köhnə təsvir və təqdim üsullarına çox fərqli, onu kökündən inkar edən metodla yanaşdıqda keçmişin bütün uğurlu və sağlam elementləri yeni yanaşmada iştirak edir və onun daha da dolğunlaşmasına şərait yaradır. Firudin bəy Köçərli əsərinin "Başlanğıc" hissəsində sanki bunu demək istəyirmiş kimi yazırdı: "...nə qədər bir qövm və tayfa elmsiz və mərifətsiz olsa, bir o qədər onun ədəbiyyatı zəif və biməzmun olacaqdır. Hətta çox tayfalar vardır ki... ədəbiyyat nə olduğunu bil-

məzlər... Bunlar dünya üzündə çox müddət yaşamayıb puç və zay olurlar. Tərəqqi və səadət fikrində olan və əbədi zindəganlıq arzusuna düşən qövm və millət gərəkdir ən əvvəl öz ana dilinin vüsət və qüvvət tapmağına səy və himmət göstərsin və ədəbiyyati-milliyyəsini asari-nəfisə və təsnifati-məmduhə ilə zənginləşdirsin".

Yeni bir insanın, yeni, tam fərqli təfəkkür sahibinin ani toxunuşuyla keçmiş dəyişir, təzələnirdi, insanların qəlbində mənsub olduğu millətin qoyub getdiyi irsə sonsuz sevgi yaranırdı. Və bu məqamda keçmişə qayıdışla ondan biryolluq ayrılma, vidalaşma eyni anda baş verirdi. Keçmişin gözəl, türfə şeylərini bağrına basıb, onu vətəndə qürbətdəki kimi yaşadan adətlərdən uzaqlaşdırma cəhdləri epizodik cəhətlər deyildi. Hələ Abbas Səhhət...

"Yazmısan tazə nə şeylər?" – deyə sordun məndən,

Ruhumun tarına mizrabçən oldun, qardaş!
Sabir ilə belə məktubu çox aldıq səndən,
Hər nə yazdıqsa, ona bani sən oldun, qardaş!
Bir zaman Nasehü Tərrah ilə Sabir, bəndə,
Yaşayırdıq hamımız qəflət ilə fərxəndə.

Birimiz mərsiyəguluqda böyük şair idi,
Birimiz sağərə mail, birimiz cananə.
Birimiz həcvdə Yəğma kimi çox mahir idi,
Laübalı keçinirdi günümüz rindanə.
O pərişan yuxudan sən bizi bidar etdin,
Doğru, düz yolda çalışmaqlığa vadar etdin.

Hər bir işi, fəaliyyəti ilə insanlara təsir etmək, onları illərin ağır yuxusundan "bidar etmək" məqsədini qarşısına qoyan maarifçi bu istiqamətdə ən kəsərli vasitələrdən istifadə edirdi. Abdulla Şaiq də elə bu xassəni qabardırdı: "... bizim el ədəbiyyatımız o qədər vüsətlidir ki, yazmaqla qurtaracaq şeylərdən deyil. Millətimizin istedad və məharəti – fitrilərinə və əhvali-ruhiyyəsinə aşina olmaq istəyənlər möhtərəm Firudun bəy Köçərlinin "Balalara hədiyyə" kitabçasından istifadə edə bilərlər. O, camaatımızın arasındakı nağıl, məsəl, tapmaca və şeirləri bir yerə toplamaqla körpələrimizə böyük hədiyyə etmişdir". Ancaq sitatda deyildiyi kimi, bu, təkcə körpələr üçün bir hədiyyə deyildi. Bu kitab daha böyük bir yolun-məqsədin ilkin cığırı-pöhrəsi rolunu oynayırdı. Firudin bəy Köçərli bütün bu müxtəlif istiqamətlərə şaxələnən, ancaq bir malada birləşən marşrutda bu suala cavab axtarırdı və cavab verirdi: "Əsl ədəbiyyat necə olmalıdır? Daha doğrusu, indi, onun "Ədəbiyyat tarixi materialları"nı, ədəbi prosesdən, onun simalarından və hadisələrindən bəhs edən müxtəlif məqalələrini nəzərdən keçirdikdə, alimin hər bir addımıyla "müasir ədəbiyyat" kateqoriyasını bəllədiyinin şahidi oluruq. O, əslində, daha çox çağdaşı olduğu ədəbiyyatdan yazsa da, keçmişlə bu günü-ənənə ilə müasir təfəkkür tərzini vahid plan daxilində götürürdü. Bu cəhət onun "Ədəbiyyat tarixi"nin unikal xüsusiyyəti idi və Firudin bəyə qədər heç bir təzkirədə və bu tipli yazılara rastlanmamışdı. Firudin bəy Köçərlinin "Ədəbiyyat tarixi" daha çox, belə demək olarsa, Mendeleyevin cədvəlinə oxşayırdı. Ümumi sxemi qurursan, strukturu bəlləyirsən, gələcəkdə sənin boş qoyduğun yerlər lazımi məqamlarda dolur, həm də müvafiq valentlik xüsusiyyətləri ilə. Valentlik kimyəvi elementin birləşmə gücüdür, Köçərlinin "cədvəlindəki" mətnlər də məhz belə bir xüsusiyyətə malik idi, onlar keçmiş və gələcəyin mətnlərini, həm də ana dilinin saflıq və gözəlliyini hifz edən mətnlərini özünə çəkir, onlardan bütövlük təsəvvürü yaradırdı. Keçmişin ədəbi mətnləri, bu günün ədəbi prosesinin hadisələri bir sabit, bəzən də müəyyən hissəsi gizli halda olan dəyər daşıyır, Firudin bəyin fikrincə, tədqiqatçı bu dəyəri aşkarlamalı, onun xassəsini elə usta şəkildə ortaya qoymalıdır ki, əsərin və müəllifin qayəsi, bütövlükdə mətnin tərcümeyi-halı boyaboy görünə bilsin. Onun Puşkin və Tolstoy haqqında müqayisələri bu baxımdan lap yerinə düşür. Ədib çox incə detallardan istifadə edərək yazırdı ki, təbi (talantı, ilhamı...) etibarıyla Puşkinin dühasını durbinə, Qoqolun dühasını isə zərrəbinə tay tutmaq mümkündür. Durbin uzağı yaxın edir, uzaqlardakı bütün incəlikləri yanına, əlinin altına gətirir. Zərrəbinsə yaxındakı ən nöqtəvi şeylərin belə his və pasını göstərir. Firudin bəy Köçərli filoloji yanaşmada, fikrimizcə, bu iki üsulun vəhdətinin nəzərə alınmasının tərəfdarı idi. Ona görə də materiallarda təqdim etdiyi şair və yazıçıların bioqrafiyasından tutmuş, əsərlərinin təhlilinə qədər yalnız ən incə, yalnız zərrəbin altında görünə bilən xüsusiyyətləri qələmə alırdı. Bütün bu hərəkətləri ilə Firudin bəy Köçərli "müasir ədəbiyyat kateqoriyası"nın nəzəri sxemini qururdu. Sovet dövründə və müstəqillik illərində yazılan ədəbiyyat tarixlərində məsələyə belə kateqorial yanaşma məhz Firudin bəydən qaynaqlanır. Yəni "...Əsl ədəbiyyat həyati həqiqətləri əks etdirməklə yanaşı, cəmiyyəti, xalqı qabaqcıl ideyalarla silahlandırmalıdır, onun azadlıq mübarizəsinə kömək etməlidir: həqiqi şair, millət və Vətən yolunda canlar fəda etmək lazım isə, Vətən oğlanlarının ürəyinə yandırıcı od salıb, onları hər qisim fədakarlığa və cannisarlığa şövqmənd etməlidir".

BU GÜN

ÇOX XOŞBƏXTƏM

Arzu MURAD

İşlədiyi uzun zaman ərzində ilk dəfə rüşvət almışdı, bu da ona haqq qazandırırdı ki, evdə olan bütün içki şüşələrini yanına düzüb boşaltsın. Tam dörd il öncə də ona bahalı hədiyyə verilmişdi, amma vəzifəsinə müdaxilə olunmamışdı deyə, o, bunu rüşvət olaraq düşünməmişdi. Bir tərəfdən də başının üstündə onu tənbeh edən qardaşı sinirlərini pozurdu:

– Müdir adamdır, nə işin var axı onda? Arada bir özünə baxırsan? O kim, sən kim? Sənin harana yaraşır müdirə səhv olduğunu demək? Axı özünü nə hesab edirsən? Ağzından çıxardığın sözlə şalvarın heç bir-birinə uyuşurmu? – deyə qardaşını tənbeh edən Faiq ona düzgün yolu göstərməyə çalışırdı. Əlbəttə ki, Arifin bütün bunları bilməyə ehtiyacı vardı. O bilmirdi ki, işlədiyi yerdə müdirin üzünə qayıtmaq olmaz, hətta bacardığı qədər müdirin o yan-bu yanına keçməlidir. Əksi onun işsiz qalmasını göstərən işarədir. Çox təəssüf ki, bunları ona öyrədən olmamışdı, yoxsa, əlbəttə ki, o da bütün bunları bacarardı, hətta hər kəsdən yaxşı bacarardı. O heç bəzi həqiqətlərin danılması gərəkdiyini də bilmirdi, necə də gülüncdür. Əgər o bütün bunları bilsəydi, təbii ki, səfillikdən ölən iş yoldaşının ölümündə günahı olduğunu müdirə xanımın üzünə vurmazdı. Arif bilməliydi ki, belə sözlər həqiqət olanda müdirlərin qəlbini daha çox incidir. Danılmaz həqiqətlər insanları böyük uçurumlara sürükləyir. İndi Arif də bundan belə acından ölən iş yoldaşı kimi ya gecələr aclıq qoxusuyla yatıb, səhərlər mədəsinin səsinə oyanaraq əzrayılını gözləməli, ya da bütün çətinliklərə güc gəlib "gözəl günlər görəcəyinə inamını itirməməli" idi.

Faiqin dedikləri Arifin eyninə də deyildi. Onu müdirə xanımın etibarından çox deputat xanımın etdiyi yandırırdı. O, hədiyyə alan əllərini məzəmmət edirdi. Budur, yenə ondan zəng gəldi, yenə deyəcək, yazının orasına düzəliş et, burasını sil, onu çıxar, düz alınmır, bunu qoy. Adam haqlı, o bahalıqda hədiyyə verib, təbii ki, qarşılığını almalıdır. Bütün bunların fövqündə bir yandan da Arif öz-özünə deyinirdi:

– Öl, Arif, bunların hamısı öz sarsaq utancaqlığının nəticəsidir. Verdiyi hədiyyəni yerindəcə qaytarmalı idin, yersiz tərəddüdlərindir indi barmaqlarını kəsən. Hədiyyənin qiymətinə bax, üç yüz iyirmi beş manat. Sənin başında heç yüz bit yoxdur. Yəgin, indi o da elə bilir ki, hədiyyə çox xoşuma gəlib, ona görə tula kimi qarşısında hərlənirəm.

Arifin ehtiyacı yox idi ki, bunu kimsə onun üzünə vursun, özü bütün həqiqətləri var gücüylə öz üzünə çırpırdı. Yadına salanda bədənini bürüyən istiliyi ilə özünü cəzalandırırdı. Hətta Faiqin hədiyyəni onun gözündə ucaltmaq çabaları da boşa çıxdı:

– Guya hədiyyəni qaytaracaqsan, nə dəyişəcək? Sən, deyəsən, doğrudan da, özünü bir zibil hesab edirsən. Beləsinin yüzünə verdiyi pul onun gündəlik cibxərcliyidir. Ağlın olsun, istəmirsən, ver mənə, bəd gündə pula çevirərəm.

Arifi məyus edən həm də o idi ki, heç doğmaca qardaşı da onu anlamırdı, elə bilirdi, hədiyyəni bəyənməyib, amma düşünmək istəmirdi ki, əslində, Arifin bəyənmədiyi, hədiyyənin verilmə

məramı idi. Cavabsız zəngin ardıyca bir zəng daha, sonra yenə bir zəng daha. Nə qədər qaçacaqdı Arif bu zəngdən? Əvvəl-axır cavab verməli idi. Ürəyindəki bütün gileylərini onun üzərinə yağdıracaq, əsl niyyətini anladığını üzünə yağlı sillə kimi vuracaqdı, amma hələ ki uyğun zamanı deyildi. Yaxşı olardı ki, bu barədə heç bir söhbət açmayıb özünü axmaqlığa vursun.

– Bəli, Fəridə xanım, salam, çox minnətdaram, siz yaxşı olun. Bəli, dediyiniz bütün məqamlara düzəliş etdim, narahat olmayın. Mən də istəmərəm ki, sizin cəmiyyətdəki mövqeyinizə xələl gəlsin. Aha, oldu, onu da düzəldərəm. Göndərirəm, özünüz də oxuyub düzəlişlərinizi edərsiz – bu sözlər üzünə tüpürcək kimi yapışırdı. İlahi, necə də məhkum idi onun qarşısında əzilib-büzülməyə. Qardaşı getsəydi, doyunca ağlayar, özünü söyərdi. Siqaret qutusu boş, içki şüşələri boş, mədəsi boş, qardaşının da ki görməmişlikdən doğan dır-dırı lap sinirlərinə təpirdi. Belə məqamlarda normal insanın ağlına nə gələrsə, Arifin də ağlına eynisi gəlmişdi. Düşünürdü ki, onsuz da o hədiyyənin bədəlini ödəmişəm, bəlkə, qaytarmayım, bundan da pis günüm olmayacaq ki. Qürurunun səsi mədəsinin səsini batırdı. Qəfil yerindən qalxıb cibindəki pulları saydı, nə az, nə çox, cəmi doqquz manat səksən qəpiyi vardı. Başladı hesablamağa: bir qutu siqaretim, bu elədi iki manat iyirmi qəpik, çörəklə pomidor-xiyar edəcək iki manat, qaldı beş manat altmış qəpiyim. Bir manatla da o başa, bu başa, yerdə qalan pul da həm ölümə, həm dirimə bəsdi. Maaşa qədər zəhrimara pul vermərəm, uzağı kimsə qonaq etsə, fürsətdən bəhrələnərəm. Oturub qəpik-quruş saydığına görə özündən çimçişirdi. Deyəsən, bayıra çıxıb bir az hava almağa ehtiyacı vardı. Axşamdan əynində qalıb iylənən paltarlarını çıxarıb fərqli bir şey geyinmək istəyirdi ki, deputat xanım onun geyiminə baxanda o hədiyyəyə ehtiyacı olmadığını anlasın. Qapıdan çıxanda səhərə qədər başını balınca çırpmaqdan vız olan saçlarını güzgüdə görməsəydi, elə də çıxacaqdı. Bir də neçə gündür ona göz dağı olan "hədiyyə"ni də özüylə götürdü. Qardaşına güvənmirdi, bilmirdi ondan nə gözləsin. Qayıdanda bu hədiyyəni yerində tapmaya bilərdi.

* * *

Yolda öz-özünə hey düşündü, harda səhv etdiyini, hansı hərəkətinin yersiz olduğunu anlamağa çalışırdı. Bilmək istəyirdi ki, o qadın hansı məqamda bu boşluğu duyub? O nədən bu qənaətə gəlib ki, mənə o hədiyyəni vermək olar? Bəlkə, günah heç o qadında yox, mənim dırnaqarası həmkarlarımdadı? Yəqin, bir-ikisinə verib, onlar da quyruğu yanmış tula kimi qəbul ediblər.

Yolda olduğu zaman da Fəridə xanımdan zəng gəldi. Bu dəfə artıq Arif özünü əla ala bilmədi, dəstəyi qaldırıb onu sancan qurdları içindən tökməli idi:

– Yenə nəyi düzəltməliyəm, Fəridə xanım? Verdiyiniz o zəhrimara qalmış hədiyyənin qarşılığı nə vaxt bitəcək? O zənciri boynuma dolayıb itiniz kimi hara istəyirsiz, ora da fırladırsız. Axı o mərətsiz də sözünüzdən çıxamayacaqdım, gərək məni bu cür alçaldaydız? Sizdən gələn göstəriş dolu zəngləri görəndə özümdən iyrənirəm, axı niyə sizin üzünüzə yalandan gülməliyəm? – deyəcəkdi, amma adını bilmədiyi hansısa qüvvə ona güc gəldi. "Hər şeyin zamanı var" dedi və zəngə cavab verməyib yoluna davam etdi. Ruhu göynəyirdi, o an əlində iti nəsə olsaydı, boğazının altından sancıb aşağıya doğru çəkərdi.

– İşə bax, hələ durub mənimçün başqa jurnalistləri misal çəkib onların qələmini bəyəndiyini söyləyir. Elələrinin bəxti yaxşı gətirir, yazılarının hər cümləsində alacağı pulun miqdarını düşünən adamları həmişə öpüb gözlərinin üstünə qoyurlar, mənim kimi dingişləri, əlbəttə ki, it yerinə saymayacaqlar. Mənim gördüklərimi onlar görsələr, intihar edərlər, nəinki qələmə almaq. Sifətləri bərkdir, ona görə çörək yedikləri qaba batırmaq onlar üçün daha rahatdır, yazır, beş-üç

manatını da qatlayıb qoyur cibinə və ya Allah, səninki səndə, mənimki məndə. Bu, məndə alınmaz, yoxsa çoxdan kandarım qızıldan idi – öz üstünə qışqıra-qışqıra danışır, yol boyu da hər kəsin heyrət dolu gözlərini öz üzərində hiss edirdi, amma önəm vermirdi – rüşvət almış adam, deyəsən, yavaş-yavaş sırtıqlaşma mərhələsinə qədəm qoyur, artıq heç nədən utanmır. Əcəb də edir, bundan da böyük hansı ayıb iş onu utandıra bilər ki?!

Telefona cavab vermədiyini görən Fəridə xanım ona mesaj yolladı. Mesajdan bəlli idi ki, yazı işıqlanıb və Fəridə xanım olduqca məmnundur yazıdan. Mesajı oxuyan kimi Arifdən qəhqəhə qopdu, camaat da ona baxıb "dəlidir" qənaətinə gəldi. Sonra özü də düşünüb durdu:

– Deyəsən, mən, doğrudan da, dəli oluram. Axı milçəkdən fil düzəldən kimi bu məsələni niyə bu qədər şişirtdim? Rüşvətdir də, burda nə var axı? Bu dəqiqə də pulsuz salam alan yoxdur, nə olsun ki, dindirəndə hamısı rüşvət alanı pisləyir, di gəl ki, hər beş adamdan biri "çak-çuk" adıyla belə şeylərlə dolanır. Problem bunda deyil, sadəcə, mən ona var gücümlə inanırdım, belə bayağılıqlarla işi olmadığını zənn edirdim. Elə bilirdim bu həyatda hər şey onun gülüşü qədər təmizdir. Bəlkə, o bunu düşünmədən edib? Bəlkə, rüşvət deyə yox, həqiqətən hədiyyə olaraq verib? O mənim belə gicbəsər olduğumu hardan bilsin? Axı o hardan bilsin ki, mən belə şeylərə öyrəşməmişəm? Guya mən dürüst davranmışam? Mən də onu görməkçün müsahibəni bəhanə etmişəm. Yəni hesab heç-heçədir...

* * *

Danışa-danışa gəlib onun evinə çatmışdı, halbuki evdən mağaza adıyla çıxmışdı. Xatırlaya bilmirdi ki, yolda avtobusa minibmi, yoxsa bu boyda yolu piyada gəlib? Madam ki, bura qədər gəlib, demək, hədiyyəni qaytarmaq məqamıdır, amma bir çox səbəblərdən onunla üz-üzə gəlmək istəmirdi. Başlıca səbəb yenə çəkingənliyi idi. Ürəyində düşündüklərini onun üzünə demək cəsarətinə sahib deyildi hələ. Evdə olub-olmadığını bilmək üçün ona mesaj yazdı. Aldığı cavabdan çox razı qaldı: indilərdə evdən çıxıbmış. Özü evdə olmasa da, xidmətçisinin həmişə evdə olduğunu bildiyi üçün qapılarının zəngini çaldı. Xidmətçi qapını açanda əlindəkini ona uzadıb: "Bunu Fəridə xanıma çatdırarsız – dedi, – özü biləcək nə olduğunu".

Etdiyi hərəkətin qarşılığını gözləyirdi, heç olmasa "niyə?" sualını alacağına çox əmin idi, amma 3 gün gözlədikdən sonra bir cavab almadığını görüb özü yazdı:

– Problem nə sizdə, nə də sizin verdiyiniz o qutudadır. Problem məndədir, mən öyrəşməmişəm belə jestlərə, hədiyyə almalara, hələ bir vəzifə başında.

Bu mesajın ardıyca da səssizlik oldu, heç bir cavab almadı. Lakin özü o qədər rahat idi ki, sanki qəti vüqarıyla parlaq qələbə qazanmışdı. Daha bundan belə vicdanı rahat idi, gələcəkdə kimsə onu vicdansızlığına görə suçlamayacaqdı. O qədər xoşbəxt idi ki, az qala ürəyi partlayacaqdı. Bəlkə, bir neçə dəqiqədən sonra bu xoşbəxtliyi burnundan gildir-gildir tökülәcəkdi, amma olsun, ani fərəh də Arifdən yana böyük şey idi.

– Salam, mənə bir dənə zavod çörəyi, hərəsindən bir kilo pomidor-xiyar, həmişəki siqaretdən, bir də o balaca nemətdən ver, amma onu yaz nisyəyə. Bu gün çox xoşbəxtəm, içmək istəyirəm.

Luis Ferdinand Selin:

...O ZAMAN ÖLMƏYƏ HAQQIN ÇATIR

Fransız yazıçısı "Gecənin sonuna səyahət", "Ölüm və borc" kimi məşhur əsərlərin müəllifi Lui Ferdinand Selinin 1960-cı illərdə "Paris Reviev" jurnalı üçün verdiyi müsahibəni təqdim edirik.

– Sizə nədən danışım? Oxucularınızı necə məmnun edəcəyimi bilmirəm. Bu insanlara qarşı nəzakətli olmalıyıq... Bizdən inciməmək şərti ilə onları əyləndirməyimizi gözləyirlər. Yaxşı... Söhbətləşək.

Bir yazıçının içində o qədər də çox kitab yoxdur. Mənim üçün "Gecənin sonuna səyahət", "Ölüm və borc" kitabları yetərlidir.

Mən bu işə, yazıçılığa marağım ucbatından baş qoşdum. Marağın əvəzi isə ağır olur. Özümü tragediya tarixçisi hesab edirəm. Çox yazıçılar var ki, faciə axtarar, amma tapa bilməz. Ağıllarına faciə ilə əlaqəsi olmayan çox kiçik hekayələr gələr. İndi deyəcəksiniz ki, yunanlar necə olsun? Faciəvi yunanlar allahlarla danışdıqlarını hesab edirdilər. Əlbəttə, İsa Məsih də var... Allahlarla "telefon əlaqəsi" yaratmaq isə hər gün başımıza gələn hadisə deyil. Elə deyil?

– Elə isə sizin üçün bu günün tragediyası nədir?

– Stalinqraddır. O necə bir katarsisdir?! Stalinqradın çöküşü Avropanın bitməsidir. Bir fəlakət idi yaşananlar. Bütün bunların mərkəzi Stalinqrad idi. Bunun bitdiyini, ağ sivilizasiyanın tamamilə sona çatdığını söyləyə bilərsiniz. Mən baş verənlərin içərisində olduğum üçün özümə sərf edən hərəkəti etdim. Həmin vəsaiti istifadə edib satdım. Aydın məsələdir ki, bu kimi işlərə qarışdım. Yəhudi məsələsinə... Məni maraqlandırmayan işlər idi. Həmin işlərin içərisində olmaq üçün heç bir səbəbim yox idi. Ancaq yenə də onları öz üslubumla izah etdim.

– Yaxşı, sizin ifadə etmək istədiyiniz nədir?

– Duyğu. Bioloq Savyın gözəl bir sözü var: "Başlanğıcda duyğular vardı, hərəkət yox idi". Bir amöbə toxunsanız, o, geri çəkilər. Danışmasa da, hisləri var. Körpələr ağlayır, at qaçır. Hərəkət etmək isə yalnız bizə verilmişdir. Bir siyasətçini, bir yazıçını, bir peyğəmbəri yaradan budur. Hərəkət qorxunc bir şeydir. Onu iyləyə bilməzsiniz. Amma bu duyğunu danışdıra bilmək heç kimin təxmin edə bilməyəcəyi qədər çətindir... Çirkindir... Fövqəlbəşərdir... İnsanı öldürə biləcək bir hünərdir.

– Amma yenə də hər zaman yazmağa ehtiyac duyursunuz...

– Heç nə qarşılıqsız deyil. Baş verən hər şeyin əvəzini ödəmək məcburiyyətindəsiniz. Quraşdırdığınız hansısa hekayənin heç bir dəyəri

yoxdur. Dəyər daşıyan tək hekayə, əvəzini ödədiyinizdir. Ancaq əvəzini ödədiyiniz bir hekayəni dəyişdirməyə haqqınız çatır. O ki qaldı mənim yazmaq ehtiyacım… Mən işləyirəm. Bir müqaviləm var və onu yerinə yetirmək məcburiyyətindəyəm. İndi altmış altı yaşım var. Ömrümün yetmiş beş faizi ləğv olunmuş vəziyyətdədir. Bu yaşda olan insanların çoxu təqaüdə çıxıb. Mənim isə altı milyon borcum var… Yəni davam etmək məcburiyyətindəyəm. Hazırlıq mərhələsində olan daha bir romanım var. Yəni daima eyni iş… Dəvənin qulağı qədər xırda işlər... Roman sənəti bir az iplə ilmə işləməyə bənzəyir. Monastırlarla birgə yox olmuş ilmə sənətinə...

Romanlar, avtomobillərə, filmlərə, televiziyaya, şouya qarşı döyüşə bilməz. Qarnı tox, böyük döyüşdən xilas olmuş adam gecələr arvadının yanağına kiçik bir busə hədiyyə edib gününü başa vurar. Bununla da onun işi bitir.

– Pasaj Şuazeldə uzun müddət yaşadınız?

– Bəli, on səkkiz il. Orduya qatılana qədər. Orada yoxsulluq son mərhələdə idi. Hətta yoxsulluqdan da betər bir şey idi. Çünki yoxsulluqla da əylənmək, avaralanmaq, sərxoşluq etmək olar. Amma mən dediyim yoxsulluq sonu gəlməyən bir yoxsulluq idi. Kökü dərinlərə işləyən kasıblıq deyək... Qorxunc idi. Bütün həyatım boyunca qaynadılmış makaron yedim.

Anam köhnəlmiş krujevaları təzələməklə məşğul idi. Həmin krujevalara hopan qoxu uzun müddət qalırdı. Belə qoxulu əl işləri də satılmırdı. Qoxumayan xörək isə yox idi. Bircə yavan makarondan başqa... Bu səbəbdən də həmişə boşqab-boşqab makaron yeməli oldum. Bütün gəncliyim iyi olmayan xəmir və sıyıq yeməklə keçdi.

Pasaj Şuazeldəki evimizin mətbəxi ikinci mərtəbədə idi. Otağın bir şkaf qədər ölçüsü vardı. İkinci mərtəbəyə burulma pilləkənlə çıxırdıq. Makaronun qaynayıb-qaynamadığına baxmaq üçün tez-tez çıxmaq lazım gəlirdi. Dözülməz idi!

Anamın ayağı topal idi. Elə vəziyyətdə gündə iyirmi, iyirmi beş dəfə pilləkənləri çıxmaq məcburiyyətində qalırdı. Belə dözülməz bir həyat idi. Atam isə məmur işləyirdi. Anam krujevaları satıb qurtarandan sonra evə gələrdi. Onun ardınca da atam. Ah, ah, bu çox ağır yoxsulluq idi.

– Sizə təsir edən hadisə, yazı yazmağa vadar edən daxili partlayış keçirdiyinizi xatırlayırsınızmı?

– Xeyr, əsla! Mən əvvəlcə ədəbiyyata yox, tibb sahəsinə könül verdim. Bunu qətiyyətlə deyə bilərəm! Mənim üçün ədəbiyyatda hünərli insanlar Pol Moran, Anri Barbüs idi. Məhz onların ədəbiyyat üçün yaradıldıqlarını düşünürdüm.

– Uşaq vaxtı yazıçı olacağınız ağlınıza gəlməmişdi?

– Xeyr. Heç bir zaman. Əsla! Həkimlərə qarşı inanılmaz heyranlıq hissi duyardım. Həkimlik sənəti mənə fövqəladə təsir bağışlayırdı. Ehtirasım tibbi sahəyə yönəlmişdi.

– Elə isə uşaqlığınızda bir həkim sizin üçün nəyi ifadə edirdi?

– Pasaj Şuazeldən xəstə olan anama, atama baxmağa gələn bir adamı... Onun etdikləri həqiqi mənada mənim üçün işləməyi ifadə etmirdi. O zamanlar həmin həkim mənim gözümdə insan bədəninə təəccüblü şeylər edərək onları yaxşılaşdıran, sağaldan savadlı, möcüzəvi bir adam idi. Bu, mükəmməl bir hiss idi. Ovsunlayıcı təsir bağşlayırdı...

– Bəs bu gün bir həkim sizin üçün nə ifadə edir?

– Artıq həkimlər cəmiyyət tərəfindən xor görülür, hər kəs onlarla rəqabət içərisindədir. İndi həkimlərin əvvəlki hörməti də qalmayıb. Görünüşləri də benzin doldurma məntəqələrindəki işçilərə bənzədiyindən oradakı benzin dolduranlara çevrilməyə başlayırlar. Səhv deyirəm? Artıq deyə biləcək sözləri qalmayıb. Evdar qadınların belə tibbi kitabları var. Üstəlik, xəstəliklər də köhnə hökmlərini itiriblər. Sifilis yox, bel soyuqluğu yox, tif xəstəliyi yox. Antibiotiklər faciəni tibbin əlindən aldı. Buna görə artıq vəba xəstəliyi də yoxdur.

– Yəqin ki, həkimlik peşəsi kitablarınıza da təsir edən bəzi kəşflər, təcrübələr təqdim etmişdir?

– Bəli, bəli. Otuz beş il həkim işləmişəm. Təbii, bunun da bir mənası var. Gəncliyimdə çox ora-bura qaçardım. Çox pilləkən çıxdım, xeyli insan görüb, tanıdım. Bu təcrübənin mənə hər mənada kömək etdiyini söyləməsəm, olmaz. Amma tibbi romanlar yazmadım. Əsla. Bu, əcaib və darıxdırıcı bir iş olardı.

– Təbabətə olan sevgi çox erkən yaşda sizi ovsunladı. Ancaq tamam fərqli bir yolda davam etdiniz.

– Haqlısınız. Böyük bir mağazada satıcı kimi işə düzəlməyimi istədilər. Çünki heç bir şeyimiz yox idi. Ailəmin maddi vəziyyəti çox ağır idi. Görürsünüzmü, yoxsul gəlib, yoxsul da gedirəm.

– Ananızın sizin üzərində təsiri çox olub?

– Hər şeydən əvvəl, xarakterlərimiz eyni idi. Elə sərt və dözülməz bir qadın idi ki! Xarakteri vardı. Amma həyatdan zövq almağı bilmirdi. Daim kədərli, daim trans halında idi. Həyatının son dəqiqəsinə qədər işlədi.

– Sizə necə xitab edərdi? Ferdinand, ya Lui?

– Lui. Məni böyük bir mağazada, hoteldə, villada satıcı kimi görmək istəyirdi. Bu onun xəyalı idi. Atam da onun kimi düşünürdü. Çünki atamın ədəbiyyat təhsili çox uğursuz olmuşdu. Babam da həmçinin elə olub. Deyilənlərə görə, hər ikisi həyatda çox uğursuzluq yaşayıblar. Atam müəllimlik diplomu almağı çox istəyib. Amma bilik dərəcəsi yetərli olmadığından təhsilini davam etdirməliymiş. Lakin pulu olmadığı üçün oxuya bilməyib. Daha sonra isə atası rəhmətə gedib. Atam özü beş yetimə baxmaq məcburiyyətində qalıb. Bu səbəbdən də onlar mənim ticarətdə uğur əldə edəcəyimi fikirləşirdilər.

– Atanız nə vaxt rəhmətə gedib?

– 1932-ci ildə, "Gecənin sonuna səyahət" kitabım nəşr olunduğu il.

– Kitab çap olunmazdan əvvəl?

– Bəli. Onsuz da atam o kitabı sevməzdi. Üstəlik, məni qısqanırdı. Heç vaxt məni bir yazıçı kimi görmürdü. Elə mən də özümü yazıçı hesab etmirəm. Heç olmasa, bu mənada atamla eyni fikirdəyik.

– Bəs ananız kitablarınız haqqında nə düşünürdü?

– Kitab yazmağın təhlükəli, pis bir iş olduğuna inandığı üçün həmişə problem yaranırdı. Bunun sonunun çox pis olacağını düşünürdü. Çox tədbirli təbiəti vardı.

– Kitablarınızı oxuyurdu?

– Oxumadı. Oxuya bilməzdi. Əgər onları oxusaydı, çox bəsit olduğunu düşünərdi. Həm də ki, anam heç vaxt mütaliə etməyib. Kitab oxuyan qadınlardan deyildi. Əslində, özündən razılığı da yoxuydu. Ölənə qədər işlədi. Onun ölüm xəbərini həbxanada öyrəndim. Xeyr, xeyr, Kopenhagenə gedirdim. Xəbəri yolda almışdım. Qorxunc və iyrənc bir səfər idi. Amma bunu da unutmayın ki, hər şeyin sadəcə bir tərəfi iyrəncdir. Bilirsinizmi, təcrübə sadəcə onu əlində tutan insanı aydınlığa çıxaran sönük işıqlı fənər kimidir. Pay-

laşmaq olmaz... Mən də bunu özüm üçün saxlamalıyam. Məncə, danışa biləcəyin gözəl bir hekayən varsa, o zaman ölməyə haqqın çatır. O biri dünyaya qəbul olunmaq üçün hekayəni danışıb yoluna davam edərsən. "Ölüm və borc" əsərim simvolik olaraq bunu izah edir. Ölü olmağın mükafatını... Sözü keçənin uca tanrı yox, şeytan olduğunu göstərir. Təbiət iyrəncdir. İnanmırsınızsa, quşların və heyvanların həyatına nəzər yetirin.

– Həyatınız boyu nə vaxt xoşbəxt olmusunuz?

– Lənət olsun. Heç bir zaman. Xoşbəxt olmaq üçün yaşlanmaq lazımdır. Arzularımdan vaz keçmək üçün mənə çoxlu pul versələr, məst olaram. Çünki o zaman təqaüdçü olub bir yerə qaçmaq fürsətim olar. İşləmək məcburiyyətində qalmaram. Sadəcə, ətrafdakı insanları izləyərəm. Mənim üçün xoşbəxtlik dəniz kənarında yalnız və hüzur içərisində olmaqdır. Çoz az yemək yeyərdim. Hətta heç yeməzdim. Nə elektrik enerjisindən, nə də ki hansısa əşyadan istifadə edərdim. Bircə şam işığı kifayət edərdi. Şam yandırıb kitab oxuyardım. Daha sonra başqa insanların əzmlə ehtiraslarının ardınca qaçmalarını, ritmi yaxalamaq üçün bir-birlərini qonaq dəvət etmək yarışlarını, teatr tamaşasına bənzəyən həyatlarını izləyərdim. Bir zamanlar aralarında yaşadığım bu insanların həyatını görmüşəm. Əsl komediyadı! Onlar vaxtlarını belə keçirirlər. Birbirlərini təqib edərək eyni qolf klublarında, eyni restoranlarda görüşürlər.

– Keçmiş günlərə qayıtsaydınız, ədəbiyyatdan kənar olan zövqlərinizi həyatınızdan çıxarardınız?

– Qətiyyətlə bəli! Mən xoşbəxtlik axtarmıram. Sevinci hiss etmirəm. Həyatdan zövq almaq xasiyyətə, yeyib-içməyə bağlıdır. İnsan yaxşı şeylərlə qidalanmalıdır ki, günlər tez ötüb keçsin. Gözəl şeylər ye, avtomobillə gəz, qəzet oxu, qonaq qarşıla, yola sal, gəzintiyə çıx, bir də görəcəksən ki, gün sona çatdı. Axşam olan kimi də yıxıl yat. Və budur gün artıq sona çatmışdır. İnsan qocalanda gün daha sürətli keçir. Elə deyil? Gənclik dövründə gün bitməyəcək qədər uzun olur. Yaşlananda isə gün şimşək kimi sona çatır.

– Təqaüdçü olsaydınız, vaxtınızı necə keçirərdiniz?

– Qəzet oxuyub heç kimin məni görməyəcəyi bir yerdə gəzintiyə çıxardım. Burada gəzə bilmirəm.

– Niyə?

– Məni tanıyırlar. Görünmək istəmirəm. Bir liman olsa, gözdən itə bilərəm. Havrdakı göyərtələrdə heç kim sizin fərqinizə varmaz. Yaşlı dənizçidən, səfehlərdən başqa heç kimi görməzsiniz.

– Gəmiləri sevirsiniz?

– Ah, əlbəttə. Onların gəlişini və gedişini seyr etməyi çox sevirəm. Gəmilər, liman və mən. Elə xoşbəxt olardım ki... Gəmilər gəlib qayıdarlar. Amma bu baş verənlərin sizinlə heç bir əlaqəsi olmur. Heç kim sizdən heç nə soruşmaz. Sonra isə yerli qəzetlərdən birini oxumağa başlayarsınız. Yəni bu qədər sadə. Həyatım tamamilə başqa cür olardı.

– Nümunə götürdüyünüz, bənzəmək istədiyiniz insanlar oldu?

– Xeyr, çünki hamı mükəmməldi. Mən o qədər mükəmməl olmaq istəmirəm. Belə bir arzum yoxdur. Mənim istədiyim kimsənin vecinə almadığı bir qocaya çevrilməkdir. Siz dediklərinizi ensiklopediyalara daxil olan insanlardır. Mən bunu istəmirəm.

– Əslində, gündəlik həyatda qarşılaşdığınız insanları nəzərdə tutmuşdum...

– Xeyr. Xeyr! Onları daima başqalarına fırıldaq gələrkən görürəm. Əsəblərimi pozurlar. Özünə önəm verməmək kimi bir hissə sahibəm. Təmkinli və mütəvazi xasiyyət mənə anamdan keçib. Çox istərdim ki, insanlar məni tamamilə yox hesab etsinlər. İnizvaya çəkilmək üçün içimdə heyvani bir istək var. Bu elə bir yer olsun ki, insanlar oralara heç getməsinlər.

– Romanlarınızda eşq nə qədər vacibdir?

– Əslində, eşqdən bəhs etməyə heç bir ehtiyacımız yoxdur. Bir roman yazarı təvazökar olmağı bacarmalıdı.

– Zövq üçün yazırsınız?

– Elə sayılmaz. Pulum olsaydı, yazmazdım.

– Məhəbbətdən və nifrətdən yazmırsınız?

– Bəhs etdiyiniz bu duyğular, sadəcə, məni maraqlandırır, oxucunu yox.

– Müasirləriniz diqqətinizi cəlb edir?

– Xeyr. O qədər də yox. Bir zamanlar müharibədən qaçmaqlarının qarşısını almaq üçün onlarla maraqlanırdım. Necə oldusa, müharibəyə qoşulmadıqları halda sərxoş oldular. Mən isə həbs olundum. Onlarla məşğul olmağı bacarma-

dım. Əksinə, hər şeyi bir-birinə qarışdırdım. Məşğul olmalı insan yenə də özüməm...

– Son kitablarınızda hələ də sizi ifadə edən duyğular var...

– Nə baş verir-versin, özünüzü ifadə edə bilərsiniz. Bu o qədər də çətin deyil.

– Bu son kitablarınızda şəxsi heç bir şey olmadığına dair bizi inandırmaq istədiyiniz mənasına gəlir?

– Xeyr, şəxsi heç nə yoxdur. Bircə məsələ ola bilər ki, bu da həyatla oyun oynaya bilməməyimdir. İylənib çürümüş insanlara qarşı artıq müəyyən üstünlüyüm var. Çünki onlar davamlı olaraq həyatla oynaşırlar. Həyatla oynaşmaq isə yemək, içmək, gəyirmək, sevişmək deməkdir. Bunlar isə insanı günün sonunda ya heç kim, ya da tərbiyəsiz birinə çevirmək deməkdir. Mən isə oyunçu deyiləm. Bu da, əslində, mənə sərf edir. Nəyi seçməyi, nədən zövq almağı bilirəm. Ancaq çökmüş Roma imperatorunun da dediyi kimi, əsas məsələ fahişəxanaya getməkdə deyil, hesabı ödəməkdədir. Elə deyilmi? Mən ömrüm boyu fahişəxanalara getdim. Amma tez uzaqlaşdım. İçki içmirəm. Yemək yeməyi heç sevmirəm. Bunların hamısı axmaqlıqdır. Bircə həyatım var. Onu da yataraq, tənha qalaraq keçirmək istəyirəm.

– Həqiqi yazı istedadı olduğuna inandığınız yazıçılar kimlərdi?

– Önəmli dövrlərdə yazıçı kimi gördüyüm üç imza vardı. Pol Morand, Şarl Ferdinand Ramyü və Anri Barbüs. Bunlar həqiqi mənada yazıçıdılar. Onlar yazmaq üçün yaradılmış insanlardılar. Amma o biriləri elə deyillər. Allah eşqinə, hamısı saxtakardı.

– Yaşayan ən böyük yazıçılardan biri olduğunuza inanırsınız?

– Xeyr. Bu belə hesab olunmasın. Böyük yazıçılar... Mənim təyinlərə ehtiyacım yoxdur. Bunun üçün əvvəlcə ölmək lazım gəlir. Gərək öləsiniz ki, sizi də bir sinfə daxil etsinlər. Edə biləcəyiniz ilk iş ölməkdir.

– Sizdən sonra gələcək nəsillərin sizə qarşı ədalətli olacaqları ilə razılaşdınız?

– Aman, Allah! Əlbəttə, razı olmadım! Bəlkə də, o zaman Fransa deyilən bir ölkə də mövcud olmayacaq. Ya çinlilər, ya da barbarlar var olacaq. Mənim ədəbiyyatım, müdrikcə yaratdığım əhvalatlar hörgüsü, üç nöqtələrim onları qıcıqlandıracaq... Bu mümkündür. Ədəbiyyatdan bəhs edirsinizsə, mən işimi sona çatdırdım, deyirəm.

Bitdi... "Ölüm və borc" kitabından sonra deyə biləcəyim hər şeyi dedim. Belə baxanda o qədər də çox deyilmiş...

– Həyata nifrət edirsiniz?

– Düzünə qalsa, həyatı çox sevdiyimi deyə bilmərəm. Canlı biriyəm və cavabdehliyim olduğu üçün həyata dözməyə məcburam. Əslində isə tamamilə pessimist nəsli təmsil edirəm. Ümid bəsləmək lazım gəlirsə, mən heç nəyə ümid etmirəm. Özüm üçün mümkün olduğu qədər əzabsız ölüm gözləyirəm. Hamı kimi... Heç kim mənə görə əzab-əziyyət çəkməsin deyə, hüzur içində ölməyimi arzulayıram. Hətta mümkünsə, hər hansısa bir xəstəlikdən ölüm. Yoxsa özümü yorğunluqdan öldürəcəm. Belə daha rahat olardı. Ömrüm davam etdikcə yaşadıqlarım daha da çətin şeylər olacaq. Bir il əvvələ baxanda indi daha zəhmətlə işləyirəm. Gələn il bundan da çətin olacaq. Həqiqət budur.

Tərcümə etdi:
Samirə ƏŞRƏF

ZÜMRÜD

Reyhan YUSİFQIZI

Zümrüd sinfimizdə ən yaxşı şagird sayılır. Həmişə dərslərə hazırdır. Müəlliməmiz onu hey tərifləyir.

Zümrüd məndən bir parta qabaqda oturur. Hərdən əyilib dəftərinə baxıram – necə də səliqəli yazır!

Bəzən riyaziyyatdan tapşırıqları baxıb Zümrüddən köçürürəm. Bilir, amma heç nə demir – özünü görməməzliyə vurur. Bir dəfə mənə məsələnin həllini başa saldı, amma başa düşmədim. Yalandan başımı tərpədib "Bildim" dedim.

Bir şey xoşuma gəlmir: Zümrüd özündən yaman razıdır, heç vaxt heç nəyi bəyənmir. Bəlkə də, özündən razı olmaqda haqlıdır?

Dəftər-kitabını çox səliqəli saxlayır Zümrüd. Mənim kitabı yazdığımı görəndə mütləq irad tutur. O baxanda kitabı qəsdən yazıram.

Bir dəfə dəftərimi götürüb səhifələrə xətkeşlə haşiyə çəkdi: "Bu oğlanlar niyə belə səliqəsiz olurlar?" – deyindi. Onun belə sözlərindən heç xoşlanmıram. Özünü tərifləyəndə isə lap acığım tutur.

Görəsən, bütün qızlar belədir, ya tək Zümrüd?

Nə eləyirdimsə, Zümrüdün xoşuna gəlmirdi. Heç vaxt məni, ya kimisə tərifləməz, heç nəyə təəccüblənməzdi.

Bilsəniz, onu təəccübləndirmək üçün nələr eləmişdim…

Bərk yağış yağan gün məktəbin həyətində iri bir gölməçə əmələ gəlmişdi. Bu gölməçənin üstündən hoppandım – heç kim hoppana bilmədi, mənsə hoppandım. Hamı təəccübləndi, Zümrüddən başqa. "Nə olsun ki?" – dedi.

Birinci sinifdə oxuyan oğlanın topu ağacın başında ilişib qalmışdı, ağlayır, topunu istəyirdi. Hündür ağaca dırmaşıb topu endirdim. Uşaqlar mənə əl çalıb alqışladılar. Zümrüdsə dedi: "Əlbəttə, kömək eləməliydin. Axı o balacadır, ağaca çıxa bilmir".

Görürsən? Yenə məni tərifləmədi!

Onun xoşuna gəlmək üçün daha nələr eləmədim?

Kəllə-mayallaq dayanıb əllərim üstündə gəzməyi öyrəndim.

Əlimi ağzıma dayayıb uzun-uzadı fit çalmağı məşq elədim.

Topu ayağımda 40 dəfə çilədim. Zümrüd məni tərifləmədi ki tərifləmədi. Hər dəfə deyirdi: "Burda maraqlı nə var ki?"

Sinif otağımız birinci mərtəbədə yerləşir. Bir dəfə oğlanlarla mərc gəlib pəncərədən aşağı hoppandım. Zümrüd qaçıb bu barədə müəlliməmizə xəbər verdi. Direktorun otağında burnumu çəkə-çəkə danlandım. Üstəlik, valideynlərimi mək-

təbə çağırdılar. Ürəyimdə Zümrüdü necə yamanlayırdım, bir biləydiniz.

Bir həftə Zümrüdlə danışmadım. Özü yaxınlaşıb: "Sənə görə elədim. Elə bildim, ayağını sındırdın" deyəndə ürəyim yumşaldı. Sonra məni dadlı konfetlərə qonaq elədi, barışdıq.

Bu gün səhər Toğrul mənə kitab bağışladı: "Dəfinələr adası". Toğrul dostumdur, bazar günü kitab sərgisinə getmişdi. Bu əsəri çox sevdiyimi bildiyindən mənim üçün alıb.

Tənəffüsdə koridora çıxmayıb yerimdə oturdum. Kitabı çıxarıb oxumağa başladım.

– Afərin sənə! – Zümrüdün səsinə başımı qaldırdım. – Hamı koridorda qaçır, sənsə kitab oxuyursan! Təəccübləndirdin məni!

Güldüm. Çox xoşbəxt idim. Nəhayət, Zümrüdü təəccübləndirə bilmişdim.

MİSTER BEBBİC

Bir saatdan çox idi ki, Fərid kompüterin arxasında oturub oyun oynayırdı. Başı elə qarışmışdı ki, dünyadan xəbəri yox idi. Gah yumruğunu stola çırpır, gah da əllərini qaldırıb sevinclə qışqırırdı.

Birdən kompüter söndü. Fərid pərt halda yerində qurcalandı. Qalxıb getmək istəyəndə gözlənilməz bir hadisə ilə qarşılaşdı.

Otağın ortasında qəribə geyimli yaşlı bir kişi dayanmışdı. Onun iri alnı, düz çənəsi, dərin gözləri vardı. Döşəməyə dayadığı çəliyinə söykənmişdi.

Fəridin dili topuq çaldı:

– Siz… Siz kimsiz?

– Mister Çarlz Bebbic! – Qonaq nəzakətlə təzim elədi.

– Bebbic? – Fərid düşünüb-daşındı. Ağlına bir şey gəlmədi.

Mister Bebbic onun fikrə getdiyini görüb kömək etmək qərarına gəldi:

– Mən "kompüterin atası"yam.

Fərid təəccüblə kompüterinə baxdı:

– Necə yəni?

– Yəni ki, mən 200 il bundan əvvəl ilk kompüteri yaratmışam. Daha doğrusu, kompüterin sxemini qurmuşam.

– Hmm… – Yavaş-yavaş özünə gələn Fərid dil-ağız elədi. – Çox sağ olun, mister Bebbic! Böyük iş görmüsüz!

– İcazənizlə, cavan oğlan, adınızı öyrənə bilərəm?

– Fərid!

– Hə, Fərid! Əzizim Fərid! Mən heyrət içindəyəm. 200 il əvvəl kompüteri yaradanda mən onun bu qədər yayılacağını, hər kəsin stolunun üstündə olacağını heç ağlıma da gətirməmişdim.

– Bəli, mister Bebbic, – Fərid təsdiq etdi, – nəinki stolun üstündə, hətta cibimizdə də mini kompüter var.

– Oh! – Bebbic əlini alnına vurdu. – Mini kompüter? Demək, bunu da düşünüblər.

O fikrə getdi. Belə bir tarixi şəxsiyyətlə tanış olduğu üçün Fəridin qəlbi qürurla döyündü. Qonağa oturmağa yer göstərdi.

Mister Bebbic stula əyləşib ayağını ayağının üstünə aşırdı. Çəliyini dizinə söykəyib davam etdi:

– Bilirsinizmi mən kompüteri yaradana qədər nə əziyyətlər çəkmişəm?

Ailəmdən uzaqlaşmışam. Bütün pullarımı xərcləyib ac qalmışam. Küçə musiqiçiləri ilə dalaşmışam…

– Küçə musiqiçiləri? – Fərid soruşdu.

– Bəli! Bu avara musiqiçilər bütün günü mənim Londondakı evimin qarşısında oxuyurdular,

– alim əsəbi halda çəliyini yellədi, – mənə işləməyə mane olurdular. Mən pəncərəni açıb qışqıranda isə eybəcər səsləri ilə gülürdülər! Londonun bütün dilənçiləri məni təqib edirdi.

Fərid dahi ixtiraçıya acıdı – doğrudan da, o nə əziyyətlər çəkibmiş!

Bebbic günahkar adamlar kimi təəssüf etdi:

– Mən bəşəriyyətə xidmət göstərmək istədim… Mən kompüteri düzəltdim ki, insanlar uzun və zəhlətökən hesablamalara vaxt sərf etməsinlər. Bu qurğudan faydalanıb daha böyük işlər görsünlər. Ah, mən nə etdim?!

Fərid alimin qarşısına keçdi:

– Təəssüf etməyin, mister Bebbic! Yaxşı ki, siz kompüteri yaratmısız. Yoxsa biz…

– Mən insanları kütləşdirmişəm! – Bebbic onun sözünü kəsdi. – Onlar artıq kitab oxumur, heç nə öyrənmir, heç nə düşünmürlər. Kompüterdən yalnız əylənmək üçün istifadə edirlər. Belə olacağını haradan biləydim?

Fərid ancaq indi dahi ixtiraçının məyusluğunun səbəbini başa düşdü.

O, alimin qarşısında xəcalət çəkdi.

– Mister Bebbic, hər şey o qədər də pis deyil. Mən kompüterdə təkcə oyun oynamıram ki! Elektron kitablar oxuyuram, lüğətə baxıram, yemək sifariş edirəm… – Fərid yadına salmağa çalışdı. Daha nə desə, yaxşı olar?

– Doğrudan? – Bebbic sevindi.

– Bu gün başqa ölkələrə virtual səyahət etmək olur. Mən heç yerdə olmamışam, amma bir çox yerləri virtual gəzmişəm. Başqa ölkələrdə yaşayan dostlarım var. Onlarla sosial şəbəkələrdə danışıram. Kompüterin bizə faydası çoxdur.

Mister Bebbic ayağa qalxdı:

– Cavan oğlan, siz məni sakitləşdirdiniz. İnandım ki, mənim əziyyətlərim hədər getməyib. Buna görə sizə dərin təşəkkürümü bildirirəm.

O azca qabağa əyilib təzim etdi. Sonda dönüb gözucu kompüterə baxdı.

Ekran bir anda işıqlandı.

Fərid sevincək kompüterin arxasına keçdi. Peykdən çəkilmiş və yenicə yüklədiyi şəkilləri qonağa göstərmək istədi. Amma mister Bebbic artıq otaqda yox idi.

BÜLLUR VAZADA YASƏMƏN

Teymurla bir sinifdə oxuyuruq. Həm qonşu, həm də dostuq. Tez-tez bizə gəlir, oynayırıq. Mən də onlara gedirəm.

Evdə tək idim. Zəng vurub Teymuru çağırdım.

Əvvəl film izlədik. Sonra pazl yığdıq. Daha sonra xalçanın üstündə güləşməyə başladıq.

Birdən mənmi onu itələdim, yoxsa omu məni, axır ki, zərblə stola dəydik. Anamın dünən oxşaya-oxşaya büllur vazaya qoyduğu yasəmənlər stolun üstündən aşdı. Yasəmən deyirəm, heç vazanı demirəm: büllur vaza yerə çırpılıb çilik-çilik oldu, içindəki su isə güllərlə birlikdə döşəməyə dağıldı.

Bir dəqiqə sakitlik oldu - şaşqın halda dayanıb baxdıq. Udqunub dedim: “Bir azdan anam gələsidir. Yaman hirslənəcək...”

Teymur çiyinlərini çəkdi. Mən qaçıb döşəmə əsgisini gətirəndə onu qapıda gördüm. “Mən daha gedim, – dedi, – evdə narahat olarlar...”

Bah! Dosta bir bax! Məni bu halda qoyub qaçdı! Ayrı vaxt axşama kimi qalıb oynayırdı – heç evdə narahat olmurdular! Eybi yoxdur, borc olsun!

Saata baxdım. Anamın gəlməyinə bir saat qalmışdı.

...Süpürgə ilə büllurun qırıqlarını güllərlə birlikdə süpürüb zibil torbasına yığdım. Elə çox idi ki, elə bil bir yox, on vaza qırılmışdı. Sonra döşəməsilənlə yeri quruladım. Stolun üstünü də sildim.

Hər yeri yığışdırandan sonra boş stola baxıb fikirləşməyə başladım: güllərin yerinə nə qoysam, yaxşı olar?

... Anama qapını gülə-gülə açdım. Heç nə olmamış kimi üzündən öpüb çantasını əlindən aldım. Yumşaq çəkələkləri cütləyib qarşısında yerə qoydum.

– Oğlum! – Anam sevindi, – Balam böyüyüb, centlmen olub!

Otağa keçdi. Teymuru çağırdığımı bilirdi. Orabura baxıb: "Teymur hanı?" soruşdu.

– Gedib. Evdə narahat olacaqlarmış, – istehza ilə əlavə etdim.

– Dalaşmısız yoxsa?

– Yox, yox! Hər şey ok!

Susdum. Anam diqqətlə stolun üstünə baxırdı...

Albom vərəqində şəkil çəkib səylə rəngləmişdim: büllur vazanın içində yasəmənlər... Çərçivəyə qoyub stolun üstünə, büllur vazanın yerinə qoymuşdum. Şəkil gözəl alınmışdı. Anam da bəyəndi.

– Oğlum, nə gözəl çəkmisən! – O, şəkli əlinə alıb heyran-heyran baxdı. – Bunlar mənim gördüyüm ən gözəl yasəmənlərdir!

Gözlədim ki, anam büllur vazaya qoyduğu tər gülləri soruşacaq. O isə heç nə demədi. Üzümə gülümsəyib mətbəxə keçdi.

Görəsən, anam doğrudanmı güllərini unutmuşdu, yoxsa mənim xətrimə dəymək istəmədi? Əlbəttə, ona vazanı sındırdığımı deyəcəm, amma indi yox. İndi bu barədə danışmaq istəmirəm.

Bütün günü səssiz oldum.

Axşam Teymur anası ilə bizə gəldi. Əlində bir dəstə yasəmən vardı...

MƏN VƏ NƏNƏM

Mən nənəmin balasıyam – bunu nənəm deyir. Artıq böyümüşəm, II sinifdə oxuyuram, amma hələ də mən boyda oğlanı nənəm məktəbə aparıb-gətirir. Çünki anam belə istəyir. Atam da bu məsələdə anamın tərəfini saxlayır. Başqa uşaqlara qoşulub dərsə getmək üçün bir az da böyüməliyəmmiş.

Atam və anam axşam işdən qayıdana kimi mən evdə nənəmlə qalıram. Əslində, bir şikayətim yoxdur. Nənəmi çox sevirəm. Ağ saçlarını, qırış-qırış əllərini, sallaq yanaqlarını sığallayıb öpürəm tez-tez. O da məni çox istəyir, "canım sənə qurban" deyir. Yeməyimi, içməyimi verir, hər qayğımı çəkir. Bircə işi xoşuma gəlmir: nənəm bütün günü məni güdür. Elə bil ki, ayrı işi-gücü yoxdur.

Eyvana çıxıram, gözü arxamdadır.

Otağa keçirəm, qapıdan baxır.

Qapını örtürəm, pəncərədən boylanır.

"Nənə, bəsdir!" qışqırıram. Əlindən bezib şkafda gizlənirəm. Mənzili gəzib tələşlə məni axtarır: "Aqşin! Hardasan, bala? Allah! Bu uşaq necə oldu?" Ürəyim dözmür, gizləndiyim yerdən çıxıram.

İki gündür nənəmdən canım qurtarıb. Yox, ağlınıza başqa şey gəlməsin – nənəm sağ-salamatdır! Amma mənimlə işi yoxdur. Niyə? Gəlin başdan danışım.

Neçə vaxt idi evdə telefon davası eləyirdim – mobil telefonu deyirəm. "Uşaqların çoxunda var. Mənə də alın!" deyirdim. Anam razı olmurdu – telefon ziyan imiş! Ondan çıxan pis enerji beynimi xarab eləyərmiş! Onda niyə bütün dünya telefonla danışır?! Atamsa həmişəki kimi "Anan bilər. Anan icazə vermir" deyirdi.

Hə, keçən həftə bütün siniflə gəzməyə getmişdik – müəllimə aparmışdı. Kukla teatrının önündən keçəndə afişalara baxmağa başladıq. Bir də gördük ki, Lətif yoxdur – arxa partada oturan kürən oğlan. Çox qorxduq. Müəllimə soruşdu: "Lətifin telefonu var?" "Yox", – dedi uşaqlar.

Yaxşı ki, oralarda hərlənən iki polis nəfəri bizə kömək elədi – Lətifi tapıb gətirdilər. Müəllimə tapşırdı ki, gəzməyə çıxanda telefon götürün.

Yaxşı ki, Lətif itdi. Yox, elə bilməyin ki, mən pis uşağam, ya da Lətiflə aram yoxdur. Deyirəm, yəni yaxşı ki, Lətif itdi və sonra tapıldı. Buna görə mənə telefon aldılar.

Anama söz verdiyim kimi, hər gün əvvəl dərslərimi oxuyuram, sonra telefonumu əlimə götürürəm. Nənəm oturub mənə baxır: "Bir dəqiqə gözünü çək ondan! İki kəlmə danış!"

Bir dəfə "Necə zəng vururlar? Mənə də öyrət", – dedi nənəm. Üç dəfə soruşdu: "Bu düyməni basım?" Hər dəfə təzədən başa saldım. "Yaxşı izah eləmədin" dedi, səsimi çıxarmadım. Kefim kök

idi axı! Birlikdə anama zəng vurduq. Sonra "Şəkil də çəkir?" soruşdu. Telefonu ona tuşlayıb şəklini çəkmək istəyəndə "hələ yox" deyib tələsik otağına getdi.

Bir də gördüm nənəm bəzənib-düzənib otağından çıxdı. Sevdiyi yaşıl paltarı geymişdi, saçlarını da yuxarı darayıb düyün yığmışdı. Ətrinin qoxusu hər tərəfə yayıldı. Başa düşdüm ki, nənəm şəkil çəkdirmək üçün belə bəzənib. Məni gülmək tutdu: "Nənə, qoxu şəkildə düşmür axı!" "Çək! Çək! – dedi. – Gələcəkdə baxıb yadına salarsan".

Çəkdim. "Hə, – dedim, – baxıb deyəcəm ki, qəşəng nənəm var idi..." Nənəm duruxdu: "Var idi?" Sanki 10 il qocaldı nənəm. Gülər üzündən əsər-əlamət qalmadı. Dönüb ayaqlarını sürüyə-sürüyə otağına yollandı. "İndiki uşaqlar belədir, – deyindi, – böyük-kiçik qanmırlar ki!" Küsdü nənəm.

Nə dedim axı? Niyə küsdü?

Tez ardınca qaçdım. "Get başımdan!" – üzümə baxmadı. Ətrafında tullanıb oxumağa başladım: "Nənə, nənə, ay nənə! Sənə nə oldu yenə?" Çəkdiyim şəkli göstərdim: "Bax, nə qəşəng düşmüsən! Bu şəkli həmişə telefonumda saxlayacam". Dodaqlarımı ekrana yapışdırıb şəkli öpdüm.

Nənəmin üzü güldü. Başımı qucaqladı. "Doğru deyirsən, niyə küsürəm ki?" – dedi.

* * *

Bazar günü idi. Hamı bir yerdə nahar edirdik. Birdən nənəm soruşdu:

– Bəs mənə nə vaxt telefon alırsız?

Yemək boğazımda qaldı. Qışqırdım:

– Ay nənə! Sən bu yaşında telefonu neynirsən?!

– Nə olub mənim yaşıma? Bu yaşda sənə baxa bilirəm, telefon işlədə bilmirəm? Öyrənmişəm belə.

Anam qaşlarını dartdı. Atam çiyinlərini çəkdi.

– Həm, Allah eləməmiş, – nənəm qulaqlarını çəkdi, – kiş, kiş, kiş, uşaq itib-eləsə, mənim telefonum yox – onu necə tapacam?

İndi ikimizin də telefonumuz var. Telefonla şəkil çəkməyi də nənəmə öyrətmişəm. Evdə əşya qalmayıb – hamısının şəklini çəkib: "Çıq! Çıq!". Bəyənmədiklərini silib təzədən çəkir.

– Bu gün sənə nə bişirim?

– Kumpir, – dedim.

– O nədir? – nənəm təəccübləndi, - mən elə yemək bilmirəm.

– Uşaqlar "Feysbuka" qoyublar, bax.

İnternetdən kumpirin şəklini və reseptini tapıb nənəmə göstərdim.

– Hə, nə var bunu bişirməyə! Bu saat hazır eləyim! – deyib mətbəxə getdi....

Axşam yerimə uzanmışdım. Qapı ehmalca açıldı. Nənəm asta addımlarla içəri girib yavaşdan soruşdu:

– Bu "Feysbuk" dediyin nədir? Onu da bir başa sal...

İKİ QARDAŞ

Ayxan və Nurlan əkiz qardaşlardır. Bir-birinə elə oxşayırlar ki, elə bil bir almanı yarı bölmüsən. İkisinin də qapqara gözləri, uzun kirpikləri, qıvrım kəkili var.

Qardaşlar ikinci sinifdə oxuyurlar. Məktəbi, müəllimlərini, sinif yoldaşlarını çox sevirlər. Amma hər gün məktəbə getmək üçün səhər tezdən şirin yuxudan durmaq necə də çətindir! Bütün uşaqlar belə deyir.

Cümə günü, səhər saat 7 idi. Ana Ayxan və Nurlanı yuxudan oyatdı:

– Oğlanlar! Qoçaqlar! Vaxtdır, qalxın!

Mışıl-mışıl yatmış uşaqlar ayılıb gözlərini ovxaladılar. Ayxan dedi:

– Əvvəl sən qalx.

– Yox, sən!

Ayxan durub yatağında oturdu. Çarpayısının qarşısında cütləyib qoyduğu çəkələklərini geyinib vanna otağına keçdi.

Nurlan da qalxdı. Amma çəkələyinin bir tayını tapmadı. Əyilib döşəməni axtardı: çəkələk divarın dibində idi. Onu çıxarmaq üçün çarpayı-

nın altına girməli oldu. Burda dünən itirdikləri hokkey oyununu da tapdı. Dəstəyini basıb oynamağa başladı.

– Orda neynirsən? – Ayxan çarpayının altına əyildi, – hokkeyi tapmısan?

Keflə oynamağa başladılar. Mətbəxdən ananın səsi gəldi. Nurlan cəld çıxıb vanna otağına cumdu...

Ayxan səliqə ilə qatlayıb çarpayısının yanına qoyduğu paltarlarını geyinib mətbəxə keçdi. Anası səhər yeməyi hazırlamışdı.

Nurlan tələsik paltarlarını geyindi, amma corabının bir tayını tapmadı. Anası onu çağırdı. Axtarmağa vaxtı olmadığından dolabdan təzə corab götürüb o biri ayağına keçirdi. Taykeş olduqları görünməsin deyə, şalvarını aşağı çəkib mətbəxə qaçdı.

Səhər yeməyi bitdi. Nurlan qapının yanında hazır qoyulmuş çantanı cəld əlinə aldı.

– O, mənim çantamdır! – Ayxan qardaşına hücum elədi.

– Yox, mənimdir!

Çantanı hərə bir tərəfə dartdı.

Ana çantaların altına adları yazdığından mübahisəni tez həll elədilər.

Çanta Ayxanın imiş. Nurlanın çantasını stolun altından tapıb qaça-qaça evdən çıxdılar.

– Kim deyir ki, bu uşaqlar bir-birinə oxşayır?! – Ana başını buladı.

* * *

İstirahət günü idi.

Nə yaxşı ki, istirahət günü var! Səhər yatmaq olar. Amma Ayxanla Nurlan yenə tezdən qalxmalı oldular. Çünki valideynləri ilə birlikdə şəhər kənarına gəzintiyə gedəcəkdilər. Həvəslə yığışıb tez hazır oldular.

Gün hələ qalxmamış maşınla yola çıxmışdılar.

Pəncərədən baxmaqdan bezən Ayxan qulaqcığını çıxarıb taxdı və musiqiyə qulaq asmağa başladı. Nurlan isə yol çantasını nə qədər eşələdisə, qulaqcığını tapmadı.

– Bir tayını mənə ver də, nə olar, ikimiz də qulaq asaq, – deyə o, qardaşına yalvardı.

Nə qədər elədisə, Ayxan yola gəlmədi. Acığından zorla dartıb qulaqcığın birini ondan aldı. Arxa oturacaqda tutaşdılar. Valideynlər işə qarışmalı oldu...

Bütün yolu Nurlan küncdə oturub burnunu salladı. O küsmüşdü.

Anası onun haqsız olduğunu deyib Ayxanın tərəfini tutmuşdu. "Sən də səliqəli olub əşyalarını vaxtında yığaydın. Qulaqcığını unutmayaydın!" Maşını idarə edən atası işə qarışmamağı üstün tutdu.

Nurlan hirsindən ağlamış olduğundan tez-tez burnunu çəkirdi. Ayxan isə qulaqcıqlarını taxıb kef eləyir, musiqinin ritmi ilə başını və çiyinlərini oynadırdı.

...Gün gözəl keçdi. Təbiətin qoynunda hər kəs yoldakı incikliyi unutdu. Meşədə ağacların arasında o ki var gəzib dolaşdılar, cürbəcür oyunlar oynadılar. Ana hətta futbol oyununa da qoşuldu – topun ardınca qaçdı. Sonra yaşıl otların üstündə süfrə açıb yemək yedilər.

Nurlan albalı şirəsini üstünə dağıdanda anası heç acıqlanmadı. Onun təmiz havada qızarmış yanağından öpüb "Pinti balam! Kefini pozma", – dedi.

Axşam hava soyudu, jaketlərini geyindilər. Yığışıb evə qayıtmağa hazırlaşanda Ayxanın qanı qaraldı: qulaqcığı cibindən düşüb itmişdi. Oynadığı, oturduğu yerlərə baxdı – yox idi. Meşədə, otların arasında onu necə tapacaqdı?

"Şəhərə qayıdanda sənə təzəsini alaram", – deyə atası onu sakitləşdirdi.

Əşyaları maşının yük yerinə yığanda Nurlan yol çantasının cibindən öz qulaqcığını tapıb sevindi: "Ay can! Ay can! Tapdım! Mənim qulaqcığım!" Ayxan "bəlkə, mənimkidir?" mızıldandı. Amma yox, bu qulaqcığın rəngi fərqli idi.

Maşın asfalt yolla şəhərə tərəf gedirdi. Bu dəfə Nurlan qulaqcıqlarını taxıb kef eləyir, musiqinin ritmi ilə başını və çiyinlərini oynadırdı. Ayxansa sakitcə pəncərədən çölə baxırdı. Gözləmədiyi halda Nurlan qulaqcığın bir tayını ona uzatdı. "Al! – dedi, – ikimiz də qulaq asaq. Belə daha maraqlı olur".

Anası dönüb nəvazişlə ona baxdl. Atası gülümsəyirdi.

Ayxan qardaşını qucaqladı.



Vaqif BƏHMƏNLİ

YOLSUZ ADAM

Keçi keçiyə yol verir –
Adam adama yooox!
Küçə küçəyə yol verir –
Adam adama yooox!

Qoşun qoşuna yol verir –
Adam adama yooox!
Maşın maşına yol verir –
Adam adama yooox!

İblis mələyə yol verir –
Adam adama yooox!
Dəli dəliyə yol verir –
Adam adama yooox!

Günah adama yol verir –
Adam adama yooox!
Allah adama yol verir –
Adam adama yooox!

QOCALARIN HALI

Hanı dən, hanı başaq;
gəzir, adbaad gəzir,
gün sürür qaşıq-qaşıq,
tikə-tikə dad gəzir –
qocalar yemək yemir.

Dünya yağış qoxusu,
xatirələr çətirdi.
Gözlərindən axan su
yanğısını yatırdır –
qocalar su içmir.

Həyat məşəqqətdi,
cod çarpayıdır,
Ona adam dözməz,
dözən – ayıdır,
Gedib o dünyanı görüb qayıdır –
qocalar yuxu yatmır.

Çatdax-çatdax dabanı
zoqquldayır, qaşınır,
Əzir namərd dünyanın
fısıldayan başını –
qocalar yol yerimir.

Deyinir,
Hey deyinir,
Dinclik tapmır bu adətdən.
Qəhr olan ömrə tüpürür,
yerə girir xəcalətdən...
qocalar “ölüb-itmir!”

AĞACIN DƏRDİ

Hərdən idrak varlığından utanır
ki, mətləb var,
anlamağa gücü yox!
Odunu var, sobası var adamın;
ağacların odunu var, peçi... yox!

Canım olsun ağaclara sadağa! –
Göy vaxtında quşum qonur budağa...
Qışda quşlar köçür çölə, ya dağa,
kökü dərin ağacların köçü yox.

Yarpaq deyil, xəzəl deyil tökülən –
Ayaq basma ağacın saç tükünə!
Bəzən dözmür bir sərçənin yükünə...
Ata çürük, ana sınıq, bacı... yox!

Külək şiv-şiv əzbəridi ağacın,
Alov qara xəbəridi ağacın,
Payız naşı bərbəridi ağacın;
bir yaşında ağac var ki, saçı yox!

Oyuq açıb gövdəsində çin, oraq,
Kölgəsində mələyi sor, cin ara...
Padşahların boyu çatmaz çinara,
amma hanı? –
dik başında tacı yox!

Hara yazaq gileyini ağacın? –
Dövran kəsmiş biləyini ağacın!
Yazan yazıb taleyini ağacın,
yoxsa onun günahı yox, suçu yox!

Əzəl gündən qal oğlu qal oğluyam;
yurddan iraq düşdüm,
gərək ağlayam...
Vətənimə ağac kimi bağlıyam –
bundan şirin məşəqqət yox, acı yox!

TAMAŞA

Qanad dözmür rüzgar adlı çapara,
ya arı qırılır, ya pətək ölür.
Kim istər ki, əzizini apara –
tək yaranan bu dünyada tək ölür!

Gora getməz kəklik ilən xınası,
göl qalandı, köçsə gölün sonası,
Gül-çiçəkdi tarlaların mənası;
gül solanda gül ölmür ki, lək ölür.

Ox-ox üstdə...
heç denən can ağrıyır? –
Allah görür, boş-boşuna ağlayır!
Cəllad həsrət dönə-dönə doğrayır –
Deyən yoxdu, qılıncını çək, ölür!

MƏN GƏRAYLISI

Dünya qəfəs –
içində mən,
İstəyimin nədəni yox.
Zindan bədən
zədən-zədən –
məhbusların vətəni yox!

Yağış,
yağmur,
çən yoluyam,
doğanaq, örkən yoluyam,
mənlər keçən mən yoluyam,
sən adında ötəni yox.

Mən mənəmmi? –
Qəm körüyü,
qəm qurudur nəm hörüyü...
dörd yanımı mən bürüyüb
gözə dəyən bir səni yox!

QƏRİBLİK

Sənə mübtəla olana
Su havayı, dən havayı...
Can dirəndi dar dalana;
nə üçün, nədən... havayı?

A yar, dəmim ayrı dəmdi;
Səfər yoldaşım qəmdi...
Bəhmənlinin nəyi kəmdi
Bir Olan Səndən savayı?

Əhdim itkin, yox diləyim-
bazbənd saxlamır biləyim...
İştahım çəkmir heç nəyi
verdiyin qəmdən savayı.

Vüsal dibdə, həsrət dikdə,
Kök atıb şaxta ilikdə...
Sən ki yoxsan –
qəriblikdə
çürüyür vətən... havayı!

SON HEYRƏT

Nə qənd, nə çay, nə yağ, nə də şirin ət...
sevdiyim bir dad var –
o da ki heyrət!
Bəlkə, yaradanım bəxş edə QÜDRƏT,
HEYRƏTƏ çatmağa toplayım QEYRƏT!

Lal durub göl kimi –
qaynamır qanım,
Yorğunluq,

durğunluq bürüyüb canı!
Yolunda can qoydum –
Cənnətim hanı? –
Dilimi doğrayır cəhənnəm tamı!

Amma yox, ahəstə çırpınır ürək.
Ağlını başına topla, a kişi;
sonuncu kibriti yandırmaq gərək,
sonuncu çırpıya tutmaq atəşi...

GENDER BƏRABƏRLİYİ

Baş sındırıb alimlər
mükəmməl dəqiqliklə
bərabərlik gəzirlər guya,
amma nədən bilmirlər
mütləq bərabərlikdə –
Allahın altındadır dünya?..

Əslində, anama bağlıdır
bərabərliyin mənası,
kətan kəfəni dağlıdır –
çünki odur on yetimin
həm atası, həm anası...
Oğlan, qız söhbəti əbəsdi,
ona qiyamətəcən bəsdi
bala-övlad məhəbbəti.
O, bir Tanrı tərəzisi,
pay bölündi isti-isti –
nə atın otunu kəsdi,
nə də sümüksüz qoydu iti!
Ona ana deməzdim, düzü,
cütü çəkən tək öküzün
çoxdan quruyub qanı,
çoxdan, sorulub iliyi...
Bəhmənli qəbiristanlığında
dəfn olunub gender bərabərliyi!

Erik KARLFELDT.
"QANUNDAN KƏNAR" LAUREAT

1931-ci ilin ədəbiyyat üzrə laureatın seçilməsi Nobel mükafatlarının tarixində böyük bir qalmaqalla əlamətdar oldu. İsveç Akademiyasının qərarı ilə mükafat "poeziyasına görə" görkəmli İsveç şairi Erik Karlfeldtə verildi. Məsələ bundadır ki, E.Karlfeldt adi bir şair deyildi, 1912-ci ildən Akademiyanın daimi katibi postunu tutan bir adam idi. 18 il ədəbiyyat sahəsində Nobel mükafatçısının seçilməsi üzrə müzakirələrin və səsvermənin keçirilməsinə şəxsən rəhbərlik etmişdi. Bu müddət ərzində onun özünə dəfələrlə mükafatın iddiaçıları sırasına daxil olmaq təklif edilsə də, E.Karlfeldt hər dəfə etirazını bildirmiş, dünyada bir şair kimi o qədər də tanınmadığını bəhanə gətirmişdi. Həqiqətdə isə vicdanlı və təvazökar bir adam olan E.Karlfeldt Nobel Mükafatları Komitəsində tutduğu yüksək mənsəbdən sui-istifadə etməyi ləyaqətinə sığışdırmırdı. Hətta 1916 və 1919-cu illərdə rəsmən namizədlər siyahısına düşsə də, komissiyanın üzvü kimi öz əleyhinə səs verməklə ali ədəbiyyat mükafatından imtinasının, sadəcə bir jest olmadığını sübut etmişdi. 1918-ci ildə isə adını siyahıya salmaq barədə "razılaşma" əldə edilmədiyinə görə İsveç Akademiyasının öz daimi katibini, nəyin bahasına olursa-olsun, laureat etmək cəhdi yenə də baş tutmamış və həmin il anlaşılmaz bir səbəbdən ədəbiyyat üzrə Nobel mükafatı, ümumiyyətlə, heç kəsə verilməmişdi.

1931-ci il aprelin 8-də E.Karlfeldt qəflətən dünyasını dəyişdi… Və həmin ilin payızında Nobel Mükafatları Komitəsi namizədlərin 28 nəfərlik rəsmi siyahısında adı olmasa da, onu ədəbiyyat üzrə laureat elan etdi… Halbuki namizədlər sırasında H.Hesse, E.Remark, P.Valeri, C.Qolsuorsi, İ.Bunin kimi görkəmli yazıçıların adları vardı. Ancaq qalmaqala səbəb olan məsələ yalnız mükafatçının kimliyində deyildi. Problem bunda idi ki, Nobel Fondunun və Nobel Mükafatları Komitəsinin əsasnaməsinə görə, mükafat ancaq sağ olan adamlara verilə bilər. Dünyadan köçmüş insanların adı heç namizədlər siyahısına da salınmır. Namizədlər sırasına düşmüş şəxs müzakirələrin gedişi müddətində vəfat edərsə, adı dərhal siyahıdan çıxarılır. Yalnız bir dəfə, 2011-ci ildə tibb üzrə mükafatın Kanada əsilli ABŞ alimi Ralf Staymanna verildiyi elan edildikdən sonra məlum olmuşdu ki, məşhur immunoloq üç gün əvvəl vəfat edib. Gərgin müzakirələrdən sonra Nobel Komitəsi alimin adını, bir istisna olaraq, laureatlar sırasında saxlamağı qərara almışdı. 1931-ci ildə isə mənzərə tamam başqa cür idi. Vəziyyətdən çıxmaq üçün Nobel Komitəsi E.Karlfeltdin adının əvvəlki illərdə namizədlər siyahısında olduğunu "əsas" gətirdi. Müdrik bir yəhudi məsəlində deyilir: "Qanun elə bir divardır ki, üstündən aşmaq olmaz, ancaq yanından keçmək olar." E.Karlfeldtin laureatlığı məsələsində Nobel Komitəsi məhz bu yolu seçdi. Yəqin ki, özü sağ olsaydı, belə bir yarımçıq həqiqətə yol verilməsinə razı olmazdı.

Erik Aksel Karlfeldt (əsl familiyası Eriksson) 1864-cü il iyulun 20-də İsveçin mərkəzində yerlə-

şən Dalekarlia əyalətinin Folklern qəsəbəsində mülkədar ailəsində doğulub. Onun ata-babası nəsilbənəsil fermer kimi kənd təsərrüfatı ilə məşğul olmuşdu, zaman dəyişməsəydi, yəqin ki, özü də bu yolla gedəcəkdi. Ancaq taleyin yazısı başqa imiş...

Anası Anna Yansdotter əvvəl bir dəfə ailəli olmuş, əri vəfat edəndən sonra Erikin atası ilə ailə qurmuşdu. Erikin uşaqlığı kənddə, sakit bir şəraitdə keçmişdi. Orta təhsilini ev şəraitində alan Erik İsveçin nüfuzlu ali məktəblərindən biri olan Upsala Universitetinə daxil olur. Upsala İsveçin milli koloritini qoruyub saxlamış qədim mədəniyyət mərkəzlərindən biridir. Bu şəhərdə universitet 1477-ci ildə yaradılıb, Skandinaviyanın ilk universitetidir. Erik 1880-ci ildə universitetin ictimai elmlər fakültəsinə daxil olandan sonra fermerlik işləri iflasa uğrayan və külli miqdarda borca düşən atası Erik Eriksson ailə mülklərini satsa da, borclarını ödəyə bilmədiyinə görə həbs olunur. Maliyyə qaynağından məhrum olan Erik təhsilini yarımçıq qoymalı olur. O, Upsala Universitetinin diplomunu yalnız iyirmi ildən sonra – 1902-ci ildə, 38 yaşında ala bilir. Fərdi qaydada müəllimlik etməklə dolanan gənc elə həmin illərdə bədii yaradıcılığa başlayır və rəsmi soyadından imtina edərək, satmağa məcbur olduqları doğma yurdun – Karlfeldt malikanəsinin adını özünə təxəllüs götürür.

Bir neçə il Upsalada repetitorluqla məşğul olandan sonra Stokholmdakı Kənd Təsərrüfatı Akademiyasının kitabxanasına işə girir və ölkənin paytaxtına köçür. Bir müddətdən sonra Kral Kitabxanasında işləməyə başlayr.

1895-ci ildə E.Karlfeldtin "Vəhşi təbiət və məhəbbət haqqında nəğmələr" adlı ilk şeir kitabı nəşr olunur. Gənc şairin şeirləri üçün kənd (təbiət) mövzusu və ənənəçilik ruhu xarakterikdir. Bu şeirlərdə etnoqrafik motivlər aparıcı rol oynayır. Şairin "Fridolinqin nəğmələri" adlı ikinci şeir toplusu 1898, "Fridolinqin ləziz bağları" adlı üçüncü kitabı isə 1901-ci ildə çap edilir. Əsas mövzusu təbiət gözəllikləri və sadə adamların həyatı olan bu şeirlər müəllifə kənd mühitinin saflığını tərənnüm etmək imkanı yaradırdı.

Bu kitablardakı şeirləri müəllif Fridolinq adlı lirik qəhrəmanın, daha doğrusu, uydurma personajın adından təqdim edir. Onu oxucuya şəhərdə mükəmməl təhsil alıb sonra doğma yurduna dönmüş kəndli şair kimi tanıdır. O bir müddət şəhərdə yaşadıqdan sonra – "Əsl həyat bu deyil və mənim yerim də burda deyil" – deyərək kəndə qayıdır. Fridolinq öz həyat mövqeyini belə ifadə edir: "Toztorpaq içində eşələnmək tozlu kitablar arasında eşələnməkdən yaxşıdır".

Ölkə miqyasında görkəmli ziyalı kimi tanınmağa başlayan E.Karlfeltd 1904-cü ildə İsveç Akademiyasının, 1907-ci ildə Nobel Komitəsinin tərkibinə daxil edilir. 1912-ci ildə Akademiyanın daimi katibi seçilən yazıçı ömrünün sonuna qədər bu vəzifədə çalışır. Onun vəzifə səlahiyyətlərinə daxil olan məsələlərdən biri də ədəbiyyat sahəsində Nobel mükafatçısının müəyyən edilməsi idi. Yəni bütün bu müddət ərzində ədəbiyyat üzrə Nobel mükafatına namizədlərin seçilməsi, müzakirələrin aparılması, yekun səsvermənin təşkili bilavasitə onun rəhbərliyi altında həyata keçirilirdi. Hələ nisbətən cavan yaşlarından belə bir məsul vəzifənin ona həvalə edilməsi E.Karlfeldtin savadlı və obyektiv, ilk növbədə, vicdanlı və dürüst adam olması ilə bağlı idi. Doğrudan da, ötən müddət ərzində Nobel mükafatı laureatlarının müəyyən edilməsi kimi bütün dünyanın diqqət mərkəzində olan son dərəcə həssas məsələ ilə bağlı heç bir ciddi narazılıq meydana çıxmamışdı.

"Romonanın bağları" adlı növbəti kitabını 1906-cı ildə nəşr etdirən şair bununla da kitab nəşrinə fasilə verir, onun yeni kitabları bir də xeyli müddət ötəndən sonra, yetkin yaşlarında çap olunur: 1918-ci ildə "Bellonanın bağları", 1921-ci ildə isə "Qrinberqin bağları" adlı şeir kitabları çapdan çıxır.

İsveç neoromantik poeziyasının nümayəndələri sırasında onun adını 1916-cı ilin Nobel mükafatçısı Karl Heydenstam və dövrün məşhur şairi Qustav Fedurlinqdən sonra üçüncü yerdə çəkirdilər. Duyğu və düşüncələrində romantikcəsinə sərbəst, ehkamlardan uzaq olsa da, onların ifadəsində, poetik forma məsələsində bir o qədər rasional, normaları gözləyən idi. Onun poetik düşüncəsi İsveçin çoxəsrlik etnik mədəniyyəti, folklor və xalq ənənələri üstündə köklənmişdi. Kənddən ilk gənclik çağlarında çıxıb ömrünün sonuna qədər şəhərdə yaşasa da, bütün yaradıcılığı kənd həyatının, təbiət lövhələrinin təsvir və tərənnümünə həsr olunmuşdu. Bütün "kənd şairləri" kimi, E.Karlfdt də urbanizasiya və sənayeləşmənin əleyhinə idi. Dünyagörüşünün kökü İsveçin qədim çoxəsrlik mədəniyyətinə, ilk növbədə, xalq nəğmələrində ifadə olunmuş əski inanclara bağlı idi. Onun poeziyası üçün folklordan gələn təbii sadəlik səciyyəvi olsa da, nə məzmununa, nə də ifadə tərzinə görə primitiv idi. Bütün istedadlı müəlliflər kimi, onun da yazdıqları özünə bənzəyr: özü rəftarında, insanlara münasibətində nə qədər sadə olsa da, daxilən yüksək (elitar) bir mənəviyyat və intellekt sahibi idi.

Şəxsi həyatını ciddi ictimai xadimdən daha çox hərdəmxəyal şair stilində quran E.Karlfeldtin gənclik illəri sevgi macəraları ilə çox "zəngin" olmuşdu. Orta yaşlarına qədər evlənməyə tələsməyən şair yalnız 52 yaşında özündən 20 yaş kiçik bir xanımla ailə qurdu. Bu ailədə onun iki oğlu dünyaya gəlsə də, ömrünün axırına qədər rəsmi nikaha girməyi lazım bilmədi.

Vəfatından sonra İsveç Akademiyasında və Nobel Komitəsində E.Karlfeldtin Nobel mükafatı ilə təltif edilməsi ideyası yenidən aktuallaşdı. Şair özü bu dəfə "etiraz edə bilmədi". Məsələnin "müsbət" həll olunmasında akademiyanın üzvü Natan Şöderblüm və Upsala şəhərinin arxiyepiskopu xüsusi fəallıq göstərdilər. 1931-ci ilin dekabrında mükafat şairin ailəsinə təqdim edildi. Təqdimat mərasimində belə bir fikir səsləndi ki, E.Karlfeldt sənətkar kimi ənənəçi olsa da, keçmişdən aldığı ideyalara yeni nəfəs verməyi, onları cəsarətli bir yenilikçiliklə, novatorcasına ifadə etməyi bacarıb. Mərasimdə çıxış edən akademiya üzvü Anders Estarlinq E.Karlfeldtin poeziyasını xalq tətbiqi sənətindəki əl işləri ilə müqayisə edərək fabrik məhsullarından fərqli olaraq, onların fərdi yaradıcılıq tərzini həmişə saxladığını vurğuladı, bu tip sənət əsərlərinin daha çox mənəvi keyfiyyətlərə malik olduğunu bildirdi.

İsveç əsilli Amerika ədəbiyyatşünası Avrik Qustavson Nobel mükafatı xəbərini alanda onun poeziyasını belə qiymətləndirmişdi: "E.Karlfeldt İsveçin ən böyük şairlərindən biridir. Onun şeirləri düşüncə və ifadə özəlliyinə görə fərqlənir, onlarda fövqəladə bir obrazlılıq var".

Şairin oxucular arasında böyük məhəbbət qazanmasının əsas səbəbi vətəninə, xalqına, dilinə sonsuz sevgilərlə bağlı olmasında idi. O, xalqının mənəvi varlığını, ruhunu bütün özünəməxsusluğu ilə ifadə etməyi bacarmışdı. Və qarşılığında da böyük xalq sevgisi qazanmışdı. Maraqlı bir detalı xatırlatmaq istərdik: Onun birinci kitabının cəmi 50 nüsxəsi satılmışdı. Çünki gənc müəllifi heç kim tanımırdı. Poeziya həvəskarları onun yaradıcılığına bələd olandan sonra isə cəmi üç illik fasilə ilə çıxan ikinci kitabının 5000 nüsxəsi satıldı. Bu, ölkə üçün rekord göstərici idi, yüz dəfəlik artım demək idi. E.Karlfeldtin mükafat almasına ən çox sevinən də onun şeirlərini əzbər bilən, xatirəsini əziz tutan sadə adamlar idi.

İctimai xadim və şair kimi vətənində çox böyük hörmət və nüfuz sahibi olsa da, E.Karlfeldt İsveçdən kənarda, demək olar ki, tanınmırdı. O, ümumiyyətlə, az yazırdı, cəmi altı kitabı çıxmış, həm də çox az tərcümə olunmuşdu. Dialektizm və frazemlərlə, arxaik ifadə və üslubi idiomlarla zəngin olan dili onun şeirlərinin tərcüməsini çətinləşdirir, bəlkə də, qeyri-mümkün edirdi. Son illərə qədər onun heç bir əsəri Azərbaycan dilinə də tərcümə edilməmişdi. Yalnız "Ədəbiyyat qəzeti"nin 1oktyabr 2016-cı il tarixli buraxılışında Əyyub Qiyasın tərcüməsində şairin iki şeiri ilk dəfə olaraq Azərbaycan oxucusuna təqdim edildi. (Yeri gəlmişkən, Ə.-Qiyasın ədəbiyyat üzrə Nobel mükafatçılarının yaradıcılığından etdiyi tərcümələrin bu qəzetin səhifələrində silsilə şəklində təqdim olunaraq oxucularımızın maarifləndirilməsi üçün əhəmiyyət daşıdığını xüsusi vurğulamaq istərdik).

Gənclik illərində E.Karlfeldtin poeziyasında folklora xas olan nikbinlik, həyatsevərlik motivləri üstün olsa da, zaman keçdikcə tədricən onları pessimist notlar əvəz etməyə başlayır. Ancaq onun şeirləri ədəbi peşəkarlıq baxımından forma və məzmunca zənginləşərək folklordan qismən uzaqlaşsa da, poetik ruh, mənəvi ovqat həminki kimi qalır. Şeirlərində folklor motivləri ilə yanaşı, isveçlilərin (vikinqlərin) xristianlığa qədərki qədim inancları ilə bağlı mifoloji təsəvvürlərin izləri də müşahidə olunur. Bu, onun poeziyasına müyyən mistik çalar da verir. Bununla belə, E.Karlfeldt dövrünə, zamanına bağlı bir sənətkar idi. Onun şeirləri ictimai-sosial məzmundan uzaq olsa da, o dövr İsveç ziyalılarının dünyaduyumuna, əhval-ruhiyyəsinə tam uyğun idi və o, bir şair kimi ən vacib məsələdə – özünü ifadə emək mənasında istədiyinə nail ola bilmişdi. Buna görə də, yaradıcılığının dəyər və miqyasının ölçülərinə baxmayaraq, təkcə elə sənətdə və həyatda öz yerini bilməsinə, şəxsiyyət və ləyaqətini hər məqamda qorumasına görə ən yüksək ehtirama layiqdir.

Müasir dövrdə onun yaradıcılığı oxucuların və mütəxəssislərin diqqətindən kənarda qalsa da, hesab etmək olar ki, Erik Karlfeldt Nobel mükafatına öz ədəbi yaradıcılığından daha çox, bütün dünyada bu mükafatın nüfuz və hörmətinin təmin edilməsində xidmətlərinə görə layiq görülmüşdür.

E.Karlfeldtin aforizmlərindən seçmələr

– Dünya zalım deyil. Sadəcə, ziddiyyətlidir. İztirab olmasa, həzz də olmaz. Qaranlıq olmasa, işıq da olmaz.

– Dünyanın bütün bəlaları daim özünə inamsız olan insan adlı məxluqun səbatsızlığından törəyir.

– Elə adamlar var ki, saat onda asılacağını bilə-bilə, saat səkkizdə sakitcə şahmat oynaya bilər.

İlham ABBASOV

Rizvan NƏSİBOĞLU

YAZA BİLMƏDİYİM ŞEİRƏ

Nə mənə oxşarsan, nə də kölgəmə,
Ürək aramızda qalıb, bilirəm.
Məni əlçatmaza dartıb söykəmə,
Sənsən hər döyüşdə qalib, bilirəm.

Sözümün duzu yox, dərdimin tamı,
Neynədim, damağım şirin olmadı.
Üzüb səhərləri, yorub axşamı,
Əridim, masamda yerin olmadı.

Hara yox olmusan, qürbətimdəsən,
Gəl, basım bağrıma, aparım səni.
Deyəsən, göylərin xəlvətindəsən,
Yaxında olsaydın, tapardım səni.

Sevgidən yazıram, rəngi boz düşür,
Bir süzgün baxışın oğrusu gəlmir.
Həsrətdən yazıram, güllər gülüşür,
Tək bircə gülün də qoxusu gəlmir.

Dünya əzəlkidi, yerli-yerində,
Söz yerin təkini qaldıra bilir.
Duyan ürəklərin dərinliyində
Yel çəkən boşluğu doldura bilir.

Hər dəfə bir həzin sözə çatıram,
Sevmirəm hər dürlü diringini, yox!
Hər gecə eşqinlə bir gün satıram,
Allahın sabahı, birigünü çox!..

ÜRƏYİMƏ MƏKTUB

Səni çox əzmişəm, çox sıxmışam mən,
Bu qədər təpiyə kim dözərdi, kim?!
Səni dəli kimi oxutmuşam mən,
Mən adam olmadım, nazını çəkim.

Min ildi yaxamız həsrət əlində,
Gözümüz bozarır qansız can kimi.
Bu sevgi ömrümün lap əvvəlindən
Yandırdı könlümü alışqan kimi.

Axşamdan sübhəcən söz savaşıdı,
Hər nəğmə qüssəli bir qız qəmidi.
İllər əldən düşən toy şabaşıdı,
Günümüz yox olan kağız gəmidi...

Yollar dağa çıxır, dərəyə enir,
Məni donduran da, közərdən də sən.
Ürək var, uzaqdan alim görsənir,
Məndən kölgə şəkli düzəldən də sən.

Sevdik duyğu kimi göydən düşəni,
Hər axşam-səhərin qala qəfəsi.
Bəzən masam üstə tapıram səni,
Susan günlərimin lal xəritəsi.

Səni çox asmışam başımın üstən,
Bəzən də özümdən gen tutmuşam mən.
Nə vaxtdı sinəmdə, yurd yerindəsən,
Gör səni nə qədər unutmuşam mən!

SÖZDƏN GƏLİRƏM

Durum hara gedim bu gecə vaxtı?
Ürəyim əriyir bir şam içində.
Küçədən əl-ayaq çəkilən vaxtı
Niyə darıxıram axşam içində?

Dünya bir az sükut, bir az səsiymiş,
Ortada nə qalır, bilə bilmirəm,
Ömrüm neçə yerə bölünəsiymiş,
Sükutam, harayam, hələ bilmirəm.

Məni kim gözləyir, düşüm izinə,
Bu sükut qapqara gecə kimidi.
Kölgəmi atmışam bu yer üzünə,
Bu gecə yiyəsiz küçə kimidi.

Yuxum da yoxdu ki, vaxtı itirəm,
Susanda axşamam, dinəndə səhər.
Gedirəm, bir misra şeir gətirəm,
Yaşayam başımın tükünə qədər.

Durum hara gedim bu gecə vaxtı?
Getməsəm, bir qələm qarğış qalacaq.
Üstümə bir durna harayı axdı,
Bu ölən sükutu kim ağlayacaq?!

Daşda da bitirmiş sükut, bilirəm,
İçindən bir nəğmə doğulsa, əhsən!
Yolumu gözləyən sözdən gəlirəm,
Sükutun əlindən qopdım, deyəsən!

NƏ QƏDƏR ÇƏKƏCƏK?

Saçların gül qoxusu var,
Gözün çiçək yuxusu var.
Baxışların oğrusu var,
Həbsim nə qədər çəkəcək?!

Qəmə büküb göynədirsən,
Candan salıb "əylədirsən",
Mənə yadlıq öyrədirsən,
Dərsim nə qədər çəkəçək?!

Bura haradı, bilmirsən?!
Bilsən də, dönüb gəlmirsən,
Məndən ötəri ölmürsən,
Ərzim nə qədər çəkəcək?!

İsindiyim ay var, il var,
Baş əydiyim bir könül var.
Kökləndiyim qoşa tel var,
Hər sim nə qədər çəkəcək?!

Üzüldüm, üzdüm dünyanı,
Can deyildim, gəzdim canı,
Tərsinə sevdin Rizvanı,
Tilsim nə qədər çəkəcək?!

BU SOYUQ ŞƏHƏRİN...

(qış şeiri)

Dostum Əjdər müəllimə

Bu soyuq səhərin
soyuq küçələri,
üstəgəl, soyuq adamları
üşüdür adamı.

Bu soyuq şəhərin
soyuq küçələri,
üstəgəl, sısqa küçə şamları
üşüdür adamı.

Bu soyuq şəhərin
soyuq döngələri,
üstəgəl, dənizə söykənən
fikirli axşamları
üşüdür adamı.

Bu soyuq şəhərin
soyuq xiyabanları,
üstəgəl, soyuq yol nişanları
üşüdür adamı.

...Bu axşam
bu soyuq şəhərin
soyuq küçələrindən,
soyuq döngələrindən,
soyuq yol nişanlarından çevrilib
gedirəm,
isti duyğulara bələyib,
bu üşüyən şəhəri
ürəyimdə qızdırmağa.
Gedirəm
bu şəhərin soyuğunu
pəncərəmi titrədən
qar küləyində azdırmağa.

REMARKIN "SAKİT" CƏBHƏSİ

Ədəbiyyatın bir sıra mövzuları arasında müharibə xüsusi yer tutur. Xalqları, ölkələri, insanları bir-birinə qırdıran, nəticədə isə qalib yox, sadəcə, itki vermiş tərəflərin qaldığı böyük döyüş meydanı bədii təsvir və ifadə vasitələri ilə birləşdikdə müharibənin ədəbiyyatla qovşağı insan psixologiyasına güclü təsir edir.

Müharibə mövzusu bəşəri olduğu üçün bu işin öhdəsindən gəlmək də asan deyil. Hər yazıçı mükəmməl müharibə əsəri yaza bilməz, yaxud istənilən müharibə mövzulu əsər mükəmməllik dərəcəsinə görə eyni ola bilməz.

Təhlil edəcəyim əsər Erix Mariya Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur" romanıdır. Müharibə mövzulu əsərlər içində ən maraqlı, realist və insan duyğularını alt-üst edən, oxuduqca müharibənin gerçək üzü, fiziki və mənəvi məhvə sürükləyən təsirləri, siyasi oyun olduğu üzə çıxan əsərlərdən ən başlıcası Remarkın "cəbhəsi"dir, demək olar.

Əsər Birinci Dünya müharibəsi dövrünü təsvir edir. Sayı-hesabı bilinməyən döyüşçülər arasında məktəbli Paul Boymer və onun dostları əsas diqqət mərkəzindədir. "Xalqlar müharibəsi"nin ağrılı-acılı üzü Boymer və dostlarının simasında oxucuya çatdırılıb. Kropp, Katçinski, Müller, Tyaden baş qəhrəmanlar, Leer, Kemmerix, Deterinq isə ikinci dərəcəli obrazlar olaraq romanda müəyyən əsgər ömrünü təmsil edir. Onlardan əlavə, Qərb cəbhəsinin mərhəmətsiz, kobud komandir tipi olan Himmelştossu və döyüşdən uzaqda olduğu halda, müharibə üçün məktəb şagirdlərini həvəsləndirən müəllim Kantorek obrazı da var. Amma bu qasırğanın təsirindən heç kimin qurtula bilmədiyi kimi, Kantorek də hərb düşərgəsində özünü görür. Həm də bir zamanlar şagirdi olmuş birinin əmrlərini icra etdiyi vəziyyətdə özünü tapır.

Boymer və dostları hələ məktəb şagirdi olduqları, dünyanın bu qədər yırtıcı olduğunu bilmədiklər bir vaxtda cəbhəyə yollanıblar. Müha-

ribə dövründə psixoloji təlqinin ən güclü silah olmasını gözdən qaçırmaq mümkün deyil. Ona görə də onların döyüş meydançasında özlərini tapmalarında müəllimləri Kantorekin də rolu var idi. Lakin gənclər müharibənin ağrılı üzünü gördükdən sonra hər şeydən uzaqlaşmış və gerçəklikləri dərk etməyə başlamışdılar. Bunun üçün də Kantorekdən gəlmiş məktubu oxuduqları zaman mübaliğə dolu tərifləri onlar üçün adi və gülməli görünür. Müəllimlərinin onlara "siz dəmir gənclərsiniz" deməyi Boymer və dostları üçün "həqiqətənmi gənc, yoxsa müharibə meydanında gördüyü dəhşətlərin qocaltdığı yaşlılar?" sualını ortaya qoyur.

Yaşıdlarının dəftər, qələm, kitab, əyləncə və s.-lə məşğul olması gərəkdiyi bir dönəmdə dostlar Qərb cəbhəsinin sakitlik bilməyən meydanında qalmışlar. Əsərlərdə ilk dost itkisinin təsviri Kemmerixin ölümü ilə yaradılıb. Artıq onlar başa düşürlər ki, buradan geri qayıtmaq xəyaldır, bu, real olsa belə, istər fiziki, istərsə də psixoloji baxımdan əvvəl olduğu kimi qayıtmaq mümkün deyil.

Özü gənc, ömrü qoca olan dostlar atəş səsləri, bombalar, vıyıltılar, zəhərli qazlar arasında öz əsgər əyləncələrindən də geri qalmırlar. Lakin bu durum bir az fərqlidir. Onların əyləncəsi zövq almaq, yaddaşlarına ömürlərinin deyibgüldükləri bir dövrü həkk etmək üçün deyil, bütün fəryad səslərinə qarşı bir mübarizə üsuludur. Hələ də yaşadıqlarını, nəfəs aldıqlarını hiss etmələri üçün onlar döyüşməkdən başqa da nəsə etmək məcburiyyətində idilər. Əyləncə fəaliyyətləri isə kart oynamaq, birlikdə qaz oğurlayıb bişirmək, arada da qadınlarla birlikdə olmaq onlar üçün ən maraqlı işlər idi. Əsərdə deyildiyi kimi: "...Biz kart oynamağı, müharibə etməyi və söyüş söyməyi bacarırıq. İyirmi yaşdan ötrü bu çox deyil, iyirmi yaşdan ötrü bu, həddindən artıqdır".

Romanda cəbhənin döyüşçülərinin həyat mübarizəsi, müharibə səhnəsi, üz-üzə düşmənlərlə yanaşı, Himmelştossun təmsilində hərb işinin tərs, özündən vəzifəcə böyüklərdən qorxsa da, kiçiklərə hörmət etməyən hərbçi obrazı yaradılıb. Lakin gənclər o qədər də səbirli deyillər. Onlar bəzi vaxtlarda həbs olunmaları və məzuniyyətlərinin əlindən alınmaları üçün narahat olurlar, amma bu hiss Himmelştossa yaxşı bir dərs verməyə əngəl olmur... Boymer və dostları daha sonra onunla cəbhədə rastlaşırlar, bu dəfə də gənclər Himmelştossun qışqırığı, təhdidləri və kobudluğundan çəkinmirlər.

Remark müharibə səhnələrini o qədər dəqiqliklə təsvir edib ki, cümlələri oxuduqca insanın gözünün qarşısına həmin an gəlir. Xüsusilə, cəbhəyə yeni gəlmiş gənclərin yaşadığı situasiyaların ifadəsində insan qanlı-qadalı müharibəni bir anlığa da olsa, yaşamış olur: "biz başları bədənlərindən ayrılmış insanların necə yaşadığını görürük; biz qıçı qoparılmış əsgərlərin necə qaçdığını görürük; biz özümüzü yaxındakı çuxura salmaq üçün qaçdıqda insan vücudu parçalarına ilişirik; bir onbaşı əllərilə çapalayaraq öz arxasınca əzilmiş qıçlarını iki kilometrə qədər sürümüş, bir başqası bayıra tökülmüş olan içalatını əliylə tutub yara bağlayan məntəqəyə getmişdi... qanı tamamilə axmasın deyə, qolunda yarılmış şah damarını iki saat müddətində dişlərilə sıxan birinə də rast gəlirik. Günəş batır, gecə düşür, top güllələri vızıldayır. Həyat sona çatır"...

Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur"u səbəbsiz yerə mükəmməllik dərəcəsində deyil. Burada Remark təxəyyülünü yox, gördüyü real hadisələri göstərib. Əsərdəki olaylar onun yaşadıqlarıdır. Bir növ, Boymer obrazı Remarkın prototipidir, demək olar. Lakin kağız üstündə bir fərqləri var: Boymer ölür, Remark yaşayır. Amma bilmək olmaz, Remark müharibədən sonra ruhu ilə də yaşayıbmı?

Yazıçı müharibənin psixoloji aspektlərini sadə dildə, həm də bir psixoloq kimi təqdim edib. Boymer məzuniyyətə evə gəldiyi zaman yenidən kitablarına, xatirələrinə – bir sözlə, əvvəlki həyatına qovuşduqda böyük bir boşluq yaşayır. Bu, məktəbdən cəbhəyə düşdükdən sonra iki dünya arasında yaranmış boşluğun göstəriciləridir. Artıq sakit, gündəlik həyatdan heç bir əlamət qalmayıb. Toplar, pulemyotlar, güllələr təkcə torpaqları və insanları yox, onların xatirələrini də nişan alıb...

Əsərdə həmçinin döyüşlərin, müharibələrin, əslində, bir mücadilə növü yox, yalnızca böyük siyasi qüvvələrin oyunu olduğu da diqqətdə saxlanılır. Burada savaşın iç üzü, pərdə arxası idarəçilər, müharibədən gəlir götürən və öz faydası üçün istifadə edənlər ifşa olunub.

Nurlan AĞA

GÖYÜZÜ VƏ BULUD HAQQINDA

Aynur NURLU

Qədim zamanlarda Göyüzü adlı yaraşıqlı bir cəngavər vardı. Göyüzündə çoxlarının gözü vardı; Ulduzlar, Çaylar, yaşıl zolaqlı ucsuz-bucaqsız Çəmənliklər belə, Göyüzünə həsrətlə baxardı. Göyüzünün qızıl saçlı həyat sirdaşı vardı – Günəş. Onların Ay adlı, bədirlənmiş gözəl qızları vardı. Heç kəs cəsarət edib Göyüzünə öz sevgisini etiraf edə bilmirdi; hər kəs Günəşdən qorxurdu. Gecələr Günəş yatdıqda isə Göyüzünün yanında qızı Ay olardı. Beləcə ay dolanar, illər bir-birini əvəz edərdi.

Bir gün Göyüzü çox darıxdı, sanki nə isə çatışmadı həyatında. Ətrafa nəzər saldı. Sayrışan Ulduzlar onun nəzərini hiss edən kimi yanıb-sönməyə, göz vurmağa başladı. Çaylar istiqamətini dəyişib şaxələndi, var gücləri ilə çağlamağa, daşmağa, onu səsləməyə çalışdı. Yaşıl zolaqlı, ucsuz-bucaqsız Çəmənliklər isə düşündülər:

– Nə sayrışan Ulduzlar, nə də ki axar Çay indiyə qədər Göyüzünün diqqətini çəkə bilməyib. Bizim enlilikdə Yaşıllığı bu yaraşıqlı heç bəyənməz! Bu fikirlərlə onlar Göyüzünə baxa-baxa soldular, həsrətdən saraldılar.

Qəfil Göyüzünün gözlərinə mavi libaslı gənc qız göründü – Bulud. O, yaşlı atası Küləklə əl-ələ tutub səmada süzürdü.

Göyüzü düşündü:

– Necə də cazibədardır!

Sonra qəfil özünü məzəmmət etdi:

– Axı mən evliyəm! Bulud isə gənc, pak səma mələyidir. Onu sevə bilmərəm!

Bulud Göyüzünün ona zillənmiş aydın nəzərlərini hiss etdi, atası Küləyin əlindən dartınıb Göyüzünə tərəf üzdü. Utancaq halda dilləndi:

– Xoş gördük, Göyüzü! Mən Buludam.

Göyüzü güldü:

– Bilirəm, amma yaman böyümüsən, gözəlləşmisən. Artıq yağan zamanındır! Sənin toyunda gör nə fişənglər təşkil edəcəm! Büsbütün hər yerə şimşək yağdıracam, paxıllıqdan Ulduzlar, Çaylar, Çəmənliklər çat verəcək!

Bulud bir qədər bikef halda yırğalandı, ağ pambıq yanaqlarını şişirtdi:

– Onlar yalnız sən mənim olduğun zaman çatlaya bilərlər! – dedi və sürətlə atası Küləyin yanına üzdü.

Bu cavab yaraşıqlı Göyüzünü çox düşündürdü, qızın inanılmaz cəsarətini təəccüb və heyrətlə qarşıladı. İndiyə qədər heç kəs Göyüzünə bu sözləri söyləməmişdi. Hətta qızıl saçlı parlaq Günəş belə ona heç bir zaman istəyini, arzusunu deməzdi. Vaxtı ilə Kainat nəslinin seçdiyi, bəyəndiyi qız idi Günəş.

Göyüzü gecələr yatmamağa, səhərə qədər Buludun ona dediyi sözlər haqqında düşünməyə başladı. Ay qızı sual verəndə dağınıq cavab verərdi, Günəşlə çalışardı qarşılaşmasın, fikri mavi Buludun yanında idi.

Bir gün o, yenə Buludla qarşılaşdı. Bu dəfə qız Səmada tək üzürdü. Göyüzü ona görcək yenə aydın nəzərlərini Buludun dəniz gözlərinə zillədi:

– Nə yaxşı oldu, səni gördüm!

Bulud həyəcanlandı:

– Yəni o qədər çox arzulayırdınız məni görməyi?

Göyüzü cavab verdi:

– Əlbəttə, çox düşünürəm sənin haqqında. Gəl bir gün Günəş Səmadan çəkildikdən sonra görüşək.

Bulud həyəcan içində yırğalandı.

Göyüzü Buludu qüvvətli əlləri ilə bağrına basdı, bu nəvazişdən Bulud duman kimi onun bədəninə yayıldı. Bulud özü də Göyüzünə vurulmuşdu, odur ki, onunla görüşməyə söz verdi.

Külək ata qohumları Ümmangilə qonaq əsməli idi. Buludu özü ilə sovurub aparmaq istəsə də, qızı naxoşladığını deyərək Səmada qalacağını söylədi.

Külək qızının pambıq alnından meh dodaqları ilə öpərək, titrək-titrək:

– Bax, qızım, sən mənim yeganə ümidimsən, özünü qoru, – söylədi və Ümman tərəfə əsdi. Artıq Səmaya Gecə adlı pərdə çəkilirdi; hər kəs dincəlməyə qərar verdi. Günəş yorğun baxışları ilə Göyüzü ilə sağollaşıb, Səmanın bir küncünə qısıldı və şirin yuxuya daldı. Göyüzü onu acıqlı nəzərlərlə süzüb, elə yerindən tərpənmək istəyirdi ki, Ay özünü çatdırdı:

– Ata, sənin üçün darıxmışam!

Göyüzü onun nurlu çöhrəsindən öpdü:

– Gözəl balam, səni çox istəyirəm, amma getməliyəm. Səmada bir qədər işlərim var.

Ay dilləndi:

– Mən də sənlə gedirəm!

Göyüzü əsəbiləşdi:

– Qızım, asıl qal Səmada, mən də tez qayıdacam!

Göyüzü Buludla görüşə getdi. Bütün gecəni Ay atasını gözlədi, Göyüzünün gəlmədiyini görcək Səmaya qalxdı, oradan nurlu çöhrəsi ilə ətrafa işıq saçaraq, boylanmağa başladı. Göyüzünü yenə görmədi, Ulduzlara səsləndi:

– Ey, Səma muncuqları, atamı görməmisiniz?

Ulduzlar Göyüzünü Buludla gördüklərini dedilər:

– Onlar tez- tez bərabər buxarlanırlar, – deyib yanıb-sönməyə, bir-birlərinə göz vurmağa başladılar.

Ay əsəbiləşdi, dərhal nurunu Buludun pəncərəsinə yönəltdi; atası Göyüzünü Buludla bərabər görcək az qaldı, yerə enə. Göyüzü məmnun halda yeni sevgilisindən ayrılıb Səmaya qayıdarkən, Ayı Səmada asılı tapdı. Ay özünü asmışdı… Göyüzü dərhal qızını qüvvətli qolları üstünə aldı, Ayın yarısı artıq yox idi. O gözəl, bədirli, mələk simalı qızdan indi burnu, çənəsi iti əcaib məxluq qalmışdı.

Göyüzü öz günahını anladı, Aya yalvarmağa, bir daha səhv etməyəcəyinə söz verdi. Ay özünə gəldi, amma əvvəlki təki bədirli olmadı. İti burnu və şiş çənəsi bir kənara, üzündə iztirabdan, göz yaşlarından qara ləkələr peyda olmuşdu.

Ertəsi gün Bulud Göyüzünü axtarırdı, ona şad xəbəri vardı. Göyüzü onu uzaqdan görcək sarısaç ömür sirdaşı Günəşə sarıldı. Bulud kövrəldi, əsdi, cəld Səmanın bir küncünə üzdü.

Aradan bir qədər keçdi, buludun Leysan adlı oğlu doğuldu. Külək Göyüzünün yanına gəldi:

– Heç xəcalət çəkmirsən? Sənin də Ay qızın var, amma mən həmişə onun yanından ata kimi əsmişəm.

Göyüzü qəzəbdən Şimşək yağdırdı. Külək korpeşman qızı Buludla nəvəsi Leysanın yanına qayıtdı.

Bir gün sarısaç Günəş Buluddan intiqamını alacağını düşündü:

– Göyüzünü əlimdən almaq istəyi kənara, qızım da şikəst qaldı! Mən sənin həyatını məhv edəcəm, Bulud! Mənə də Günəş deyərlər. Sənin kimi pambıq yelli nəslin qızı deyiləm, mən qızıllı, ləlcəvahiratlı Kainatın qızı Günəşəm, Günəş!"

Bir gün Bulud dolub ağlayarkən, Leysan da ona qoşuldu. Onlar ürəklərini boşaltmaqla, bununla bir qədər Göyüzündən mərhəmət dilədilər; axı Leysan atası Göyüzünün üzünü belə görməmişdi, Heç Göyüzünün də oğlu Leysanın varlığından xəbəri yox idi. Bu səs- küydən Göyüzünün xəbər tutacağından ehtiyatlanan Günəş, parlaq saçları ilə Leysan yağdıran Buludu qurutmağa başladı. Bir qədər sonra artıq Bulud yox idi; o buxarlanmışdı. Leysan da kəsmişdi, daha yağmırdı, çünki onun da həyatını qızmar Günəş tükəndirmişdi.

Zavallı Külək ata Səmada var-gəl eləyir, vıyıldayır, sızıldayır, qızı Buludla nəvəsi Leysanı tapmaq üçün dolaşırdı.

Çaylar və yaşıl Çəmənliklər Buludla Leysanın yerə əndərilərkən buxarlanmaları haqqında Külək ataya danışdılar. Sarısaç Günəşin Bulud və Leysanın qatili olduğunu açıb söylədilər. Külək dərhal Göyüzünün yanına – Səmaya əsdi:

– Sən övlad qatilisən! – dedi.

Göyüzü bu dəfə qocanı dinləməyə qərar verdi. Bütün olanlardan xəbərdar olan Göyüzü, parlaq saçlı Günəşdən ayrılmağı qərara aldı. Külək ata Səmanı tərk edərək, artıq torpaq üzərində qızı və nəvəsinin nəfəsinə yaxın əsirdi. Yaraşıqlı Göyüzü öz rəngini dəyişərək, bozarmışdı, əvvəlki aydınlığı qalmamışdı. O, həsrətlə Səmadan aşağı – torpağa tərəf baxırdı; Buludla Leysanı düşünərək, qəm içində Səmada gəzinirdi.

Ay isə Gecə pərdəsi tam çəkildikdən sonra ürkək-ürkək Səmaya qalxaraq ətrafa boylanar, eybəcərliyini görməsinlər deyə, əvvəlkitək Yer üzünü nura boyamazdı.

Günəş onlardan uzaq gəzərdi; nə Ayla, nə də ki Göyüzü ilə görüşməzdi, Küləklə isə, ümumiyyətlə, yola getmirdilər; o, parlayan yerdə Külək əsməzdi, Külək dolaşan məkanı isə Günəş isitməzdi.

Buludla Leysanın torpağa enərək yağdıqları Çəmənliklərdən cücərən Çiçəklərin ətri hər yeri bihuş edər, Payızda solar, Yazda yenidən açardı. Külək ata isə bu ətri bütün diyara yayar, Göyüzü və Bulud hekayətini nəql edərdi.

İNDİ UZAQLARDAN

İndi uzaqlardan,
Uzaqlardan bir qız gələ.
Ayaqları gülə-gülə,
Əlləri oxuya-oxuya,
Nəfəsi sevgi qoxuya...

İndi uzaqlardan bir qız gələ
Ahmet Kayanın sazının telində...
Adamın qulağına
Sevgi pıçıldaya...

Sonra səssizliyə gömülə
Adamın qulaqları,
Paralana bir doğma öpüşə
Liman olmayan dodaqları...

Sonra ayağı məktublu quşlar kimi
Uçub gedə adamın ruhu,
Uçub gedə o çapıqdan...

UZAQLARI GÖZLƏMƏ

Bədənimdə çox soyutdum,
Çox soyutdum ayrılıqlar mərmisini.
Çox iriçaplı ayrılıqlara
Vətən oldu bədənim.

Əllərimlə tutdular,
Tutdular məni.
Əllərimlə vurdular,
Vurdular məni.

Əlim necə də ağır imiş, İlahi!
Kimsəni vurmaq üçün qaldıra bilmədim,
Endi əllərim, öz başıma endi.

Ayaqlarımla çıxıb getdi gedənlər,
Məndən gedənlərin ayaqları olmadı.
Mən ayaqsızlığımın üstündə dayanaram,
düşündün...

Yollarımı da gözü dolusu verdim,
Verdim, bütün yollarım sizin olsun, dedim,
Gedin, gedin, ayağınız xeyrə işləsin...

Saqif Zeynal

Uzaqlara salladım baxışlarımı,
Kəsdilər, işığını kəsdilər.
Bir cüt quyuya düşdü gözlərim.
Yollama,
Baxışlarını uzaqlara yollama,
Gözləmə,
Bir də uzaqları gözləmə,
Gözləmə, qürbət bədənim...

QAÇQIN İTİ

Quyruğunu bulamaz,
Hərdən yorğun-yorğun
Başını yelləyər,
Hürməzdi.

Heç mırıldamazdı da
Qapısını qoruyan itlərin yanında.

Elə bil bizimlə gəlməməli,
Həyətimizi yiyəsiz qoymamalı,
Qalıb düşmənlərə hürməli idi.

Hər gün bir az qocalırdı ağzından,
Hər gün bir az kədərli görünürdü qocalığından.
Qocalanda dünyanın ən yazıq canlısına
çevrilirmiş itlər...

Öləcəyi axşam bir ağız ulamışdı.
Nənəm "Ay it, öz başını ye" demişdi.
Səhər öldüyünü biləndə ağlamışdı...

NƏSƏ BELƏ OLMAMALIYDI, DOSTUM!

Cazibə qüvvəsinə söykənib
Göylərdə dayanan qoca Günəş
Hər gün Şərqin qapısından girib
Qərbin bacasından çıxmamalıydı çölə.

Bir sabah açılmamalıydı Şərqin qapısı,
Bir axşam Qərb pəncərəsini çırpmamalıydı
üzümüzə.
Bir gün başqa açılmalıydı səhər,
Axşam başqa cür düşməliydi göylərdən...

Göy üzündə üzməməliydi bulud gəmilər,
Belə əsəbi əsməməliydi küləklər,
Titrəməməliydi ağacların yarpağı,
Yağışlar islatmamalıydı adamları…

Biz də belə sevməməliydik,
Belə unutmamalıydıq,
Belə unudulmamalıydıq,
Tanrım! Başqa cür sevməli,
Başqa cür unutmalı,
Başqa cür unudulmalıydıq...

Hər gün eyni adamlar gedib
Eyni adamlar qayıtmamalıydı bu kimsəsiz
şəhərə.
Kimsə gəlməliydi uzaqlardan...
Kimsə gəlməliydi!
Və bizə mutlu günlər gətirməliydi qucağında.

Nəsə belə olmamalıydı, dostum!

Seyran SƏXAVƏT

Tünd rəngli kitabın üz qabığında yanan şamın onu mühasirəyə almış qaranlığa o qədər də gücü çatmır – bu qatı qaranlıqdakı soyuq işıqda heç şamın özü də o qədər aydın görünmür.

Səkkizinci səhifə, yaxud yanan şamlar heç vaxt sönmür

Boy-buxunundan görünür ki, bu şam çoxdan yanır, əməlli-başlı oturuşub, ömrünə az qalıb. Ancaq yaxşı ki, həyatda yanan şamlardan fərqli olaraq şəkillərdə yanan şamlar heç vaxt sönmür, tükənmir... Şəkildə şam olub əbədi yanmağa nə var ki?!

Hünərin var, həyatda şam kimi yana-yana özünü ərit və heç vaxt da tükənmə – bu da sənə şəkillə həyatın hər yerdən görünən fərqi...

Sən demə, üz qabığı bu kitabın içindəki şeirlərin ruhudur – kitabın üzündə, sifətində zühur eləmişdi – adam balasının içi üzündə, sifətində zühur eliyən kimi.

Gözlərimdə bir ovuc
yuxu üşüdü,
səbrimdən keçən cığıra
qar düşdü.
Alın yazımın sətirləri
arasında
uzaq ellərin ağrısı
çıxdı köynəkdən...
Dilimdəki "sevirəm" sözü də
bu ağrıdan, bu göynəkdən...
Əlvida, dostum,
əlvida
Daha çıxıb gedirəm
ömrün o başına;
Səni Allaha tapşırdım,
özümü də bir cüt göz yaşına.

Ayrılıq mövsümünün əlvida məqamındakı ölüm çəkisi ilə tən gələn ovqat haqqında son dərəcə həssas və sərrast bir deyim. Özümdən asılı olmayaraq onu da fikirləşdim ki, görəsən, Allaha tapşırılan o kəs, çoxdan unudulmuş iki sözlə desək, lirik qəhrəman, o bir cüt göz yaşına dəyərmi? Və cavabını da tapdım: yəqin ki, dəyər; əgər belə olmasaydı, belə yazmazdı və bu yerdə mənim fikrim əsas deyil – əsas özünü bir cüt göz yaşına tapşıranın – şairin fikridir ki, istəsək də, istəməsək də, onunla hesablaşmaq – razılaşmaq məcburiyyətindəyik...

Bir də, məni qınamayın, o bir cüt göz yaşı kitabın üz qabığında yanan şamın göz yaşlarına yaman oxşayır ha... elə bil bir almadı, yarı bölünüb.

Belə götürəndə şam da İnsandır – ikisi də yananda ağlayır...

O qadının ömrü
Kirpik-kirpik,
Quşbaşı qar kimi
Yağır ovcuna...

Maşa ilə yox, barmaqlarını yandıra-yandıra yox, kirpikləri ilə od götürən qadının ömrünün bir gün kirpik-kirpik, quşbaşı qar kimi ovcuna yağması ağlagəlməz olsa da, gözləniləndi. Ömür yolunun bu ağrılı gəzintisi həyatda uzun çəkən bir proses olsa da, şeirdə bir anın içində gözlərimin önündə canlanıb ürəyimi ağrıtdı və onu da deyim ki, bu cür ürək ağrısının, Hippokratın özünün və "törəmələri"nin ağlına gəlməyən müalicəvi əhəmiyyəti var – bu, dəqiqdir.

...ürəyi üşüməsin deyə,
köksündən çıxarıb alar ovcuna...
ovcunda çırpınan ürəyin ağrısı
isti qan kimi
damcılayar,
damcılayar
Allahın səbri üstə.
O qadın arzuları
payız-payız tökülər
içində dəfn etdiyi
vəfasız bir adın
qəbri üstə...

Allahın səbri üstə tökülən damcıların Allahın səbrini nə dərəcədə, hansı şəkildə dəyişəcəyi barədə bir söz deyə bilməsəm də, onu dilimə gətirə bilərəm ki, bu damcılar da şamın "gözlərindən" tökülürdü – çünki şamın gözləri qızarmışdı...

İnsanın ömür boyu heç vaxt barışmaq istəmədiyi məqamlar çox olur və yaşam müddətində bəziləri ilə barışır, bəzilərilə sona qədər "küsülü" qalır, dünyasını dəyişir. Sizə deyim ki, bu barışmazlığın yeri var, yeri böyükdür və birbaşa Allahın nəzarəti altındadır. Uzun sözün qısası, İnsanın ömür boyu heç vaxt barışmaq istəmədiyi və əsasən də barışmadığı məqam, insanın özünün öz gözündən düşməsi ovqatıdır və yaşından, həyat tərzindən asılı olmayaraq, bu, hər kəs üçün son deməkdir. Adam bütün həyatını, mövqeyindən asılı olmayaraq yıxılıb dura-dura yaşayır. Özünə hörmət eləyən, öz çəkisini bilən insanlar əksər hallarda təzədən ayaq üstə dura bilib. Ancaq özü öz gözündən düşmüş adamların yıxılanda təzədən qalxması çox çətin olur və əksər hallarda qalxa bilmir.

Tutub məni sözümdən,
Alıb məni özümdən,
Salma belə gözümdən,
Yıxılıb durmağım var...

Bu bir İnsanın istəyidir və mənə elə gəlir ki, İnsanın İnsandan istəyə biləcəyi əəən böyük diləkdir – bu istəkdən böyük yalnız Allahdır!

Başqa bir şeirində:

Əllərim göylərə
Açılmış "Quran",
Ürəyim mələk yuvası.
Sənə edirəm yenə
Tanrı duası -
Sevgi duası...

Əlləri "Quran" kimi göylərə açılı vəziyyətdə mələk yuvası ürəyi ilə, dilində də Tanrı duası, sevgi duası olan İnsan adlı ucalıqdan nəyi əsirgəmək olar ki? Əsirgəmək olarsa, o kimdir? Mən beləsini tanımıram, tanıya da bilmərəm, dəfələrlə görsəm də... Bu yerdə ancaq Allah işə qarışmalıdır... Allah məni o Kəslə tanış eləməlidir, əgər bu tanışlığı layiq bilsə...

Öz aramızdı, İnsan adlı ucalığın diləyini əsirgəyən o kəs olmasaydı, bu şeir də yazılmazdı haaa...

Çox qəribədir...

Çox ağrılıdır...

Bəlkə də, dünya bu qədər qəribə və ağrılı olmasaydı, həyatdan heç vaxt doymayan İnsan doğulandan beş-on gün keçməmiş başlayardı dırıxmağa ki, bu nədi eee belə...

İliç lampalarının işığı, radio-televiziyanın hayküyü dünyaya gəlməmiş, altmış-yetmiş il bundan əvvəl Azərbaycanın kəndində-kəsəyində nağıl deyənlər olardı; ağzımızı açıb saatlarla onların ağzından noğul kimi tökülən, iliyimizə-qanımıza işləyən nağıllara qulaq kəsilməkdən doymazdıq. O illəri boş-boşuna xatırlamadım. Əlimdəki əl boyda şeir kitabını oxuduqca elə bil ki, bir İnsanın – Şairin ovcunun içindəki tale cizgi-

lərini qaraçı qadın kimi "oxuyuram" və mənimlə qaraçı qadının fərqi ordadır ki, mən gop eləmirəm; çünki şairin əlinin içində gop yoxdur; onun əlinin içindəki heroqlif-cizgilər o qədər səmimi və inandırıcıdır ki...

Bir də mənə elə gəldi ki, bu kitabın içindəki, həm də şairin əlinin içindəki şeirləri – tale cizgilərini mənə Qarabağın ən məşhur nağıl deyənlərindən olmuş, Seyid Şuşinskinin həmkəndlisi, Dördçinarlı Gülnisə arvad danışır, mən oxumuram... mən qulaq asıram...

İndi baxın, görün şair cəmi-cümlətani iyirmi beş sözün gücünə arxalanıb əks qütblərdə üzüzə dayanan insanların qara xəbər kimi ağır yükünün arasında necə harayçılıq edir:

İstədim evimdən köçürəm səni.
İstədim yolumdan qaçıram səni.
İstədim gözümdən itirəm səni.
İstədim özümlə bitirəm səni.

Bitmədin,
itmədin,
köçmədin...

Yağdın – yağış kimi,
Bitdin – qamış kimi...

Köçməyi, qaçmağı, itməyi və bitməyi bacarmayan, istəməyən birisinin əlindən nə gələr ki? Qədim xalq mahnısında olduğu kimi (Allah Bülbülə də rəhmət eləsin):

Ancaq bu xalq mahnısında oxunan bəndin son iki misrası köçməyi, qaçmağı, itməyi və bitməyi bacarmayan, istəməyən o kəsə heç vaxt aid olmayacaq:

Oğlana qız yaraşır
Xançala gümüş kimi...

Kişinin oğlu bu yaraşığı özünə yaraşdırmır də, özü bilər... bir də bu şeir kitabının müəllifi. Şairlə lirik qəhrəmanın arasına girən iylənib çıxar – necə ki, ətnən dırnağın arasına girəndə...

Dünyada hər şeyin ilkin fiziki xassəsi onun tükənməyindədir. Əslində, insan ölmür – tükənir. İnsan tükənməyinin iki istiqaməti var: adam kimi, yaxud son tikəsi manqalda qızaran əti yeməli dördayaqlı kimi.

Tükənəndə də Adam kimi, Adam həsrətilə tükənəsən – bax belə:

Ləçək-ləçək tökülürəm,
İlmə-ilmə sökülürəm,
Bənövşətək bükülürəm
Sən olmayan günlərdə...

Onsuz da hamımız tükənəcəyik. Ancaq deyirəm ki, nə olar, tükənəndə də belə tükənəsən...

Allahın insana bəxş elədiyi ən böyük əmanət mərhəmətdir. Gözümüz və qulağımız açılan gündən eşidirik ki, əmanətə xəyanət olmaz. Elə bilirəm ki, əmanətə xəyanət Vətənə xəyanət qədər ağrılı və qəbuledilməzdir.

İnsan hər şeyini itirə bilər: evindəki əşyaları, doğmasını, vətənini, avtomobilini, vəzifəsini... Bu itkilər nə qədər ağır və dözülməz olsa da, mərhəmət itkisinin yanında, deyərdim ki, heç nədir. Axşam televizorda "Xəbərlər"ə baxın, görün mərhəmət hissinə – Allahın ən böyük əmanətinə xəyanətə görə milyonlarla barel insan qanı tökülür, körpələrin qanı torpağa hopduqca (su əvəzinə) torpaq doğub-törəməz olur, bəşəriyyətin bərəkəti qaçır və bərəkəti qaçan bəşəriyyət günbəgün, saatbasaat daha da qəddarlaşır, qəddarlaşdıqca da Allahın əmanəti tapdalanır – bəs bilmirdiniz ki, Allah da bizi tapdalayacaq?!

Əlqərəz...

Şairin doqquz sözdən ibarət şeirində kəlmələr nə boyda boy göstərib:

Körpə hıçqırdı...
Səni bağışladım günahlarına...
Taleyin sənə olan
qarğışlarına...

Dünyanın hər yerində günahlara görə adama cəza verilir, əlbəttə, o baxır günahın boy-buxununa, sir-sifətinə. Şair isə lirik qəhrəmanını günahlarına görə cəzalandırmır, əksinə onu məhz elə günahlarına görə bağışlayır... bir də taleyin ona elədiyi qarğışlarına...

Belə böyük, geniş ürəyə Sahiblik eləməyin, bağışlamağı bacarmağın yolu yalnız və yalnız Allahın insana verdiyi mərhəmət hissinə – Ən Böyük Əmanətinə xəyanət etməməkdən, onu qorumaqdan keçir. Bu yerdə ürəyimdən bu sözləri demək keçdi:

– Mərhəmətsiz Cənablar, üzünüzü şairlərə tərəf çevirin! O şairə ki, deyir:

Yadıma
xatirə çağında
soyuq bir
axşam düşdü.
Bu ömrün
ləçəyi bizim,
gülü yarpağın.
Boyumuza baxıb
qəbir-qəbir
gözləri gülür torpağın.

Bu kitabı oxuyandan sonra uzun illər boyu təkrar-təkrar dediyim sözümün üstündə durmuram, sözümdən qaçıram. Həmişə demişəm ki, şeir dərk etmək üçün yox, duymaq üçündür – çünki dərk etməyin meydanı duymaq meydanının yanında kolxoz xırmanı boyda bir şeydi; bəlkə də, mənim dediyimdə həqiqət ona görə var ki, Yer kürəsi də (axı insan ən çox Yeri dərk etməyə cəhd edir) xırman kimi yumrudur. Bu şeirləri həm duydum, həm də gördüm; bəlkə də, duyduqlarım görüntüləndi – hələ özüm üçün də tam aydınlaşdırmamışam və bu natamamlığın içində yenə Duyuram ki, səhv eləmirəm...

Kitabda məlum Aprel döyüşlərindən söz açan kiçik həcmli "Səs" poemasını oxuyandan sonra şairin – bir qadının öz xalqının övladlarının üstündə nanə yarpağı kimi əsə-əsə onların igidliyi ilə necə ürək dolusu fəxr etməsi ilə mən də fəxr elədim:

Yazağzı
Kirpik-kirpik qaçdı
torpağın
yamyaşıl yuxusu.
Səngər-səngər çiçəklədi
ürəklərdə zəfər qoxusu.

Və yaxud:

Ürək çatladır,
qaralmış divarların
şəhid libası...

...Kitabın annotasiyasında oxudum ki, şair AYB-nin üzvüdür, elə bu təşkilatda qadın problemləri üzrə komissiyanın sədridir. Prezident mükafatçısı olmaqla yanaşı, Rəsul Rza mükafatına da layiq görülüb. 2006-2007-ci illərdə ilin ən yaxşı şairi adını alıb. Ona yaxın şeir kitabının müəllifidir. Türkiyədə, İranda, Rusiyada keçirilən şeir şölənlərində iştirak edib, əsərləri xarici dillərə tərcümə olunub, şeirlərinə mahnılar yazılıb və s.

Düzü, bir az özümdən incidim ki, niyə indiyə qədər bu şairi tanımamışam. Artıq indi tanıyıram və incikliyim də keçib getdi.

Bilirsiniz, Yazıçılar Birliyinə gedən kimi dörd tərəfdən adama kitab bağışlayırlar və fikrimi bildirmək istədiklərini deyirlər. Belə kitabların hamısını oxuyuram, ancaq hara qədər oxumaq mümkündürsə – özümü zorlayası deyiləm ki...

Yaradıcılığına bələd olmadığım müəlliflər olanda kitabın hər hansı bir səhifəsini açıb oxuyuram, xoşuma gələndə axıra qədər gedirəm. Bu dəfə də belə oldu. Şəfəq Sahiblinin kitabını açdım; səkkizinci səhifə. Yuxarıda misal gətirdiyim kimi şeir belə başlayırdı: "Gözlərimdə bir ovuc yuxu üşüdü..." Sonra kitabın əvvəlindəki "Qayıt" şeirinə qayıtdım və axıra qədər oxudum – bu da nəticəsi.

Bu cür bənzərsiz şeirlərə görə Şəfəq Sahibliyə sözüylə həmişə belə qol-boyun olmağı arzulayardım. Çünki Sözdən etibarlı yalnız Allahdır!

Özümdən asılı olmayaraq, yenə Şəfəq Sahiblinin "Bu sevgiyə ölüm gəldi" kitabının üz qabığına nəzər saldım.

Özünü güclə işıqlandıran şam hələ də yanırdı.

Üz qabığında yanan şamlar heç vaxt sönmür...

DƏRGİDƏ KİTAB

Elnaz EYVAZ

SAATI SABAHA QUR

***

Nə qədər uzun olur,
olsun.
Əl boyda kəndirlə
ölçüləcək qədərdir
ömür...

***

Darıxma,
bir şey qalmayıb,
üzmüşəm ömrünü,
ömrüm...

***

Hamı gedir –
gec-tez.
Kimi öz ayaqlarının,
kimi də
özgə çiyinlərinin üstündə...

***

Sağda qızım,
solda atam.
Tut əlimdən:
biz nələri
atlatmışıq neçə yol,
susma,
ürək,
kişi ol...

***

Gedirsən get,
nə deyim,
əllərimi oxşayan
əllərini ver və get.
Dalınca ağlayanda
gözlərimi siləcəm
barmaqlarınla sənin.
Silmə,
gözlərim aydın...
Bilirsənmi, nə qədər
çəkilməyən yükü var
gözünü yaşlı qoyub
yarıyolda gedənin?!
Axı hardan biləsən,
qalan mənəm, gedən sən.
Bilmə,
gözlərim aydın...
Qollarım arasında
bir köynək tər tökməyin,
bir qismət ölməyin var –
həyatdır da, əcəlin
dolanıb gəlməyi var –
bir də haçan gələrsən?
Sən bir də öp üzümdən,
ümidini üzmə, get.
Eybi yox... mən ölərəm
xəyalının dizində.
Ölmə,
gözlərim aydın...

***

Qal və
bircə ümid ver,
bax burdan qapıyacan.
Sən sev məni,
mən özüm
birtəhər yaşayacam...

***

Səhər
Günəşi gördüm:
əllərimdən öpüb üşüdü...

***

Yığışın, keçin içəri,
gözlərim:
yollar uzun, ömür qısa,
hava sərt.
Qaranızı heyif etdim
mən namərd...

***

Darıxırsan vəhşicəsinə,
canın gözlərinin bulağına yığılır
iki damcı yaş kimi.
Yaşaya bilmirsən;
öz boynundan asılırsan
çəkindən ağır daş kimi.
Hər şey sıxır səni,
hamı yerini dar edir.

Adam
öncə ölür,
sonra intihar edir...

***

Darıxmağın leksik mənası:
bir cüt baxış,
bir tumar
və Sən...
Gələrsən,
bir çaydan çay
soyuyar qımışa-qımışa,
havadan-sudan danışarıq:
yay da yarı oldu,
daha nə qalıb qışa?!
Arada baxışlarımız
düyün düşər,
ha qaçırarıq,
bir-birinə ilişər...
Sonra hava qaralar
utana-utana,
ay başlayar yazıq-yazıq
göy üzündə sürünməyə.
Hərə öz damının altına qaçar,
təkliyinə bürünməyə...

***

İlahi, nə darıxmaqdır,
darıxır adam, darıxır.
qapımın soyuq dəstəyi,
bir az da odam darıxır.

Bu istidə nə soyuqdur,
üşüyür ürəyim yenə?!
Necə başa salım sənə,
canımda qadam darıxır.

Verdiyin ömürə şükür,
gülməyə də ərinirəm.
Bir yanda mən sürünürəm,
bir yanda atam darıxır.

***

Darıxdım gün uzunu,
yol boyu, küçə boyu.
Saat əqrəbi istiqamətində
düşündüm durdum səni.

Bağışla... yordum səni.
Gün batdı, gecə gəldi,
gəldi utana-utana:
"mən nə deyim bu qadına?!"

...Darıxdım gecə gözü,
başıma düşdün bu gecə,
daş kimi...
Kişi kimi sevdim səni,
balam kimi əzizləyib,
güvəndim qardaş kimi.

***

Bir də səndən uzaqda
kor işıq axtaran kimi
xoşbəxtlik axtarmaq var.
Əllərim əsə-əsə
həyatın eninə-uzununa
çırpdım özümü –
hər yan dörd divar.
Səndən uzaqda heç nə yoxdu,
hər şey əfsanədir,
nağıldır.
Bu nə ağıldır
verdi mənə
Səni yaradan?!
Bir də köksündə uyumaq vardı,
sakit, səssiz.
Sanki nəfəssiz
dinləmək,
ürəyinin döyüntülərini,
saymaq, saymaq, saymaq...
Bir sən varsan,
səhərəcən özünə zülm verən
əllərimin, gözlərimin, dodaqlarımın bir
addımlığında.
"Qal, getmə, qal!!!" – deməyə qısılıb
"yaxşı yol" deyən dilimin ucunda
göyüm-göyüm göynədin...
Neynədin, Adam, neynədin?!

***

Taxtına kim çıxdı sənin,
hökmünə kölə elədi?
Səndən başqa bu məzlumu
kim eşqdən dəli elədi?

Ürəyinin əlindən tut,
qapımı açım üzünə.

Bir daş altda, bir daş üstdə,
Görünmə əğyar gözünə.

Allahın adamı çoxdu,
Adamın Allahı ola.
Səndən başqa kimim var ki,
Ürəyimin şahı ola?!

***

Saatı sabaha qur,
yuxuna gəlim gecə.
Taleyə oyun quraq,
hesab olsun heç-heçə.

Kimdi yuxuda görən
sənin yanında məni?!
Kimsə oxuya bilməz
gözündən səksəkəni.

Yumulu gözlərində
apar səhərə kimi.
Köçürüb gözlərinə
səni sevən şəklimi...
Yenə səhər açılar
tellərimdə nəfəsin.

Səni görmək həvəsim
keçərmi, səncə?! Necə?!
Saatı sabaha qur,
yuxuna gəlim gecə...

***

Nəfəsinin istisini üz-gözümdə.
Gülüşlərini dodaqlarımda,
barmaqlarını tellərimdə,
varlığını körpəm kimi bətnimdə
hiss etməsəm,
döyünməsən sinəmdə
ürəyim kimi...
Baxışların lay-lay çalmasa mənə,
xəyalını sıxıb sinəmə
gözlərindən öpməsəm,
əllərini axtarmasam hər səhər,
çaşıb çəkməsəm adını,
qırmasam sözümün qolunu-qanadını,
boğazımda bir udumluq qəhər
dolmasam göz kimi,
gəlməsə üstümə divarlar,
ölməsəm, ölməsəm, ölməsəm,
sənsiz yaşamağa nə var..

NEW YORK
Ləman Fərruxi
SƏRGİ
Müdafiə — hüququm

ISNN 0134-522
İNDEKS AZ 1000 2 AZN